www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 yanvar 2015-ci il Cümə № 10 (6038) Qiymәti 40 qəpik

**Xəbər**

## Benzinin qiyməti düşdü, bəs bahalaşan ərzaq məhsulları?

yazısı səh.15-də

**Gündəm**

### Türkiyə və Azərbaycan prezidentlərinin görüşündə mühüm mesajlar



İlham Əliyevin qardaş ölkəyə səfəri bütün strateji məsələlər üzrə tam anlaşma şəraitində keçdi; uydurma "genosidin" 100-cü ildönümündə - aprelin 24-də prezidentlər Ankarada Çanaqqala zəfərini qeyd edəcəklər...

yazısı səh.4-də

### Bakıda Amerikadakı vəziyyətlə bağlı dinləmələr keçirildi

yazısı səh.9-da

### Rəsul Cəfərov ev dustaqlığına buraxılmadı

yazısı səh.7-də

### Antikorrupsiya idarəsinin rəisi qalmaqallı cinayət işlərindən danışdı

yazısı səh.12-də

### 907-ci düzəliş: kimdir günahkar, ABŞ, yoxsa Elçibəy hökuməti?

yazısı səh.8-də

### Cenevrə danışıqları: "İran kartı" rəsmi Bakının əlindən çıxır

yazısı səh.6-da

### Sabiq deputatlar öz hesablarına tikdirdikləri mənzilləri ala bilmirlər

yazısı səh.3-də

*"Stratfor" mərkəzi:*

### "Rusiya Qarabağ münaqişəsinə müdaxilə etməyəcək..."

yazısı səh.13-də

### Müxalifət parlament seçkilərini müzakirə etdi

yazısı səh.4-də

### Babəkin "şəxsiyyət vəsiqəsi" ortalığı qarışdırıb

yazısı səh.3-də

### Fransanı qana boyayan karikaturanın tarixi

yazısı səh.11-də

## Şahin Mustafayevin başı dərddə

# İKİ QƏPİKLİK AJİOTAJ NAZİRİ BİTİRƏ BİLƏR

Tarif Şurası Vergi Məcəlləsinə dəyişiklik edərkən ən primitiv və sabotaj hesab edilən varianta əl atıb; oliqarxların maraqlarına hesablanmış 12 yanvar tarixli qərarını verərək süni ajiotaj yaradanlar cəzalandırıla da bilər...




yazısı səh.5-də

## İntihar körpüsündə özünü öldürmək istəyən adamın ürək dağlayan hekayəsi

**Yusif Əmirov:** "Ayaqlarımdan asıb ayağımın altına vururdular, deyirdim öldürün, amma etmədiyim cinayəti boynuma alan deyiləm"

yazısı səh.10-da



Anar Məmmədov

### Sökülən ticarət mərkəzi nazir oğlunun holdinqinin imiş

yazısı səh.3-də



Şahin Sultanov

### Həbsdən çıxan vitse-admirala sərt ittihamlar

yazısı səh.12-də



### Bu gün İntiqam Əliyevin məhkəməsi başlayır

yazısı səh.7-də

# Buraxılış və qəbul imtahanlarına dəyişiklik edildi



**Virtualaz.org Tələbə Qəbulu üzrə Dövlət Komitəsinin (TQDK) saytına istinadən bildirir ki, ümumtəhsil müəssisələrinin 11-ci sinfində təhsil alan şagirdlərin biliyinin yekun qiymətləndirilməsi (buraxılış) imtahanında müəyyən dəyişiklik edilib.**

Belə ki, 2015-ci ildən buraxılış imtahanında XI sinif şagirdlərinin biliyi 2 deyil, 3 fəndən yoxlanılacaq. Bütün şagirdlər ana dili, riyaziyyat və xarici dil fənlərindən imtahan verəcəklər. Xarici dil fənninin tədris olunmadığı məktəblərin məzunları isə kimya fənnindən imtahan verəcəklər. Hər fənn üzrə şagirdlərə 30 test tapşırığı təqdim olunacaq.

**Qəbul imtahanları üzrə:**

1) Ali və tam orta təhsil bazasında (11illik) orta ixtisas təhsili müəssisələrinə qəbul qaydalarında müəyyən dəyişikliklər edilib.

Belə ki, 2015-ci ildən etibarən 11-ci sinfi bitirən məzunların ali təhsil müəssisələrinin III və IV ixtisas qruplarının xüsusi qabiliyyət tələb edən ixtisaslarına və tam orta təhsil bazasında (11 illik) orta ixtisas təhsili müəssisələrinə (kolleclərə) qəbulu buraxılış imtahanlarının nəticələrinə əsasən aparılacaq.

Bu haqda daha ətraflı məlumat "Abituriyent" jurnalının 2015-ci il 1-ci sayında təqdim olunacaq.

2) Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında (TQDK) ali təhsil müəssisələrinə qəbul imtahanlarında 4 ildir ki, açıq tipli test tapşırıqları tətbiq edilir. Testologiyada belə tapşırıqlar qəbul proqramını daha dərindən mənimsəmiş, riyazi təfəkkürü və analitik təhlil qabiliyyəti güclü olan abituriyentlərin hazırlıq səviyyəsini bir-birindən fərqləndirmək üçün nəzərdə tutulub.

## ABŞ səfirliyi Bakıdakı anti-Amerika tədbirinə münasibət bildirdi

"Keçmiş qüsurlarımızı nəzərdən keçiririk..."




**Yanvarın 15-də Bakıda Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası insan haqları ilə bağlı tədbir keçirib. Həmin tədbirdə ABŞ-ın ünvanına kəskin tənqidlər səsləndirilib.**

Musavat.com tədbirdə səsləndirilən fikirlərlə bağlı Amerika Birləşmiş Ştatlarının Bakıdakı səfirliyinin mövqeyini öyrənib. Səfirliyin media və ictimaiyyətlə əlaqələr şöbəsinin açıqlamasında bildirilir: "Biz Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının insan haqları ilə bağlı tədbirindən məlumatlıyıq. Biz hər bir şəxsin öz fikirlərini bildirmək hüququna hörmət edirik və fundamental azadlıqlar barədə dialoqun aparılmasını hər zaman önəmli sayırıq. ABŞ həm ölkə daxilində, həm də xaricində insan haqlarına dair məsələlərə çox ciddi yanaşır. ABŞ özünün bu sahədə mükəmməl olduğunu iddia etmir. Keçmiş qüsurlarımızı nəzərdən keçirərək buraxdığımız yanlışlıqları düzəldə bilirik. Bu bacarığımızdan qürur hissi duyuruq. Biz bu sahədə mükəmməl olmaq üçün daimi yollar axtarırıq və bizi irəli aparan dialoqu alqışlayırıq".

❑ AYGÜN



## "Unibank" prezidentinin oğlu qumarda 1,1 milyon dollar uddu

**"Unibank"ın prezidenti Eldar Qəribovun oğlu, poker oyunçusu İlkin Qəribli ("Poker Stars Caribbean Adventure" ("Poker ulduzlarının Karib macəraları") poker yarışının qalibi olub. Virtualaz.org saytı Qərb KİV-lərinə istinadən xəbər verir ki, İlkin Qəribli dünən final oynayaraq 1 milyon 105 min 40 dollar məbləğində mükafat udub.**

İlkin Qəribli finalda Co Kyuter adlı digər poker oyunçusu ilə üzləşib. Oyun iki saat davam edib. Finalı uduzan Co Kyuter ikinci yerlə və 1 milyon 50 min dollarla kifayətlənməli olub.

Bu qələbə İlkin Qəriblidən ötrü təkcə ona görə unikal təcrübə deyil ki, o, üç gün ərzində 1 milyon dollar udub. Həm də ona görə unikal təcrübədir ki, bu, onun həyatında ilk belə poker turniri idi.

İ.Qəribli buna qədər pokerlə yalnız həvəskar səviyyədə məşğul olub. Onu bu mötəbər turnirə qatılmağa dostları təşviq edib.

Qeyd edək ki, "Poker Stars Caribbean Adventure" turniri 2004-cü ildən etibarən Baham adalarında hər il keçirilir və ən mötəbər turnirlərdən hesab olunur. Baham adalarına dincəlməyə gedən İ.Qəribli də orada qüvvəsini sınamağa qərar verib.

Həmin qumar oyununun necə keçirildiyinə dair videogörüntülər də yayılıb.

## AZAL qiymətləri aşağı saldı

**"Azərbaycan Hava Yolları" QSC (AZAL) Bakı-Kiyev-Bakı istiqamətində aviabiletlərə endirim tətbiq edib. Aviaşirkətdən «AzərTAc»a bildiriblər ki, sərnişinlər Bakı-Kiyev-Bakı istiqamətində bir bileti 309 avroya, Kiyev-Bakı-Kiyev istiqamətində isə 409 ABŞ dollarına əldə edə bilərlər. O cümlədən bir istiqamətdə, yəni Bakıdan Kiyevə 219 avroya, geriyə isə 289 ABŞ dollarına bilet almaq olar.**

Aksiya yanvarın 15-dən fevralın 10-dək alınan biletlərə şamil olunur. Uçuş tarixləri isə yanvarın 25-dən martın 15-dək olan dövrü əhatə edir.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05




## Nazir Hərbi Hava Qüvvələrinin döyüş hazırlığını yoxladı

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Hərbi Hava Qüvvələrinin döyüş hazırlığının vəziyyətini yoxlayıb.**

Virtualaz.org Müdafiə Nazirliyinin saytına istinadən bildirir ki, yeni tədris ilinin başlanması ilə əlaqədar keçirilən yoxlamalar zamanı qoşunların yüksək döyüş hazırlığı səviyyəsinə gətirilməsi, döyüş növbəsinin gücləndirilməsi, mühüm dövlət və hərbi obyektlərin, eyni zamanda qoşun qruplaşmalarının hücumda və müdafiədə mühafizəsi məqsədilə hava hücumundan müdafiə qoşunlarının fəaliyyəti və digər məsələlər məşq etdirilib.

Hərbi Hava Qüvvələrinin döyüş texnikasına, vasitə və qurğularına baxış keçirən müdafiə naziri şəxsi heyətin təlim-döyüş vərdişlərini yüksək qiymətləndirərək qoşun komandanlıqları qarşısında müvafiq vəzifələr qoyub.

## Bakı İcra Hakimiyyətindən sakinlərə müraciət

**Bakı Şəhər İcra Hakimiyyəti iyun ayında keçiriləcək I Avropa Oyunları ilə əlaqədar paytaxt sakinlərinə müraciət edib. Lent.az-ın məlumatına görə, müraciətdə qeyd olunur ki, idman komplekslərinin ətrafındakı ərazilərdə, küçə kəsişmələrində yerləşən yaşayış binalarında yaşayan sakinlər avtomobilləri ilə təyin olunmuş marşrut üzrə hərəkət etməlidirlər.**

Sakinlər avtomobilləri ilə sərbəst hərəkəti təmin etmək məqsədilə Bakı Avropa Oyunları Əməliyyat Komitəsinin fərqləndirici buraxılış nişanlarının alınması üçün ərazi üzrə mənzil istismar sahələrinə və kooperativ yaşayış Komplekslərinin rəhbərliklərinə müraciət etməlidirlər.

Müraciət yanvarın 31-dək edilməlidir.



## Elgiz Əkbərin verilişindəki cənub ləhcəsi söhbəti narazılıq doğurdu

"Xalidə Əhmədovanın özü də cənub bölgəsindəndir..."

**ANS kanalında yayımlanan "Adam İçində" verilişinin qonağı olan Xalidə Əhmədovanın verilişə iştirakçı kimi qatılan bir şəxsi təhqir etdiyi iddia edilir. Belə ki, verilişə müğənni işləmək məqsədi ilə Astara rayonundan qatılan gənc oğlan cənub ləhcəsində danışdığı üçün Xalidə Əhmədova ona öz iradını bildirib.**

O, iştirakçıya "Talış ləhcəsini əvvəlcə ağzından təmizlə, danışığın tam yerinə otursun, sonra gəlib müğənni işləyərsən" deyib. Bu ifadə isə cənub bölgəsindən olan bəzi şəxslərin böyük narazılığına səbəb olub. Onlar sosial şəbəkələrdə bu məsələni xeyli müzakirə edərək X.Əhmədovanın sözlərini təhqir hesab etdiklərini yazıblar.

Qeyd edək ki, X.Əhmədova sovet dönəmində "Günün ekran" xəbərlər proqramının diktoru və bir sıra maraqlı verilişlərin aparıcısı olub.

Verilişin aparıcısı Elgiz Əkbər isə "Yeni Müsavat"a açıqlamasında heç bir təhqirə yol verilmədiyini dedi: "Xalidə xanım özü cənub bölgəsindədir, lənkəranlıdır. O da ləhcə ilə danışa bilər. Amma danışmır. Çünki efirdə ləhcə ilə danışmaq olmaz. Efirdə ləhcə ilə danışan bir aparıcı olarsa, tamaşaçının münasibəti buna necə olar? Əlbəttə ki, bu, qulağa xoş gəlməz. Efirin efir danışığı var. Bizim hər bölgənin öz ləhcəsi, öz şivəsi var. Amma bunu ekranlara gətirmək olmaz".

❑ Günel MANAFLI

## Bank işçisinin öldürdüyü qardaşların ailəsinin vəkili danışdı

**Qaradağ rayonu, Sahil qəsəbəsində öldürülən qardaşlar 1985-ci il təvəllüdlü Cahid və 1980-ci il təvəllüdlü Cavid Rəhimovların ailəsinin vəkili Ceyhun Yusifov danışıb.**

Vəkil mətbuatda Rəhimovların ölümü ilə bağlı düzgün olmayan məlumatların yer aldığını deyib: "Mətbuatda Zaur Tərlanovun Rəhimov qardaşlarını qısqanclıq zəminində baş vermiş mübahisə zəminində öldürməsi haqda yanlış məlumat yayılıb. Yayılan versiya həqiqətə uyğun deyil. Guya qardaşlardan hansısa Zaur Tərlanovun həyat yoldaşına sataşıb. Belə bir məsələ yoxdur. Həqiqət tamam başqadır. Qatil qardaşlardan biri ilə tanış olub. Onların öldürülməsi üçün heç bir əsas olmayıb. Təqsirləndirilən sadəcə öz üstünlüyünü göstəmək üçün qardaşları öldürüb. Hazırda iş Qaradağ Rayon Prokurorluğunun icraatındadır. Araşdırma aparılır. Bu gün Rəhimovlar ailəsinin 2 övladı qəsd səbəbindən yoxdur. Ailə faciəvi duruma salınıb. Belə məlumatların mətbuata ötürülməsi ailənin vəziyyətinə təsir edir. Bir daha qeyd edirəm ki, ortada namus söhbəti yoxdur. Bu hadisə şəxsi münasibətlər zəminində baş verib".

Yada salaq ki, yanvarın 8-də, Sahil qəsəbəsində "Standartbank"ın işçisi, 1984-cü il təvəllüdlü Zaur Ənvər oğlu Tərlanov odlu silahla Cahid və Cavid Rəhimov qardaşlarına atəş açıb. Hər 2 qardaş hadisə yerində keçinib.

❑ E.MƏMMƏDƏLİYEV

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

YENİ MÜSAVAT
N 10 (6038) 16 yanvar 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**ANS telekanalının efirində yayımlanan "Şəxsiyyət vəsiqəsi" verilişinin son buraxılışı Xürrəmilər hərəkatı və onun başçısı Babəkə həsr edilmişdi. Aparıcısı yazıçı-publisist Həmid Herisçi olan veriliş efirə gedəndən sonra mövzu ətrafında ciddi fikir dartışması başladı. Deputat Fazil Mustafa həmin verilişdə Babək haqqında "tariximiz üçün utancverici şəxs" ifadəsini işlədib. Onun bu sözü birmənalı qarşılanmayıb. Mətbuatda, sosial şəbəkələrdə bu barədə xeyli fikirlər, mülahizələr söylənilir.**

# Babəkin "Şəxsiyyət vəsiqəsi" ortalığı qarışdırıb

## Dilavər Əzimli: "Babək haqda pis danışmaq tarixə xəyanətdir"
## Fazil Mustafa: "Tarixə xəyanət ifadəsi savadsızlığın göstəricisidir"

**Tarixçi Dilavər Əzimli** bu mövzuda "Yeni Müsavat"a verdiyi açıqlamada F.Mustafanı "tarixə xəyanət"də günahlandırıb: "Fazil Mustafa tarixdən kənar şəxsdir, o, hüquqşünasdır və ordan-burdan həvəskar tarix oxuyub və bununla da çıxış edir. Tarixi araşdırmaq tarixçilərə, tarix tədqiqatçılarına məxsusdur, hansı ki, onlar hər dövrü özünə məxsus öyrənir, mənbələri, tarixi ədəbiyyatı nəzərdən keçirir, Azərbaycanın etnoqrafiyası, maddi mədəniyyət nümunələrini şərh etdikdən sonra məntiq ortaya qoyurlar.

Üzümü Fazil Mustafaya tutub deyirəm: bu məsələdə son dərəcə ehtiyatlı olmaq lazımdır. Onlar təkcə bizim qəhrəmanlarımız deyil, həm də pasportlarımızdır. Onlar qəhrəmanlıq edib ki, gələcək nəsil örnək götürsün. Bu örnəyi biz Nəsimidə, Xətaidə, Cavanşirdə, 20 Yanvar şəhidlərində, Qarabağ döyüşlərində gördük. Bunların hamısı genetik yaddaşdır. Bu yaddaş olmasa xalq yaşaya bilməz. Xalq qəhrəmanlarını ona görə sevir ki, onu sonradan ittiham etsin? O qəhrəmanlar xalq üçün döyüşüb, mübarizə aparıb. Babəki xalq yaşadıb, xalqla oynamaq olmaz. Fazil Mustafa dəfələrlə statuslarında qeyd edib ki, mən buna qarşı mübarizə aparacam. Bu, mübarizə deyil, qardaşım, bu, tarixə xəyanətdir. Sən mənim tariximi silə bilməzsən. Babəki dinsiz adlandırırlar, bəs necə olur ki, İmam Rzanın oğlu onun qoşununda döyüşüb?! Babəkin müsəlmançılıqla hansı düşmənçiliyi ola bilərdi? Babək xalqını, millətini sevən qəhrəmandır".



**Müsahibimiz bildirib ki, həmin verilişə baxanda çox əsəb keçirib:** "Baxın görün Avropada Napoleonu müzakirə edirlərmi? Və yaxud Almaniyada Bismark haqqında müzakirə getsə Avropa anında o mətbuatı, tv kanalı darmadağın edər. Biz də darmadağın etməliyik. Axı sən kimsən ki, Babəkə şəxsiyyət vəsiqəsi verirsən? Niyə Babəki aşağılayırsan?! Babəkə şəxsiyyət vəsiqəsini xalq verib. Mənbələri oxuyan insan ordan xalqına xidmət edən amilləri götürməlidir".

**Qeyd edək ki, millət vəkili F.Mustafa sosial şəbəkədə bildirib ki, onun fikirləri Məmməd Əmin Rəsulzadənin fikirlərindən heç də fərqli deyil. Tarixçi buna da münasibət bildirib:**

"Mən Məmməd Əminin bütün əsərlərini oxumuşam. Onun müxtəlif dövrlərdə insanlara olan münasibətində dəyişiklik görürük. M.Ə.Rəsulzadənin dövründə Babək haqqında məlumat çox az idi. Ancaq o, Xətai və Babək haqqında heç vaxt mənfi fikirlə çıxış etməyib, onlar haqqında həmişə dəyərli fikirlər söyləyib".

**Fazil Mustafa haqqında deyilən ittihamlara cavab verib. O, "Yeni Müsavat"ın əməkdaşına verdiyi açıqlamada bildirib:**

"Tarixə xəyanət ifadəsi ümumiyyətlə savadsız ifadədir. Çünki tarix bizim subyektiv mühakiməmizin obyektidir və hansısa bir faktın dəyərləndirməsi onun həqiqət olması mənasına gəlməz. Xəyanət insana, vətənə, millətə olur. Biz də dinimizi, vətənimizi, millətimizi saxta tarix yazmaq istəyənlərin əməllərindən qoruyuruq. Bizim anlayışımıza görə, sovet dövründə bu xalqa sırınmış qəhrəmanlara sahib çıxmaq sadəcə bilgisizlikdən irəli gəlir. Azərbaycanda tarix şüuru doğru olan şəxsiyyət Məhəmməd Əmin Rəsulzadə olub, onun şüarlarını deyil, dünyagörüşünü öyrənsələr, daha sağlam düşüncəyə sahib olarlar. Ayrıca tarixin nə olduğunu öyrənmək istəyənlərə yenicə çapdan çıxmış "Azərbaycanda Türk kimliyi və saxta tarix problemi" kitabımı da oxumağı tövsiyə edərdim. Orda saxta tarix ənənəsinə qarşı mövqeyimi açıqca bildirmişəm".

Xatırladaq ki, Babək haqqında zaman-zaman mülahizə və mübahisələr olub. Həmin dövrün şahidləri, hadisələrin iştirakçıları mənbələri ərəb dilində yazdığından bəzən tərcümə edilən yazılar mübahisə, ziddiyyət doğurur. O dövrün bir sıra tarixçiləri Babək haqqında ikrahla yazdığı məlumatlarda sərkərdə və onun ətrafını əxlaqsız, kafir kimi qeyd ediblər.

Mütəxəssislər bildirirlər ki, orta əsr Azərbaycan tarixi haqda qəti fikir bildirmək üçün ərəb və fars dilini bilmək mütləqdir. Məhz bu zaman hansısa cərəyan, hadisə və yaxud şəxsiyyət barəsində danışmaq olar.

❑ **Xalidə GƏRAY**




# Sökülən ticarət mərkəzi nazir oğlunun holdinqinin imiş

## Sahibkarlar Nəqliyyat Nazirliyi qarşısında aksiyaya hazırlaşırlar


Anar Məmmədov

**İki gün əvvəl metronun "28 May" stansiyasına bitişik ticarət mərkəzindəki ticarət köşkləri söküldü. Artıq bütün köşklər yerlə-yeksan olub. Ortalıqda qalan isə sahibkarlardır. Söküntünün səbəbi barədə köşk sahiblərinə dəqiq məlumat verilməyib. Sadəcə olaraq, bildirilib ki, buna "yuxarıdan" qərar verilib. Mağazaları sökülən sahibkarlar analitik.az-a deyib ki, onlara bu yerləri satan "Royal İsteyt" MMC-nin işçiləri məsələdən xəbərsiz olduqlarını söyləyiblər. Amma köşklər sökülən vaxt orada olan icra hakimiyyətinin işçiləri ilə polislər sahibkarlara deyiblər ki, 10 gün əvvəl bu barədə ticarət mərkəzinin rəhbərliyinə xəbərdarlıq edilib. Sadəcə, işçilər köşk sahiblərindən bu xəbərdarlığı gizlədiblər. Əvəzində isə icarə haqlarını gəlib əvvəlcədən yığıblar. Sahibkarlar onu da deyib ki, keçiddəki xırda ticarət köşkləri üçün hər ay icarə haqqı olaraq 400-800 manat arasında pul veriblər. Bu ay tamam olmamış isə tələm-tələsik onlardan əvvəlcədən icarə haqlarını gəlib yığıblar.**

Bu köşklər sökülərkən sahibkarlara o da məlum olub ki, xırda mağazalar qanunsuz olaraq düzəldilərək, camaata baha qiymətə satılıb. Təxminən 3 kvadratmetrlik sahələr ən ucuzu 12 min, bahalısı isə 18 min manata satılıb. Əslində bu, tamamilə qanunsuz olub. Sahibkarlarla müqavilə bağlayaraq, çox qazanc götürmək məqsədilə onları aldadıblar. Amma camaatla müqavilə bağlayan "Royal İsteyt" MMC-nin İdarə Heyətinin vəzifələrini icra edən Samir Şəmiyevin adından yalnız sənəddə bunu 5 illik icarə müqaviləsi kimi rəsmiləşdiriblər. "Royal İsteyt" MMC-nin ofisi avtovağzalda yerləşir. Bundan başqa, bu firma nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun rəhbəri olduğu "Garant Holdinq"ə daxildir. Çox maraqlıdır ki, sahibkarlara bu yerləri satanda MMC-nin işçiləri əmin ediblər ki, burada başqa heç bir problemdən söhbət gedə bilməz. İki gün əvvəl isə köşklər sökülәndə özlərini kənara çəkərək, "bizlik heç nə yoxdur" - deyiblər. Sahibkarlar isə bildirir ki, bunun adı dələduzluqdur, onları aldadıb qanunsuz şəkildə köşk satıb, pullarını alıblar. İndi isə aradan çıxmağa çalışırlar. Onların müraciətlərinə və telefon zənglərinə də cavab vermirlər.

"Bəs köşklərin sökülәcəyini bildiyiniz halda nə üçün əvvəlcədən icarə pulunu yığmısız"- sualına isə belə cavab veriblər ki, "görək neyniyirik, pulunuzu qaytara bilirikmi?" Ən acınacaqlı məsələ odur ki, qanunsuz olaraq düzəltdikləri 3 kvadratlıq köşkləri sahibkarlara 13-18 min manata satan firmanın işçiləri indi pulları geri qaytarmaqdan imtina etmək istəyirlər. Sahibkarlardan biri sökülən köşkünü 3 ay əvvəl 13 min manata aldığını deyib. Sahibkarlar isə öz pullarını istəyirlər. Sahibkarlar onu da deyir ki, Anar Məmmədov əvvəllər tez-tez 10 nəfərə yaxın mühafizəçilərinin əhatəsində bu ticarət mərkəzinə baş çəkirmiş. Və ticarət mərkəzindəki vəziyyətdən xəbərdar imiş. Amma köşklər sökülәndə o da sahibkarların qarşısına çıxmayıb.

Qeyd edək ki, bu yerin "Garant Holdinq"ə aid olduğu bildirilir. Köşk sahibləri hələlik gözləmə mövqeyindədirlər, lakin pulların qaytarılmayacağı təqdirdə, onlar Prezident Administrasiyasına, Nəqliyyat Nazirliyinin qarşısına yürüş edəcəklərini deyirlər. Köşk sahibi olan Qarabağ əlili isə özünü Nəqliyyat Nazirliyinin qarşısında yandıracağını söyləyir. Hələlik Ziya Məmmədov kiçik sahibkarların pulunu yeyən holdinqin işçilərinə "gözün üstə qaşın var" deməyə tələsmir.

# Sabiq deputatlar öz hesablarına tikdirdikləri mənzilləri ala bilmirlər

## Rauf Qurbanov: "Gecikmə davam etsə, biz öncə ölkə başçısına və sonra da məhkəməyə müraciət edəcəyik"

**Milli Məclisin ikinci çağırış deputatları üçün tikilən binanın işləri dayandırılıb. Bu barədə modern.az saytı məlumat yayıb. Saytın məlumatına görə, KAT LTD şirkətinin A.M.A.Y. Ticarət Mərkəzinin yaxınlığında inşa etdiyi yeni binada mənzilin tikintisi bir sıra səbəbdən dayandırılıb. Bu barədə KAT LTD şirkətinin rəhbəri Elçin Əkbərov bildirib. O deyib ki, tikinti işi ilə bağlı məsələ Ali Məhkəməyə verilib.**

"Hələ ki bizə də açıqlama vermirlər. Gələn həftə bizə məsələ ilə bağlı məlumat veriləcək. Tikinti isə iş məhkəmədə olduğu üçün dayandırılıb" deyə, Elçin Əkbərov qeyd edib.

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan **deputat Aydın Mirzəzadə** bildirdi ki, bu xəbər mətbuatda yanlış işıqlandırılıb: "Burada söhbət deputatlara tikilən mənzildən getmir. 2000-2005-ci ildə ikinci çağırışda təmsil olunan deputatların bir qrupu öz vəsaitləri hesabına 20 nömrəli məktəbin yanındakı ərazini götürüb bir tikinti şirkəti ilə müqavilə bağladılar. Həmin müqaviləyə əsasən, tikilən binanın bir hissəsi pay sahibi olan deputatlara verilməli idi, bir hissəsi isə şirkətin hesabında olmalı idi. Sonradan hansısa səbəbdən tikinti dayandırıldı və yarımçıq bina tamamlanaraq Fövqəladə Hallar Nazirliyinin idarəsinə verildi. Həmin evi tikdirən şəxslərin bir qisminə şəhərin müxtəlif yerlərində evlər verildi, bir qisminə isə yeni bina tikilməsi üçün başqa bir ərazi təklif edildi. Sonradan hansı proseslərin getdiyini mən deyə bilmərəm. Ancaq onu bilirəm ki, mətbuatda gedən xəbər yanlışdır. Deputatlara bina tikilmir, ikinci çağırışda olan deputatların bir qismi öz vəsaitləri hesabına bina tikdirmək istəyirdilər və o proses sonradan başqa əraziyə keçdi və indi də dayandırıldı. Həmin adamlar hazırda parlament üzvü deyil. Ancaq həmin bina elə deputatlar binası kimi yadda qaldı".

**Mübahisəli bina ilə bağlı mətbuatda adı hallanan Milli Məclisdə ikinci çağırışda deputat olan Rauf Qurbanov da qeyd etdi ki, bir qrup deputat olaraq binanı öz vəsaitləri hesabına tikdiriblər:** "Mənim də o binada payım var. Ancaq indi işin hansı yerdə olmasından və nə səbəbə dayandırılmasından məlumatım yoxdur. Bu ev bizə 2003-cü ildə təhvil verilməli idi. Ancaq onu dövlət məqsədləri üçün bizdən aldılar və Fövqəladə Hallar Nazirliyinin binasına çevirdilər. 12 ildir ki, bu iş yubadılır. Mətbuatda yazılıb ki, dövlət tərəfindən sabiq deputatlar üçün mənzillər tikilir. Ancaq bu doğru deyil, bu, sabiq deputatların şəxsi vəsaiti hesabına tikilir. Biz bir qrup deputat mənzillərin pulunu o vaxtın bazar qiymətlərinə uyğun olaraq tam ödəmişdik. Mən təxminən 152,6 m2 üçün 30 min dollara yaxın pul ödəmişdim. Binada pay sahibi olan bütün sabiq deputatların, o cümlədən mənim əlimdə müqavilələr, vəsaitin tam ödənilməsi ilə bağlı şirkət rəhbərinin imzası ilə təsdiqlənmiş sənədlər var.

Binada əvvəl 50 nəfərə yaxın payçı var idi. Bəzi eks-deputatlar şəhərin başqa yerində mənzillə təmin olundular, bəziləri pullarını geri aldılar. Məndə olan məlumata görə, 13 nəfər sabiq deputatın həmin binada payı qalır".

**Rauf Qurbanov bildirdi ki, əgər mənzillərin təhvil verilməsi məsələsi bundan sonra da gecikə, onlar lazımi instansiyalara müraciət edəcəklər:** "Mən özüm ixtisasca hüquqşünasam və hüquqlarımı çox gözəl qoruya bilərəm. Ancaq bu məsələnin məhkəmə dərəcəsinə çıxmasını istəmirəm. Şirkət rəhbəri ilə də bizim münasibətlərimiz normaldır. Ancaq bundan sonra gecikmə davam etsə, biz öncə ölkə başçısına və sonra da məhkəməyə müraciət edəcəyik. Milli Məclisin deputatlarının hüquqları bu şəkildə pozulursa, o zaman sadə vətəndaşların hüquqlarının qorunmasından necə söhbət gedə bilər?"

**Qeyd edək ki, məsələ ilə bağlı KAT LTD şirkətinin rəhbəri Elçin Əkbərovla əlaqə saxlasaq da, o, ölkə xaricində olduğunu və suallarımızı cavablandırmaq üçün vaxtının olmadığını bildirdi.**

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 10 (6038) 16 yanvar 2015





# "Ərdoğan çevriliş haqqında düşünən generallara və Gülən hərəkatına elə zərbələr endirdi ki..."

## Elxan Şahinoğlu: "Türkiyə prezidenti Salvador Alyende olmağa da hazırdır - təki iqtidarda qalsın"

**"İndiki hökuməti devirmək üçün bəzi qüvvələr əl-ələ verib. 30 mart, 10 avqust seçkilərinə təsir etmək istədilər, alınmadı. İndi də iyun ayında keçiriləcək parlament seçkisinə qədər çevriliş etməyi planlaşdırırlar". Türkiyə baş nazirinin müavini Bülənt Arınçın ötən həftəsonu verdiyi bu açıqlama Türkiyə gündəmində ciddi müzakirə edilməkdədir.**

Mediaya açıqlamasında AKP-yə qarşı gizli niyyətləri olan güclərin heç zaman bağışlamayacağını bildirən Arınç Gülən hərəkatını hədəf alıb: "Bir il öncəyə qədər hər sahədə yardım və dəstək verdiyimiz insanlar, hətta bizimlə birlikdə olduqlarını düşündüyümüz bəziləri indi AKP-yə qarşı birləşib. Türkiyə hökuməti bu güclərə rəvac verməyəcək, onları bəlli bir mərtəbəyə yüksəldən AKP-yə qarşı xəyanətlərini əsla əfv etməyəcək".

**AKP iqtidarının dilə gətirdiyi narahatlığı "Yeni Müsavat"a şərh edən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyir ki, Rəcəb Tayyib Ərdoğan prezident seçiləndən sonra "Hizmət" hərəkatına ağır zərbələr vursa da, hərəkatın əks həmlələr yetirmək istəyi gözləniləndir. Onların uğur qazanma şansı isə ekspertə görə, yoxdur:** "Türkiyə dinamik ölkədir, hər an hər şey baş verə bilər. Məsələn, kim gözləyə bilərdi ki, məhkəmə təkbaşına hökumət quran, iqtidar partiyası olan AKP-nin qapadılması haqqında qəfil qərar çıxara bilər. Və ya dünənə qədər AKP-nin müttəfiqi olan Gülən hərəkatı Ərdoğanı yıxmaq üçün bütün vasitələrini işə salar. Bütün bunların hamısı Türkiyədə baş verir və hələ ki bu cür təlatümlər Ərdoğan və onun partiyasını zəiflətmir, əksinə, o, bu mübarizədən daha da güclü çıxır. Bülənt Arıncın "yayda bizi devirəcəklər" açıqlamasının reallığa söykəndiyini söyləmək mümkündür. Görünür, hakim partiyanın əlində gizli kəşfiyyat məlumatları var. AKP ön addımlar ataraq bu yolla kimliyi bəlli olmayan qarşı tərəfin planlarını pozmaq istəyir. Ancaq hətta Bülənt Arınc preventiv addım ataraq cəmiyyəti çevriliş barədə xəbərdar etməsəydi belə növbəti "Ərdoğanı devirmək planı"nın uğur qazanacağını söyləmək çətindir. Son 10 ildə Ərdoğanı kimlər devirə bilərdisə, onlar zəiflədilib. Ərdoğan çevriliş haqqında düşünən ordu generallarına və Gülən hərəkatına elə zərbələr endirdi ki, çətin ki, onlar bir daha bu mövzuya qayıtsınlar".

**Elxan Şahinoğlu bildirir ki, AKP-nin devrilməsində yalnız Gülən hərəkatı maraqlı deyil. Ərdoğanı zəiflədə biləcək daha iki qüvvə qalır - PKK və xarici qüvvələr:** "Məsələn, PKK "danışıqlar nəticə vermir" arqumentini bəhanə edərək Türkiyədəki tərəfdarları vasitəsilə növbəti qətliamlara və sərhəddə təxribatlara start verə bilər. Növbəti əsgər tabutları isə Ərdoğana qarşı tənqidi səsləri artıracaq. Ancaq PKK-nın da Ərdoğanı zəiflədə biləcək gücdə olduğunu zənn etmirəm. Pis-yaxşı məhz Ərdoğan "kürd məsələsinin" həlli üçün qollarını çırmaladı və Türkiyə ictimaiyyəti, o cümlədən kürdlərin böyük əksəriyyəti bunu unutmurlar. Ona görə də ictimaiyyət və dəyişikliklər arzusunda olan kürdlər PKK-nın "qətliama davam" ssenarisini dəstəkləməyəcəklər. Bu amil isə Ərdoğanın lehinə işləyəcək. O ki qaldı xarici qüvvələrə, bəli, Ərdoğan hakimiyyətinin zəifləməsində maraqlı olan xeyli kənar güc var. Onlar istəyərdilər ki, Ərdoğan siyasi arenanı tezliklə tərk etsin. Ancaq bunun üçün onların əlində hansı alətlər var? Türkiyə Rusiya deyil ki, neft və qaz satışından asılı olsun və ABŞ-la Səudiyyə Ərəbistanı sövdələşərək enerji qiymətlərini süni surətdə endirməklə Putinin çöküşünü sürətləndirdikləri kimi Ərdoğanın da sonunu yaxınlaşdırsınlar".

**Elxan Şahinoğlu düşünür ki, Ərdoğanın hakimiyyətini zəiflədəcək yeganə amil iqtisadiyyat ola bilər:** "Əgər Türkiyə iqtisadiyyatında tənəzzül başlayarsa, sosial problemlər artarsa, aydındır ki, bu, cəmiyyətin narazılığına səbəb olacaq. Günahkar axtarışında isə əsas hədəf prezident Rəcəb Tayyib Ərdoğan və AKP olacaq. Bu halda haqqında danışılan çevriliş üçün müəyyən zəmin yarana bilər. Ancaq bu gün Türkiyə iqtisadiyyatı keçmiş illərdən fərqli olaraq möhkəmdir, kənar təsirlər və daxili təlatümlər çətin ki, onun dayanıqlığına ciddi təsir etsin. Çevriliş haqqında düşünənlər onu da anlamalıdırlar ki, onların əməlləri Türkiyəyə xeyir gətirməyəcək. Türkiyə Cümhuriyyəti tarixində bir neçə çevriliş olub, ali məqsədlərlə baş nazirləri devirənlər ölkəni daha çox problemlər məngənəsinə sürükləyiblər. Üstündən onilliklər keçdikdən sonra Türkiyə indi də bu çevrilişlərin təsirlərini aradan qaldırmaqla məşğuldur. Vaxtilə baş nazir Adnan Menderesi dar ağacından asan ölkə keçmiş yanlışlığının acısını yaşayır".



**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Türkiyə baş nazirinin müavini Bülənt Arınçın "iyunda bizi devirmək istəyirlər" açıqlamasını real məlumatlara istinadən ifadə olunan narahatlıq sayır**

**Ekspert Türkiyə hakimiyyətini devirməyin çox çətin olmasını həm də prezident Rəcəb Tayyib Ərdoğanın şəxsi keyfiyyətlərinə bağlayır:** "Ərdoğan hakimiyyət hərisidir. Hətta daxili və xarici təsirlər artsa belə, o, prezidentlik müddətini tamamlamayana qədər yüksək kürsünü tərk etməyəcək. Ərdoğan Çilinin mərhum dövlət başçısı Salvador Alyende kimi hərbi çevrilişə qarşı müqavimət göstərib həlak olmağa üstünlük verər, nəinki kiminsə diqtəsi ilə hakimiyyəti tərk etməyə. Ərdoğanı və onun partiyasını yalnız və yalnız seçki yolu ilə dəyişmək olar. Doğrusu və demokratik cəmiyyətə xas olan da elə budur".

❑ **Aygün MURADXANLI**

# Müxalifət parlament seçkilərini müzakirə etdi

## Əksəriyyət seçkidə iştirakın tərəfdarıdır





**Milli Strateji Düşüncə Mərkəzi (MSDM) yanvarın 15-də parlament seçkilərinin müzakirəsinə həsr olunmuş dəyirmi masa keçirib. Müsavat Partiyasının qərargahında keçirilən tədbir "Gerçəkliklər və demokratik qüvvələrin hədəfləri" mövzusunda idi. MSDM sədri İsa Qəmbər bildirib ki, bu il keçiriləcək parlament seçkisi ölkənin və müxalifətin taleyinə ciddi təsir göstərə biləcək bir olaydır.**

Onun sözlərinə görə, parlament seçkilərində iştirak vacibdir: "Ciddi siyasi və iddiaçı qüvvələr parlament seçkilərində iştiraka hazırlaşmalıdır. Çünki seçkilərdə iştirak böyük və nəhəng bir prosesdir, imtina isə prosesin istənilən məqamında qəbul edilə biləcək bir qərardır". O qeyd edib ki, seçkidə iştirakla bərabər, islahatlar məsələsi də qabardılmalıdır: "Qanunvericilikdə və Seçki Məcəlləsində köklü dəyişikliyə ehtiyac var".

**İ.Qəmbər qeyd edib ki, müxalifətin parlament seçkilərinə yanaşması vacibdir:** "Biz mövqeyimizi daha aydın şəkildə ortaya qoymalıyıq ki, cəmiyyət müxalifətin bu seçkilərdə iştirak edəcəyini əvvəlcədən bilsin. Cəmiyyəti buna kökləməliyik". **O deyib ki, cəmiyyət siyasi qüvvələrin birləşib-parçalanmasından yorulub:** "Ona görə də hədəfimiz seçki öncəsi blokların yaradılması deyil, səmərəli funksional əməkdaşlığın təmin edilməsi olmalıdır".

**İ.Qəmbərin sözlərinə görə, bu mərhələdə beynəlxalq təşkilatlarla ciddi işə də ehtiyac var:** "Düzdür, beynəlxalq təşkilatlara inam qalmayıb. Beynəlxalq təşkilatlardan öz missiyasına uyğun əməl etməyi tələb etməliyik. Builki seçkilərdə fəaliyyətimiz Milli Məclisdə yer qazanmaq məsələsinə konsentrasiya olunmamalıdır. Biz parlamentdə demokratik düşərgənin ciddi fraksiyasının yaranmasını istəyirik. Bizim hədəfimiz eyni zamanda cəmiyyətin fəallaşması olmalıdır".

VHP-nin sədr müavini Arif İsmayılbəyli isə bildirib müxalifət düşərgəsi seçkidə iştirak edəcək şəxslərin adlarını qısa müddətdə müəyyənləşdirib cəmiyyətə açıqlamalıdır.

**Aydınlar Partiyasının rəhbəri Qulamhüseyn Əlibəyli isə qeyd edib ki, qarşıdan gələn seçki ilə bağlı perspektiv müxalifətə uğur vəd etmir:** "Bu, bizə uğur vəd etmir. Amma imtina etmək də olmaz. Seçki siyasətin bir formasıdır. Seçkidən imtina edirsənsə, deməli, siyasətdən də imtina etmiş olursan. Seçkidə heç bir şərtsiz iştirakı elan etməliyik".

**REAL İdarə Heyətinin üzvü Natiq Cəfərli isə qeyd edib ki, qələbələri rəsmiləşdirmək üçün nə çatışmadığını müzakirə etmək lazımdır:** "Seçkiyə vətəndaşı cəlb etməklə bərabər, sonrakı addımları da müzakirə etmək lazımdır. Yəni vətəndaş bilməlidir ki, səsləri necə qorunacaq".

**Müsavat başqanı Arif Hacılı da qeyd edib ki, seçkinin "boykot" edilməsini Müsavat Partiyası əlverişli yol hesab etmir. O, Müsavat Partiyasının parlament seçkilərinə xüsusi önəm verdiyini bildirib. Onun sözlərinə görə, ölkədə olan siyasi şəraitlə bağlı bir neçə partiya ilə müzakirələr də aparılıb və proses davam edir:** "Seçkidə əməkdaşlıqla bağlı Xalq Cəbhəsinin sədri Əli Kərimli ilə də görüşmüşəm və gələcəkdə əməkdaşlıq perspektivi ilə bağlı müzakirələr aparmışıq. "Qarabağ" Bloku, AXP, KXCP sədri ilə də görüşlərimiz olub. REAL İdarə Heyətindən müəyyən görüşlər keçirmək üçün təşəbbüslər olar. NİDA-çılarla da görüşmək niyyətimiz var".

**O, seçki hazırlığı çərçivəsində kütləvi aksiyaların keçirilməsinin də vacibliyini vurğulayıb və Müsavatın mart ayından başlayaraq aksiyalar keçirəcəyini diqqətə çatdırıb:** "Mart ayından etibarən kütləvi aksiyalara başlamaq niyyətindəyik".

MSDM üzvü Rüfət Qaragözlü isə seçkidə iştirakla bağlı tezislərini dəyirmi masa iştirakçıları ilə bölüşüb. O qeyd edib ki, keçirilən mitinqlərə, aksiyalara daha çox qüvvəni cəlb etmək lazımdır və bu, cəmiyyəti canlandıra, seçkilərdə iştirakı stimullaşdıra bilər. Bu fikir isə Natiq Cəfərlinin etirazına səbəb olub. O bildirib ki, seçkidə müxalifətə səs verəcək vətəndaşların hamısı aksiyalarda iştirak etmir və bu, onun borcu da deyil.

**Politoloq Zəfər Quliyevin isə seçki ilə bağlı fikirləri o qədər də nikbin olmayıb. O qeyd edib ki, seçki ilə bağlı ortaya yeni yanaşma qoymaq çox çətindir:** "Hakimiyyətin seçki strategiyasında ciddi dəyişiklik gözləmirəm. Acı həqiqət odur ki, demokratik düşərgədə də yeni bir yanaşma, yeni texnologiyalar qoyulması da o qədər də inandırıcı görünmür. Belə vəziyyətdə söhbət ondan gedir ki, ənənəvi saxta seçkilərdə, qələbə vəd etməyən seçkilərdə demokratik qüvvələr nə etməlidir? Bunu müzakirə etmək lazımdır. Cəmiyyətə inamı qaytarmaq lazımdır".

Digər çıxış edənlər də müxalifət düşərgəsinin parlament seçkilərində iştirakla bağlı mövqelərini və təkliflərini bildiriblər. Sonda İ.Qəmbər deyib ki, konkret addımlar cəmiyyətin fəallaşmasına yönəlməlidir: "Bu istiqamətdə müzakirə və tədbirlərimiz davam edəcək".

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 10 (6038) 16 yanvar 2015

## Şahin Mustafayevin başı dərddə

# Iki qəpiklik ajiotaj naziri bitirə bilər

### Tarif Şurası Vergi Məcəlləsinə dəyişiklik edərkən ən primitiv və sabotaj hesab edilən varianta əl atıb; oliqarxların maraqlarına hesablanmış 12 yanvar tarixli qərarını verərək süni ajiotaj yaradanlar cəzalandırıla da bilər...

**Yanvarın 12-də Azərbaycanda benzinin, dizel yanacağının qiymətinin 2 qəpik bahalaşdırılması gözlənilməz olmaqla yanaşı, qısa müddətlik ajiotajla müşahidə olundu. Avtomobillərin texniki baxışdan keçərkən yol vergisindən azad edilməsi qərarının ardınca, yanacağın bahalaşması və bunun yol vergisinin bu formada tətbiqi ilə əlaqələndirilməsini bir çox ekspertlər düzgün əsaslandırılmamış məsələ kimi qiymətləndirirdi. Həmçinin dünya bazarında neftin qiymətinin 50 dollardan da aşağı düşdüyü, buna uyğun olaraq da əksər ölkələrdə benzinin, dizel yanacağının ucuzlaşdırıldığı bir vaxtda Azərbaycanda neft məhsullarının bahalaşdırılması təbii ki, təəccüblə və etirazla qarşılanmaya bilməzdi.**



Şahin Mustafayev

Düzdür, burada dövlət büdcəsinə 70 milyon daha artıq gəlir gələcəyi bildirildi, ancaq bu da əhali üçün yetərli arqument kimi görünmədi. Cəmi 1 gün davam edən 2 qəpiklik benzin bahalaşması avtomatik olaraq ərzaq və qeyri-ərzaq mallarının bahalaşmasına, həmçinin xidmət sektorunda qiymət artımına səbəb oldu. Görünən bu idi ki, iqtisadi sferanı cənginə almış məmur-oliqarxlar daha artıq varlanmaq üçün 2 qəpiklik artımdan süni şəkildə bəhrələnərək, dərhal idxal və ya istehsal etdikləri malların qiymətini azı 5 faiz bahalaşdırmağa başladılar.

Aydın şəkildə belə bir mənzərə canlanırdı ki, benzinin bahalaşması məhz oliqarxların maraqlarına xidmət edir, burada qazanan büdcə yox, ayrı-ayrı məmurlar olacaq. Bu proses çox ağır iqtisadi-sosial fəsadlar verə bilərdi və təbii ki, bunu hakimiyyət rəhbərliyi, iqtidar texnoloqları da sezməmiş deyildilər. Nəticə isə özünü çox gözlətmədi: 13 yanvardan etibarən bahalaşan benzinin qiyməti prezidentin göstərişi ilə Tarif Şurasının 14 yanvar 2015-ci ildə keçirilən növbədənkənar iclasında əvvəlki həddinə qaytarıldı.

Təbii ki, bu qərarda iqtisadi əsaslandırma var, əvvəlki qərar kortəbii ləğv olunmayıb. Bunu aydınlaşdırarkən ortaya çox maraqlı bir fakt çıxdı. Tarif Şurasının 2 qəpiklik artım qərarı ilə prezidentin göstərişinə əsasən növbədənkənar iclasda verilən qərarı incələyəndə bəlli olur ki, TŞ-nin üzvləri xalqı yox, məhz oliqarxların maraqlarını nəzərə alıblar!

**TŞ-nin 12 yanvar tarixli qərarı ilə bağlı açıqlamada deyilirdi:** "2015-ci ilədək illik yol vergisini fiziki şəxslər avtonəqliyyat vasitələrinin mühərrikinin həcminə görə texniki baxışdan keçən zaman, hüquqi şəxslər isə balanslarında olan avtonəqliyyat vasitələrinə görə vergi orqanlarına müvafiq bəyannamə təqdim etməklə dövlət büdcəsinə ödəyirdilər. Bu zaman hüquqi və fiziki şəxslər tərəfindən istismara yarasız avtonəqliyyat vasitələrinə görə də onların avtomobil yollarından istifadə edib-etməmələrindən asılı olmayaraq yol vergisi ödənilirdi. *(Bu qayda artıq ləğv edilib-red.)* Vergi Məcəlləsinə edilən dəyişikliklərə əsasən, ölkə ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən və idxal edilən avtomobil benzini, dizel yanacağı və maye qazın hər litrinin topdansatış qiymətinə 2 qəpik əlavə edilməklə yol vergisinin tətbiqi nəzərdə tutulmuşdur. Yol vergisinin yanacağın qiymətinə daxil edilməsi nəticəsində verginin ödənilməsi prosesi və verginin yığılması üzrə inzibatçılıq sadələşir, avtonəqliyyat vasitəsindən daha az istifadə edən şəxslər daha az vergi ödəyir, illik vergi bir dəfəyə deyil, hər dəfə yanacaq alınan zaman hissə-hissə ödənilir, hüquqi şəxslər tərəfindən vergi orqanlarına yol vergisi bəyannamələrinin təqdim olunması ləğv edilir, verginin tam yığılması təmin olunur. Göstərilənlər nəzərə alınaraq, Tarif (qiymət) Şurasının iclasında müvafiq qərar qəbul edilmiş və yol vergisi əlavə olunmaqla Aİ-92 markalı avtomobil benzininin pərakəndə satış qiyməti 1 litr üçün 72 qəpik, dizel yanacağının pərakəndə satış qiyməti isə 1 litr üçün 62 qəpik müəyyən edilmişdir".

**Prezidentin tapşırığına uyğun olaraq, 14 yanvar 2015-ci il tarixində TŞ-nin keçirdi iclasla bağlı məlumatda isə deyilir:** "Qərara əsasən, Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının "Ölkə daxilində neft məhsullarının tariflərinin tənzimlənməsi barədə" 12 yanvar 2015-ci il tarixli 1 nömrəli Qərarı ləğv edilib. Ölkə ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən avtomobil benzini, dizel yanacağı və maye qazın hər litri üzrə 2 qəpik yol vergisi ŞİRKƏTDAXİLİ TARİFLƏRİN AZALDILMASI (seçdirmə bizimdir-red.) hesabına tətbiq edilməklə, əvvəl olduğu kimi "Aİ-92" markalı avtomobil benzininin pərakəndə satış qiyməti 1 litr üçün 70 qəpik, dizel yanacağının pərakəndə satış qiyməti isə 1 litr üçün 60 qəpik səviyyəsində müəyyən edilmişdir. Həmçinin, maye qazın topdansatış qiyməti 1 ton üçün 300 manatdan 263,6 manata endirilmiş və yol vergisi ilə birlikdə topdansatış qiyməti 1 ton üçün 300 manat müəyyənləşdirilmişdir".

**Deməli, Tarif Şurasına reallıqlara uyğun olaraq heç bir *(rəsmi və ya qeyri-rəsmi şəkildə)* göstəriş olmayıbmış ki, benzinin, dizelin qiyməti bahalaşdırılsın. Bizi bununla bağlı bilgiləndirən iqtidara yaxın bir mənbə dedi ki, texniki baxış zamanı yol vergisi ləğv edildikdən sonra yaranmış situasiyada Tarif Şurasının vəzifəsi əslində, neft məhsullarının pərakəndə satış qiymətini bahalaşdırmaq yox, sadəcə, Vergi Məcəlləsinə edilən dəyişikliyə görə, yol vergisinin tətbiqini ən uyğun metodla həyata keçirmək olub:** "Bunun üçün bir çox təkliflər vardı, ancaq Tarif Şurası oliqarxların maraqlarını nəzərə alaraq, yol vergisini neft məhsullarının pərakəndə satışını artırmaqla tətbiq edib. Bu isə ona gətirib çıxaracaqdı ki, ölkədə qısa bir müddət ərazində iqtisadi xaos yaransın. Təklif olunan variantlardan ən uyğunu prezidentin göstərişindən sonra tətbiq edilən qaydadır. Yəni Vergi Məcəlləsinə edilən dəyişiklik xalqı incitməklə, bahalaşmaya rəvac verməklə deyil, şirkətdaxili tarifləri azaltmaqla həyata keçirilir. Bu həm də benzin, dizel istehsalı ilə məşğul olan şirkətə da faydalıdır. Onlar da israfçılığı azaltmağa məcbur olacaqlar. Görünür, Tarif Şurasının üzvləri arasında ya bir savadlısı olmayıb ki, bu təklifi ortaya versin, ya da onlar bahalaşmanı bilərəkdən ediblər. Məsələ ondadır ki, Vergi Məcəlləsinə dəyişiklik benzinin pərakəndə satış qiymətini artırmaqla ediləcəkdisə, bu məsələ barədə ölkə rəhbərliyinə məruzə edilməli idi. TŞ-nin üzvləri arasında isə prezidentə müraciət, məruzə etmək səlahiyyəti olan yeganə şəxs isə qurumun sədri, iqtisadi inkişaf naziri Şahin Mustafayevdir. TŞ-nin digər üzvləri nazir müavinləri olduqlarından onlar istəsələr belə bu haqda məruzə edə bilməzdilər. Hətta o da iddia olunur ki, bəzi nazir müavinləri bahalaşma qərarının verilməsinin əleyhinə olublar. Lakin elə həmin gecə Şahin Mustafayevin iradəsi ilə qərar qəbul olunub. Bunun səhəri gün isə ajiotaj başladı. Dərhal da prezident işə müdaxilə etdi və Vergi Məcəlləsinə dəyişikliyin optimal yolu şuraya təqdim olundu. Heç şübhəsiz ki, ölkədəki indiki həssas məqamda düşünülməmiş, əsaslandırılmamış, yalnız oliqarxların maraqlarına hesablanmış 12 yanvar tarixli qərarını verərək süni ajiotaj yaradanlar cəzalandırıla da bilər. Burada ən böyük məsuliyyəti isə Şahin Mustafayev daşıyır".

Deyilənlərdən ortaya çıxan nəticə budur ki, ölkənin iqtisadi-sosial həyatına cavabdeh olan şəxslər reallıqları normal qiymətləndirə bilmirlər. Onların məlum addımı sabotaj kimi də dəyərləndirilir. Bu üzdən şübhəsiz ki, 2 qəpiklik süni bahalaşma təbii olaraq ən azı bir nazirin başını dərdə salıb...

❑ T.ƏHMƏDLİ

# Müxalifətdən prezidentin benzin qərarına reaksiyalar

### Müsavat, Milli Şura və KXCP Tarif Şurasının bahalaşma qərarının ləğvinə qiymət verdilər

**Tarif Şurasının benzinin qiymətini 2 qəpik qaldırması müxalifət düşərgəsində bir hərəkətliliyə səbəb oldu. Partiyaların aksiyalara başlaması təklifləri səslənirdi. Lakin iki gün çəkmədi ki, ölkə başçısı Tarif Şurasının qərarını ləğv etdi. Bəs bu halda müxalifət düşərgəsi nə düşünür, prezidentin addımını necə qiymətləndirir?**

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı** "Yeni Müsavat"a bildirdi ki, çox uğursuz piar kampaniyası aparılıb: "İki gün ərzində benzinin 2 qəpik artırılması və sonra prezident fərmanı ilə qərarın ləğv edilməsi xalqı saymamaqdır. Hakimiyyət heç zaman xalqa hörmət qoymayıb. Bu piar kampaniyası isə çox uğursuz alındı. Bu cür yanaşma insanların heysiyyətinə toxunmaqdır".

**Milli Şuranın mətbuat xidməti rəhbəri Oqtay Gülaliyevin** fikrincə, əvvəla dünya bazarında neftin qiyməti ucuzlaşır. Onun sözlərinə görə, bu şəraitdə Azərbaycanda benzinin bahalaşması anormal haldır: "Səhv etmirəmsə, iki il əvvəl dünya bazarında neftin qiyməti bahalaşdı və hökumət qabaqlayıcı tədbirlər görmək üçün benzinin qiymətini artıracağını bəyan etdi. İndi neft ucuzlaşdığı halda benzin ucuzlaşmaq əvəzinə qiymət qaldırılır. Birinci növbədə Tarif Şurasının qərarı səhv idi. Ardınca qərarı ləğv edib ictimai rəydə təqdim etmək ikinci yanlışlıq idi".

**MŞ rəsmisi hesab edir ki, qərarın ləğvində ictimai rəyə bir gediş olduğu da hiss edilir:** "Çünki inanmaq olmur ki, dövlət başçısı bu məsələdən xəbərsiz imiş. Sadəcə, ictimai rəydə müsbət xal qazanmaq üçün bir gediş ola bilər. Üstəlik, qiymətlərə yenidən baxmaq lazımdır. Çünki dünyada neft çıxarmayan ölkələrdə belə neft məhsullarının qiyməti Azərbaycanla müqayisədə ucuzdur. Hökumət bu faktı nəzərə almalıdır".

**KXCP sədrinin müavini Xəzər Teyyublu** isə düşünür ki, benzinin bahalaşması gülünc qərar idi. Partiya funksioneri prezidentin verdiyi qərarı dünya iqtisadi siyasətində gedən proseslərlə əlaqələndirir. X.Teyyublu təklif edir ki, əsas gəlirləri neftdən asılı olan ölkədə hökumət qiymətlər məsələsinə yenidən baxmalıdır. "Hər halda, o zaman yanacağın 70 qəpiyə qədər qaldırılması kəskin tənqid olundu. Azərbaycan neft ölkəsidirsə, bu qiymət çox bahadır. Bu ərəfədə isə yenidən 2 qəpik artırılması yolverilməz hal idi. Kor-kor, gör-gör ki, neft dünyada ucuzlaşır, bizdə necə ola bilər bahalaşssın? Yəni Tarif Şurasından tamamilə gülünc bir qərar idi. Prezidentin bu qərara veto qoyması da göstərdi ki, əslində Tarif Şurası ilə bu məsələ razılaşdırılmışdı. Qurum özbaşına qərar verməyib. Sadəcə, dünyada gedən proseslər və neftin getdikcə ucuzlaşması prezidentin qərarına ehtiyac yaratdı".

❑ E.SALAMOĞLU

# İqtisadçı alimdən 2 qəpik dəyərləndirməsi...

### Qubad İbadoğlu: "Benzinin qiymətinin əvvəlki həddinə qaytarılması həm də sosial gərginliyin artması ilə bağlı narahatçılığın ifadəsidir"



Qubad İbadoğlu

**"Benzinin qiymətində baş verən 2 qəpiklik artımın sonradan ləğv olunması ilə bağlı prezidentin Tarif Şurasına müraciəti bir çox həqiqətləri aşkara çıxartdı". Bunu iqtisadçı alim Qubad İbadoğlu son günlər yanacağın qiyməti ətrafında baş verənləri musavat.com-a şərh edərkən bildirdi. O, ölkə başçısının qiymət artımı ilə bağlı Tarif Şurasının qərarını ləğv etməsini aşağıdakı kimi şərh etdi: "Birincisi, bu göstərdi ki, Tarif Şurasında verilən qərar əsaslandırılmış olmayıb, qərar verilərkən onun psixoloji təsirləri, multplikativ və yanaşı effektləri düzgün qiymətləndirilməyib, ya da ola bilər ki, bu istiqamətdə dəyərləndirmələr aparılmayıb. Əslində Tarif Şurası qərar verərkən onu əsaslandırmalı və tənzimlənən qiymətlər haqqında Azərbaycan Respublikası Qanununun 7.2.3. maddəsinə görə, ekspert və mütəxəssislər dəvət etməklə müzakirələr keçirməlidir". Q.İbadoğlunun sözlərinə görə, görünür ki, bunlar olmayıb və ya olubsa da formal xarakter daşıyıb: "Tarif Şurasının qərarının 1 gün ərzində geri çağırılması onu da göstərdi ki, Azərbaycanda iqtisadi qərarlar siyasi maraqlar üzərindən tənzimlənir. Bu isə hazırkı dövrdə həm də sosial gərginliyin artması ilə bağlı narahatçılığın ifadəsidir. Bu dəyişikliyin müsbət tərəflərindən biri də odur ki, qiymətin 2 qəpik artımından sonra bizim mətbuat vasitəsilə bölüşdüyümüz fikirlər və mövqelər hərdən diqqətə alınır".**

❑ Cavid TURAN

YENİ MÜSAVAT
N 10 (6038) 16 yanvar 2015



# İnqilabı məmurlar edəcək?

Azər RƏŞİDOĞLU

**Yenə inqilab mövzusu dəbdədir. Bu nə dərəcədə realdır? Azərbaycan kimi ölkələrdə kənar dəstək olmadan inqilab həyata keçirməyin imkansız olduğunu nəzərə alsaq belə suala cavab tapmaq zorundayıq - kim edəcək bu inqilabı - ABŞ, Rusiya, İran, yoxsa başqa bir güc mərkəzi?**

İnqilab demokratik seçki mühiti olmayan ölkələrdə baş verir. Bir çox daxili və xarici amillər inqilab amilinə skeptik yanaşmağa əsas verir. Əvvəla, ölkədə iqtidardan kütləvi narazılığa baxmayaraq, sosial partlayışlar hələ də idarə olunmaz həddə çatmayıb. Digər tərəfdən, Azərbaycan kimi böyük önəm kəsb edən ölkələrdə inqilab yalnız xalqın öz istəyi ilə baş vermir. Burada xarici amillər də olduqca önəmli rol oynayır.

Onu da unutmaq olmaz ki, istər dünyanın aparıcı ölkələrində baş vermiş inqilabların, istərsə də “ərəb baharı”nın təhlili göstərir ki, proseslərin taleyi küçə və meydanlarda deyil, hansısa uzaq kabinetlərdə həll edilir. Rusiya-ABŞ qarşıdurmasının pik həddinə çatdığı zamanda Azərbaycanda xaos *(idarə olunan və ya olunmayan)* supergüclərin marağında deyil.

Ümumiyyətlə, Azərbaycan kimi ölkələrdə adətən “məxməri inqilablar” baş verir. Bunu reallaşdırmağın yolu isə seçkilərdən keçir.

Lakin belə bir variantın reallaşdırılması üçün ölkədə seçici fəallığı son dərəcə yüksək olmalı və yüz minlərlə insan öz səsini sona qədər qorumağı bacarmalıdır.

Digər tərəfdən, inqilab birdən-birə baş vermir. İnqilaba hansısa hadisə vəsilə ola bilər, lakin onu yetişdirən səbəblər daha dərin köklərə malikdir. Cəmiyyətin passivliyi fonunda ən yaxşı halda insanları mitinq və etirazlara səsləmək mümkündür, bu isə inqilab effekti yarada bilməz.

Azərbaycanda hazırda situasiya o dərəcədə qeyri-müəyyəndir ki, yeni meydana çıxacaq istənilən inqilabçı liderliyə namizəd anındaca hakimiyyətin təqiblərinə məruz qalmalı olacaq. Düzdür, inqilabın və onu idarə edən liderin özəlliyi ondadır ki, gözlənilməyən zaman bütün proseslər ssenaridən çıxa bilər. Siyasi kataklizmlər təhlükəsi hər an gözləniləndir. Onu da nəzərə alsaq ki, kataklizmlər özü də birdən-birə baş vermir, vəziyyətin heç də proqnozlaşdırıla bilməyəcəyini deyə bilərik.

Ümumilikdə isə inqilablar bir qayda olaraq özü ilə təlatümlər və dağıntılar gətirir. İnqilab yolu ilə devrilən iqtidarların taleyi nə qədər acı olursa, hakimiyyətə gələn qüvvələrin karyerası da bir o qədər xoşagəlməz olur. İnqilablar adətən təkrarlanır. Bu isə dövlətin əsaslarını sarsıdır. İnqilab yolu ilə devrilən siyasi qüvvələrin hakimiyyətə qayıdış şansı son dərəcə minimal olur. Seçki yolu ilə məğlubiyyətə uğrayanlar isə bir müddət keçdikdən sonra yenidən hakimiyyətə qayıda bilirlər. Hansı yolu seçməyi isə siyasi qüvvələr özləri həll edəcəklər. İlk növbədə isə bunun məsuliyyəti iqtidarın üzərində qalacaq.

Daha bir önəmli fakta diqqət yetirək. Qərb anlayır ki, Azərbaycanda oliqarxlar müxalifətin tərəfinə keçməsə bu ölkədə inqilab barədə düşüncələr reallaşa bilməyəcək. Ukraynadakı son proseslər milyonlarla maliyyə hesabına gerçəkləşdirilə bildi. Böyük proseslər üçün maliyyə əsas şərtdir.

Məhz oliqarxları müxalifətə keçməyə sövq edəndən sonra Qərb Ukrayna müxalifətini silahlanmaq, milli qvardiya yaratmaq, klassik inqilaba hazırlaşmaq barədə bəyanatlar verməyə sövq etdi.

Bu gün hiss olunur ki, Qərb Azərbaycandakı bir çox siyasi qüvvələri siyasi həyatdan silmək, onların yerinə oliqarx və gəncləri gətirmək istəyir. Klassik müxalifət bu proseslərdə yuxarıda adı çəkilən təbəqə ilə əməkdaşlığla özünü qoruya bilər. Ukraynadakı son proseslərin öyrətdiyi dərslərdən biri də məhz budur.

Hakim klanın iqtisadiyyatı tam nəzarətə götürməsi insanların kəskin etirazına səbəb olur, pulların bölünməsində digər qruplar kənarda saxlanılır. Ən müxtəlif qrupların maraqlarının get-gedə sıradan çıxarılması savaşların miqyasını böyüdür. Bu isə inqilaba yol açır. Bir sözlə, inqilabı bu dəfə elə məmurların özləri alovlandırırlar. İnqilabın ilhamvericisi elə məmurlar özləridir. Odur ki, gənc fəalları inqilabçılar kimi qələmə verib mühakimə etmək məntiqsizdir...

# Azərbaycan “İran kartından” məhrum olur

## Ekspert: “Artıq Bakı ABŞ-la danışıqlarda İran amilindən özünə dəstək üçün yararlana bilməyəcək”

**Yanvarın 14-də Cenevrədə İranın nüvə proqramı ilə bağlı ABŞ və İran nümayəndələri arasında növbəti görüş keçirilib. Görüşdə İran tərəfdən xarici işlər naziri Cavad Zərifin, ABŞ tərəfdən isə dövlət katibi Con Kerrinin rəhbərlik etdiyi nümayəndə heyətləri iştirak ediblər. Cenevrədə C. Kerri və C. Zərif arasında danışıqlar 8 saata yaxın davam edib.**

İran xarici işlər nazirinin müavini Abbas Əraqçi danışıqlardan sonra verdiyi açıqlamada Cenevrə görüşünü “çox şəffaf və ciddi danışıqlar” adlandırıb. Cenevrədə keçirilən 8 saatlıq görüşdən qalan maraqlı fotolardan biri də danışıqlar arasında keçirilən fasilə zamanı nazirlərin Cenevrə küçələrində gəzintiyə çıxması olub. Yayılan fotolardan da görünür ki, bir neçə il əvvələ qədər müharibə vəziyyətində olan ölkənin baş diplomatları çox səmimi söhbət edirlər.

**Siyasi şərhçi Natiq Miri** hesab edir ki, ABŞ-la İranın münasibətlərinin yaxşılaşması Azərbaycanın, xüsusən də Vaşinqton üçün əhəmiyyətini artıq azaldır. Amerikanın İranla yaxınlaşması Azərbaycan iqtidarının əlindən ciddi bir kartın çıxması deməkdir: “Ötən ildən başlayaraq ABŞ-İran yaxınlaşması müşahidə olunur. Artıq heç bir gizli danışıqlara lüzum görülmür. Hər iki dövlətin xarici işlər naziri 8 saata yaxın görüş keçirirlər, hətta dünyaya nümayiş olunsun deyə



Avropanın mühüm ölkələrindən birinin küçələrində birgə dolaşırlar. Bu, çox ciddi göstəricidir və Amerikanın strateji planlarına uyğun bir davranışdır. İrana yönəlik əvvəlki siyasətin 180 dərəcə dəyişdiyinin fərqindəyik. ABŞ regionda Türkiyənin anti-Qərb davranışlarına cavab olaraq İrana önəm verir. Vaşinqton İranla yaxınlaşmaqla, eyni zamanda Azərbaycanın hakimiyyətinin illərdir oynadığı İran kartını qeyri-işlək duruma salmaq istəyir. Artıq Bakı ABŞ-la danışıqlarda İran amilindən özünə dəstək üçün yararlana bilməyəcək.

Gələcəkdə ABŞ-ın İranda diplomatik nümayəndəliyinin açılması da, məncə, uzaqda olmayan məsələdir. Qərb dünyasının investisiyaları tədricən İrana yol açmaqdadır. Bu da bir daha göstərir ki, İranın regionda nüfuzu artırılır və dəngələr dəyişir. Təbii ki, bu, ABŞ-ın istəyi ilə baş verir”.

**Ekspert vurğuladı ki, ABŞ-İran münasibətlərinin tənzimlənməsi Azərbaycanın geosiyasi əhəmiyyətini azaldacaq:** “Birincisi, Azərbaycanın enerjidaşıyıcıları mənbəyi olması artıq Qərb üçün ciddi önəm daşımayacaq. İran həm neft, həm də qaz emalçısı kimi bazara Azərbaycandan qat-qat artıq neft, qaz yönəltmək gücündədir. İranla münasibətlər normallaşdıqdan sonra Azərbaycan bu manevr imkanından məhrum olacaq. İran ABŞ üçün çox strateji əhəmiyyətli ölkəyə çevrilməkdədir. Bunu həm Türkiyə, həm Azərbaycan düşünməlidir”.

❑ Etibar SEYİDAĞA

# “Azərbaycanda hakimiyyət dəyişikliyi planı Rusiyada hazırlanır”

## Ərəstun Oruclu: “Moskva hakimiyyətin içindən özü üçün daha əlverişli fiquru iqtidara gətirməyi hədəfləyib...”

**Son dövrlərdə Rusiya mediası və ekspertləri Azərbaycanda və ümumiyyətlə, postsovet respublikalarında hakimiyyət dəyişikliyi ilə bağlı tez-tez yazmağa başlayıb. Xüsusən də Ukraynada inqilabdan sonra Rusiya mənbələri daha çox bu xətti irəli sürür ki, Qərb postsovet ölkələrində hakimiyyət dəyişikliyi vasitəsilə özünə yaxın qüvvələri iqtidara gətirməklə bağlı planlar hazırlayır.**



Bir qədər əvvəl Qərb Rusiyanı daha da zəifləmək üçün ona qonşu ölkələrdə dövlət çevrilişləri seriyası hazırlaması və o sırada Azərbaycanın olması ilə bağlı daha bir təhlil dövriyyəyə buraxılıb. Virtualaz.org saytı xəbər verir ki, bu sensasion fikirlərlə rusiyalı ekspertlər “Svobodnaya pressa”da çıxış ediblər. Sözügedən materialda bildirilir ki, ABŞ Ukraynada 2014-cü ildə həyata keçirilmiş çevrilişlərlə kifayətlənmək niyyətində deyil və Rusiyaya qonşu digər ölkələrdə də siyasi rejimləri dəyişdirməyə çalışacaq.

“2015-ci ildə yeni "narıncı" inqilablar gözləmək olar. Prinsipcə, yeni heç nə yoxdur, dövlət çevrilişlərinin bütün texnologiyası köhnədir, təkcə ayrı-ayrı metodikalar modernləşdirilir", - deyə “Geopolitika” jurnalının baş redaktoru Leonid Savin bildirib. Onun fikrincə, 2015-ci ildə Qərb çox güman ki, Ermənistandakı vəziyyəti qarışdıracaq. Vəziyyətin qarışa biləcəyi ölkələr sırasına Azərbaycanı da daxil etmək olar, çünki L.Savinin qənaətincə, Bakının Vaşinqtonla və Qərbi Avropa ilə münasibətləri pisləşir.

Yeri gəlmişkən, analoji məlumatlar Azərbaycanda tirajlanır. Özü də rəsmi qurumların əli ilə. Məsələn, ötən il həbs olunan QHT fəalları və fəaliyyətinə son qoyulan təşkilatlara qarşı əsas ittihamlardan biri də bu qurumların məhz Qərbin dəstəyi ilə Azərbaycanda hakimiyyət dəyişikliyi hazırlaması ilə bağlı idi. Belə iddialar nə qədər realdır? Ümumiyyətlə, indiki zamanda Azərbaycanda hakimiyyət dəyişikliyi mümkündürmü? Nəzərə alsaq ki, Azərbaycanda ənənəvi siyasi müxalifət təşkilatları xeyli dərəcədə zəiflədilib, xalqla əlaqələri məhdudlaşdırılıb, baş verə biləcək hakimiyyət dəyişikliyi zamanı iqtidara hansı qüvvələr gələ bilər?

**Mövzu ilə bağlı söhbət etdiyimiz politoloq Ərəstun Oruclu deyir ki, bu iddiaların məhz rusiyalı ekspertlər tərəfindən ortaya atılması Rusiyanın Azərbaycanla bağlı planlarının bir hissəsidir:** “Rusiya mediasının və ekspertlərinin Qərbin Azərbaycanda hakimiyyət dəyişikliyi həyata keçirəcəyi ilə bağlı proqnozları təsadüfi deyil. Nəzərə almaq lazımdır ki, rəsmi Bakının Qərblə münasibətlərinin pozulmasının ssenarisi Rusiyada hazırlanıb. Bu ssenarinin növbəti bəndi də ondan ibarətdir ki, Rusiya Azərbaycanda hakimiyyəti dəyişəcək və özü üçün daha əlverişli fiquru hakimiyyətə gətirəcək. Bunu da bəri başdan özünü sığortalamaq üçün Qərbin ayağına yazırlar”.

**Politoloqun fikrincə, Rusiya Azərbaycandakı adamlarını hərəkətə gətirmək, hakimiyyət dəyişikliyi həyata keçirmək istəyir. Bunun üçünsə əsas qüvvə olaraq hakimiyyət içərisindəki Rusiyaya yaxın oliqarxlar olacaq. Ekspertə görə, son dövrdə aparılan kampaniya məhz bu planı reallaşdırmağa xidmət edir:** “Birinci buna aydınlıq gətirmək lazımdır. Mən əminəm ki, Azərbaycanın Amerika və Avropadan təcrid olunmasının arxasında məhz ölkədə hakimiyyət dəyişikliyi planı dayanır. Məhz Rusiyanın planını reallaşdırmaq üçün Rusiyanın ssenarisinə uyğun olaraq Azərbaycanda bütün vətəndaş cəmiyyəti institutları, media sıradan çıxarılır. Rusiya bunun üçün hakimiyyətin içindəki bir sıra oliqarx nazirlərdən istifadə edəcək. Onlardan daha güvənlisi hakimiyyətə gətiriləcək. İstisna etmirəm ki, bu prosesdə Türkiyə də iştirak edəcək. Bu ssenari yalnız bir halda baş tutacaq ki, həqiqətən də Qərbin bunun qarşısını almağa gücü çatmasın. İstənilən halda hakimiyyətin alternativi elə hakimiyyətin öz içindən, hakim elitanın daxilindən olacaq. Əks təqdirdə, hakim elitaya daxil olan bir sıra rəsmilər, nazirlər, yüksək rütbəli məmurlar kapitalı, mülkiyyəti, hətta övladları Qərb ölkələrində ola-ola belə canfəşanlıqla Qərblə münasibətləri korlamazdılar. Əgər korlayırlarsa, deməli, daha böyük uduş əldə etməyə hazırlaşırlar”.

❑ KƏNAN

YENİ MÜSAVAT
N 10 (6038) 16 yanvar 2015

# Rəsul Cəfərov ev dustaqlığına buraxılmadı

## İlkin məhkəmə prosesində vəkillərin qaldırdığı vəsatətlərin heç bir təmin edilmədi; Anar Nağılbaz təqsirləndirilənə azadlıq istədi...



**Yanvarın 15-də Bakı Ağır Cinayətlər Məhkəməsində həbsdəki hüquq müdafiəçisi Rəsul Cəfərovun ilkin məhkəmə prosesinə hazırlıq iclası keçirildi. Məhkəmə önünə ölkənin bir çox tanınmış simaları toplanmışdı. Xarici səfirliklərin nümayəndələri də prosesi müşahidə etmək üçün məhkəmə binasının önünə gəlmişdilər.**

Proses saat 10:30-da başladı. İlk olaraq çıxış edən hakim Eldar İsmayılov proses iştirakçılarına və məhkəmə heyətinə Rəsul Cəfərova qarşı sürülmüş Cinayət Məcəlləsinin maddələri barədə məlumat verdi. Rəsul Cəfərov məhkəmə heyətinin tərkibi ilə razı olduğunu bildirdi.

**Daha sonra Rəsul Cəfərovun vəkili Fariz Namazlı çıxış edərək, məhkəmə qarşısında bir sıra vəsatətlər qaldırdı:** “İlk vəsatətimiz Rəsul Cəfərov haqqında qaldırılmış cinayət işinə xitam verilməsi ilə bağlıdır. Hesab edirik ki, onun həbs olunmasına heç bir əsas yoxdur. Hazırda Rəsul bəyin bank hesablarına həbs qoyulub. İstintaq onun bəzi maliyyə vəsaitlərini mənimsəməsi qənaətinə gəlib. Biz bununla bağlı sənədlər hazırlamışıq. Əslində müdafiəçisi olduğum şəxs bu sənədləri avqust ayında təqdim edəcəkdi. Lakin həbs olunması buna imkan vermədi. Sənədlərdə konkret olaraq xərclənən pulların ünvanı göstərilib. Burda Rəsul Cəfərovun xarici ölkələrə səfəri zamanı yol xərclərinin təşkili, bir siyasi məhbusun ailəsinə yardım olunması və bu kimi konkret mənbələr var. Bundan əlavə, ayrı-ayrı vaxtlarda təşkilata verilən pul mükafatları da göstərilib. Bütün bunlar Rəsul Cəfərova qarşı irəli sürülmüş qanunsuz sahibkarlıq maddəsinin tam əsassız olduğunu sübut edir. Bununla bağlı da vəsatətimiz var. Zərərçəkmiş şəxslərin təqsirləndirilən şəxsə qarşı şikayətləri olmadığına görə, onların adı istintaq materiallarından çıxarılmalıdır. Əlavə şahidlərin məhkəməyə gətirilməsini xahiş edirik. Bundan əlavə, Rəsul Cəfərovun ölkədən çıxışına imkan olmadığına, onun özü məhkəmədən yayınmadığına görə həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunması vəsatətimizin təmin olunmasını xahiş edirik. Digər vəsatətlərimizdən biri də məhkəmənin audo, yaxud video şəklində aparılmasıdır. Son vəsatətimiz isə əgər təqsirləndirilən şəxs azad olunmasa, proseslərdə müdafiəçilərinin yanında əyləşdirilməsidir”.

Hüquq müdafiəçisinin digər vəkili Əlibaba Rzayev həmkarının qaldırdığı vəsatətlərlə razı olduğunu qeyd elədi.

**Təqsirləndirilən şəxs Rəsul Cəfərov çıxışında həbsinin ev dustaqlığı ilə əvəz olunmasında bir problem görmədiyini söyləyib:** “Mənimlə bağlı proseslər başlayanda bu barədə mətbuata məlumat verdim. İstintaqdan heç zaman yayınmamışam. Bank hesablarıma həbs qoyulanda xaricdə idim. Lakin həbs olunma ehtimalımı bilə-bilə öz ölkəmə qayıtdım. İyulun 30-da 4 saat ifadə verdim. Mənzilimdə iki saat axtarış oldu. Bütün bunlara görə hesab edirəm ki, həbsimin ev dustaqlığı ilə əvəz olunmasında bir problem yoxdur. Çünki ölkəmi heç zaman tərk etmək, istintaqdan qaçmaq fikrim olmayıb. İctimaiyyət və mən bu işin obyektiv araşdırılmasında maraqlıyıq. Azadlığa çıxmağım bu işin araşdırılmasına mane ola bilməz”.





Məhkəmədə zərərçəkmiş qismində iştirak edən Anar Cəbiyev (Anar Nağılbaz) və Heybət Əmrahov çıxışlarında Rəsul Cəfərovun azadlığa buraxılmasını hakimdən xahiş elədilər. Onlar Rəsul Cəfərova qarşı heç bir iddia və şikayətlərinin olmadığını bildirdilər.

Dövlət ittihamçısı Mübariz Mirili isə çıxışı zamanı müdafiə tərəfinin qaldırdığı vəsatətlərin heç biri ilə razı olmadığını və heç bir vəsatətin təmin olunmadığını söylədi. Daha sonra məhkəmə müşavirə otağına yollandı. Yarım saatdan sonra müşavirədən qayıdan məhkəmə heyətinin qərarı məlum oldu. Hakim Eldar İsmayılov müdafiə tərəfinin heç bir vəsatətinin təmin olunmadığını və növbəti məhkəmə tarixinin yanvarın 27-də saat 10:30-da olacağını proses iştirakçılarının diqqətinə çatdırıb.

**Məhkəmədən sonra vəkil Fariz Namazlı jurnalistlərə açıqlama verib:** “Bu gün məhkəmədə bir sıra vəsatətlər verdik. Əsas tələbimiz o idi ki, Rəsul Cəfərova qarşı irəli sürülmüş ittihamların heç bir əsası yoxdur. İşə xitam verilməli idi... Ancaq proses yeni başlayıb. İndidən məhkəmənin obyektiv aparılıb-aparılmaması demək mümkün deyil. Gələcək proseslərdə bir sıra vəsatətləri yenə verəcəyik”.

❑ **Cavanşir ABBASLI**

# Bu gün İntiqam Əliyevin məhkəməsi başlayır

## Beynəlxalq İnsan Haqları Federasiyası həbsdə olan hüquq müdafiəçiləri ilə bağlı bəyanat yayıb

**Yanvarın 16-da tanınmış hüquq müdafiəçisi İntiqam Əliyevin işi üzrə hazırlıq iclası keçiriləcək. Hüquq Maarifçiliyi Cəmiyyətinin rəhbəri, hüquqşünas və hüquq müdafiəçisi İntiqam Əliyev avqustun 8-də saxlanılıb. Saxlanılmazdan bir həftə əvvəl onun ofisində Vergilər Nazirliyinin Vergi Auditi Departamenti yoxlama aparıb. İntiqam Əliyev Cinayət Məcəlləsinin dörd maddəsi (213.1, 308.2, 192.2, 179.3.2) ilə ittiham olunur.**

Beynəlxalq İnsan Haqları Federasiyası (FİDH) yanvarın 14-də yaydığı bəyanatda bildirir ki, bu məhkəmələr insan haqları müdafiəçilərini susdurmaq kampaniyası çərçivəsində ilk proseslərdir. Qurumun nümayəndə heyəti yanvarın 4-dək 8-dək Bakıda olub, Rəsul Cəfərov və İntiqam Əliyevlə görüşməyə çalışıb.

Görüş siyahısına həbsdə olan araşdırmaçı jurnalist Xədicə İsmayıl və hüquq müdafiəçiləri Leyla və Arif Yunuslar, Anar Məmmədli, Bəşir Süleymanlı və Hilal Məmmədov da daxil idi. Ancaq israrlı xahişlərə baxmayaraq, bu görüşlərə icazə verilməyib.

"Son aylar QHT-lər və onların rəhbərləri üzərinə böyük ağırlıq düşüb. Bu gün vətəndaş cəmiyyəti senzuraya və repressiyaya məruz qalıb". Bunu FİDH-nin vitse-prezidenti Tolekan Ismailova deyib.



İntiqam Əliyev

Qurum Cəfərov və İntiqam Əliyevin məhkəmələrinə müşahidəçilər göndərəcək və yanvar missiyasına dair hesabat hazırlayacaq.

Yerli və beynəlxalq hüquq müdafiə təşkilatları adıçəkilən şəxslərdən başqa Azərbaycanda 100-ə yaxın siyasi məhbus olduğunu bildirirlər.

Azərbaycan rəsmiləri isə ölkədə siyasi motivlərlə heç kəsin həbs edilmədiyini, adıçəkilən şəxslərin isə konkret cinayət əməllərinə görə ittiham olduqlarını bildirir.

# “Cümhuriyet”in qələti, yoxsa təxribatı?..



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**10 ilə yaxındır Qərbin müəyyən dairələri İslam dünyasını israrla “başa salmağa” çalışır ki, söz-ifadə azadlıqları çərçivəsində tənqid hədəfinə müqəddəslər də düşə bilər. Müsəlman aləmi və onun öncül simaları, söz adamları, alimləri, demokratları, ilahiyyatçıları da qərbdəkilərə illərdir anlada bilmirlər ki, müqəddəslərin, o sırada islam peyğəmbərinin ələ salınmasının ifadə azadlıqlarına, demokratiyaya heç bir dəxli yoxdur.**

Amma liberal maskası taxıb məkrli niyyət güdənlər bunu heç cür qəbul eləmək istəmir; hərgah batində əla bilirlər ki, etiqad (vicdan) azadlığı elə təməl azadlıqların tərkib hissəsidir. Anlamaq istəmirlər, çünki sərf eləmi; çünki qarşıya qoyduqları əsas hədəf heç də nəyinsə dərkinə nail olmaq yox, başqa şeylərdən ibarətdir; islam dünyasını özündən çıxarıb bu fonda digər çirkli məqsədlərə, misal üçün, Avropadakı bütün dürüst və dinc müsəlmanları qovub çıxarmaq, islamı 21-ci əsrin “xoxan”ı qismində dünyaya təqdim və təbliğ eləmək, “ərköyün” Şərqə qarşı yeni “Xaç yürüşü” üçün ideoloji zəmin hazırlamaqdır.

Yazıqlar olsun ki, özünü söz-ifadə azadlığının arealından kənarda qoyub həmin məkrli dairələrin “çörəyinə yağ sürtən”, küyə gedənlər arasında “müsəlmanlar” da var. Onlar hətta Roma Papasından artıq katoliklik iddiasına düşərək üzdəniraq liberalların müdafiəsinə onların özlərindən də inadlı bir şəkildə qalxmağa səy edirlər. Halbuki, Roma papaları da İsa peyğəmbərin, başqa qutsalların təhqirinin yolverilməz olduğunu dəfələrlə bəyan ediblər.

Amma kimə deyirsən, bir çox qaranlıq mətləblərə kifayət qədər işıq salındığı məqamda belə Qərbdəki təxribatçılara Şərqdə, Türkiyədə hayan duranlar tapılır. Qardaş ölkənin nüfuzlu nəşrlərindən olan “Cümhuriyet” qəzeti də əfsuslar olsun ki, eyni səfdə dayanıb - bədnam karikaturaları təkrar çap eləməklə.

Nə demək istəyirlər bununla görəsən? Bu bir - yanlış, radikalların ünvanına “qarğa, məndə qoz var” mesajıdır, yoxsa təxribat? Böyük ehtimalla, sonuncudur. Çünki Türkiyə böyük müsəlman dövlətlərindən biridir və bu cür düşünülmüş əməllər dərhal cəmiyyəti qarışdıra, hökumətə əlavə problemlər yarada bilər. Bəs, belə problemlərin, qarışıqlığın xeyrini hansı dairələr görə bilər? Sual ritorikdir...

Hiss olunur ki, “Cümhuriyet”in İslam əleyhinə, dəyərlər əleyhinə bu təxribatı dinci Ərdoğan hökumətinə qarşı olmaqdan qat-qat çox, hansısa xarici əlin dəstəyi ilə Türkiyə dövləti üçün başağrısı yaratmağa hesablanıb. Yoxsa ki, cümhuriyyət yaradıcısı Atatürk də islam və peyğəmbər əleyhinə olmayıb, Türkiyə Respublikasında ateizm heç vaxt rəsmi ideologiyanın tərkib hissəsinə çevrilməyib, qardaş məmləkətdə həmçinin, məscidlər heç zaman qapadılmayıb.

Ümumiyyətlə, nə Azərbaycanda, nə də Türkiyədə cümhuriyyət dəyərləri nə vaxtsa dini dəyərlərə ziddiyyətdə olmayıb *(bizim bayrağımızın rənglərindən biri yaşıldır)*. Cümhuriyyət hara, insanların dini hisslərini peyğəmbərini aşağılamaq hara? O zaman “cümhuriyyət” adını daşıyan bir nəşr nədən belə rəzilliyə getsin? Əcəba onun rəhbərinin damarlarında müsəlman qanı heç yoxmu? Ya bəlkə o, bir erməni? Fəqət, Ermənistanda da nalayiq rəsmləri təkrar çap eləməyiblər...

İndiki Türkiyə hökumətini bir çox şeydə qınamaq olar, amma onun Paris olayları məsələsində tutduğu mövqe ədalətli, obyektiv və məntiqlidir. “Həzrəti Peyğəmbərə qarşı təhqirə icazə verməyərik”. Bunu Türkiyənin baş naziri Əhməd Davudoğlu mətbuata açıqlamasında deyib. Sitat: “Dünyanın harasında olursa olsun, hansı səbəblə edilirsə edilsin, terror hücumlarına qarşıyıq. Ancaq peyğəmbərin təhqir edilməsinə də icazə verməyərik. Mətbuat azadlığı təhqir etmə azadlığı demək deyil. Hələ üstəlik, bu, bizim şəxsiyyətimizdən, kişiliyimizdən çox daha böyük məna daşıyan və aləmlərə rəhmət olan bir Peyğəmbərə, şəxsiyyətə ünvanlı bir təhqirdisə, o, qətiyyən mətbuat azadlığı deyil. Hal beləykən, Türkiyədə bu həssaslıq varkən, bəziləri Həzrəti Peyğəmbərə qarşı təhqir ehtiva edən bir karikaturanı yayımlayırsa, deməli, burada bir təhrik var”.

Bu sözlər Qərbdəki məlum dairələrlə yanaşı, heç şübhəsiz, “Cumhuriyet” qəzetinə ünvanlanıb.

YENİ MÜSAVAT
N 10 (6038) 16 yanvar 2015



# Qoyun-quzu ili

Zamin HACI
zaminhaci@gmail.com

**Dünənki yazımı - neftin qiymətinin düşməsi ilə yapizmin xalqa yaxınlaşması mövzusunu davam etdirirəm. Qanunsuz tikilən evlər haqda prezident sərəncamı da şübhəsiz, hakimiyyətin pullarının azalmasından doğan təşvişlə bağlıdır. Doğrudur, həmin sərəncam olduqca qəlizdir, heç bilinmir ondan kim yararlanacaq, ancaq hər halda "gecəqondulara sənəd verilir, onlar qanuniləşir" şayiəsinin cəmiyyətdə yayılması vacibdir.**

Sərəncama pessimist yanaşmağımın səbəbi var. Xatırladım ki, buna tam bənzər sərəncam "ərəb baharı" zamanı da verilmişdi, ancaq heç vecinə alan olmadı - camaatın evlərini ekskavatorla uçurdub yerində "dövlət əhəmiyyətli obyektlər", məsələn, hansısa məmura məxsus şadlıq sarayı tikilməsi prosesi sürətlə aparılırdı. Çünki neft pulları gəlirdi. İndi onsuz pul azalır, ekskavatora tökməyə yanacaq yoxdur, ara yerdə bisavad camaata minnət qoymağın nəyi pisdir?

Mövzuya dəxli olmasa da, bu rejimin belə yalan-palan, reklam üçün verdiyi sərəncamlar saysız-hesabsızdır. Örnək üçün, dəniz kənarında 130 metrlik zolağın bütün xalqa məxsus olması, orda tikintinin qadağan edilməsi haqda məşhur sərəncamı xatırlayın. Həmin sərəncamdan sonra yapistlər bütün Xəzəri hasara aldılar, Azərbaycan xalqı da Sərvərlə Gülnazın öpüşməsini hasar dalından izləməyə məcbur Məşədi İbadın gününə düşdü.

Ancaq neftin ucuzlaşmasının ən məzəli təsiri 2015-ci ilin "Kənd təsərrüfatı ili" elan edilməsində özünü göstərir. Yapistlərdə belə bir ənənə var, hər ilə bir ad qoyarlar, guya həmin il əsas mövzu o olar. Diqqətli azərbaycanlıların yadındadırsa, neft qiymətləri kəlləçarxa qalxanda bizdə il "İdman ili", "Muğam ili", nə bilim, "Çal oynasın, Əjdər əmi" tipində bir şeylər olardı. Doğrudan da, qara qızılın barreli 50 dolların altına düşəndə hansı çal-çağırdan bəhs edəsən? Pulsuzluq çox köpəyoğlu şeydir, pulsuz iqtidar hətta manısları bulvara yığıb proletariat üçün konsertlər qayırmaqda da çətinlik çəkəcəkdir, gəl gör, hələ Rövnəq əkə Elton Conu stadiona gətizdirib "Zabul Segah" oxutdursun... İndi turp əkmək, dana saxlamaq, necə deyərlər, milli adət-ənənələrimizə, çarıq-patavamıza qayıtmaq zamanıdır.

Hərçənd kənd təsərrüfatı neft bumu illərində elə çökməyib ki onu reklamla qaldırmaq mümkün olsun. Akademiya alimləri özləri etiraf elədilər təzəlikcə: Azərbaycanda əkinə yararlı torpaqların 50 faizi son 20 ildə erroziyaya, aşınmaya uğrayıb, ölüb gedib. Srağagün Hollandiyada yaşayan jurnalist həmkarımız Fikrət Hüseynli Amsterdam dükanlarından bir fotonu sosial şəbəkədə paylaşmışdı. Sən demə, Hollandiyada 10 kiloqram kartof bizim pulla 1 manat 20 qəpikdir! Biz isə Bakıda bu pulla cəmi 1 kilo kartof ala bilirik. Deməli, Azərbaycanda ərzaq malları Hollandiyadan 10 dəfə bahadır. Özü də Hollandiyanın orta maaşının bizdən 10 dəfə yüksək olduğunu nəzərə alsaq, kimlərin idarəçiliyi altında yaşadığımızı anlamalıyıq.

Bir oxucum da var idi, uzun illər qabaq Lənkəran zonasında pomidor əkirdi, hansısa əkin-biçin problemi ilə bağlı o vaxt məktub yazmışdı, mən də bunu dərc eləmişdim. Keçən ay təsadüfən qarşılaşdıq, özünü təqdim elədi, yadıma düşdü. Zarafatla soruşdum pomidorlar indi necədir. Kaş heç soruşmazdım. Çünki adam çox kədərlə dedi ki, "Azərsun" bütün bölgədə kənd təsərrüfatını inhisara alıb, artıq tək bir kəndlinin, ayrı-ayrı fermerlərin bostan-tərəvəz məhsulları yetişdirməsi qəti səmərəli olmur, o üzdən hamı torpağını, kəndli təsərrüfatını atıb qaçır.

"Azərsun" gerçəkdə kimə məxsusdur, onu da uca millətimiz yaxşı bilir. Bu mövzuda yazan jurnalist hazırda Kürdəxanı zindanında saxlanılırsa, biz niyə başımızı cəncələ salaq? Azərbaycanda ən rahat mövzu Az TV kimi rayonlarda aparılan turp əkinlərindən reportaj hazırlamaqdır. "Kənd təsərrüfatı ili"dir, üstəlik. Biz də bu cür dövlətçiliyə töhfə verək.

# 907-ci düzəliş: kimdir günahkar, ABŞ, yoxsa Elçibəy hökuməti?

**ABŞ-Azərbaycan münasibətlərinin gərginləşməsi fonunda 22 il öncə qəbul olunan ədalətsiz akt yenidən gündəmə gəlib. Söhbət 1992-ci ilin oktyabrında ABŞ Konqresi tərəfindən "Azadlığa Dəstək" Aktına qəbul edilən və Azərbaycana Amerikanın birbaşa dövlət yardımını yasaqlayan 907-ci düzəlişdən gedir.**



Hesab olunur ki, bu, ABŞ-ın Ermənistan və Azərbaycana qarşı yürütdüyü siyasətdə tətbiq olunan ikili standartlara misaldır. Düzəliş ilk dəfə 1992-ci ilin ilk aylarında "Azərbaycan tərəfindən Dağlıq Qarabağın "işğalı" və Ermənistana qarşı blokadasını dayandırmaq məqsədilə" Senator Con Makkeyn tərəfindən təklif edilsə də, sonrakı müddətdə naməlum səbəblərdən geri qaytarılmışdı. Bundan sonra yenidən senator Con Kerrinin və erməni lobbi təşkilatlarının dəstəyi ilə Konqressmen Ueyn Ouens (Yuta ştatı) tərəfindən Konqresdə irəli sürülüb. Senator Riçard Luqar (İndiana ştatı) düzəlişin qəbul edilməsinin əleyhinə çıxış etmişdi. Lakin buna baxmayaraq, düzəliş erməni lobbi təşkilatlarının güclü təzyiqi nəticəsində Konqres tərəfindən qəbul edilib. ABŞ vitse-prezidenti Cozef Bayden düzəlişin qəbulunda fəal rol oynayıb və dəfələrlə onun ləğv edilməsinə qarşı çıxış edib.

2001-ci il 11 sentyabr hadisələrindən sonra Azərbaycanın beynəlxalq terrorizmlə mübarizədə dəstəyini təmin etmək məqsədilə ABŞ Konqresi prezidentə düzəlişin hüquqi qüvvəsini dayandırmaq səlahiyyəti verib. Sözügedən aktın tətbiqi indiyədək dondurulsa da, tam ləğv edilməməsi əslində işğala məruz qalan Azərbaycana qarşı ədalətsiz yanaşma və təhdid sayılır. Sənəddə deyilir: **a)** Prezident Azərbaycan hökumətinin Ermənistana və Dağlıq Qarabağa qarşı blokadasının və digər güc tətbiqin aradan qaldırılması üçün addımların atıldığını müəyyən etməsə və bu haqda Konqresə məruzə etməsə, Azərbaycan hökumətinə ABŞ tərəfindən bu və ya digər qanunlarla nəzərdə tutulmuş yardım göstərilə bilməz.

**b)** Prezident qadağanın tətbiq edilməsinin ABŞ-ın milli maraqlarına uyğun olmadığına dair qərara gəlsə və bu haqda Konqresə təqdimat versə, (a) bəndində göstərilən qadağa tətbiq edilməməlidir".

ATƏT-in Minsk Qrupunun həmsədri olan bir ölkənin işğalçı ilə işğala məruz qalana fərq qoymaması normal qarşılana bilməz. Üstəlik, BMT-nin 4 qətnaməsini on illərdir yerinə yetirməyən işğalçıya, həmçinin separatçı erməni rejiminə maliyyə yardımının ayrılması qəbulolunmazdır. Tarixi fakt budur ki, erməni lobbisinin təsiri ilə ABŞ Konqresi Azərbaycan ordusunun uğurlu döyüş əməliyyatlarının qarşılığında belə bir anti-Azərbaycan qərarını verib.

Ancaq Azərbaycan hakimiyyətinin ayrı-ayrı ideoloqları 907-ci düzəlişdə Elçibəy hakimiyyətinin suçlu olduğunu bəyan edirlər. Hesab olunur ki, bu, "AXC-Müsavat hakimiyyətinin naşı siyasətinin" nəticəsidir.



**Arif Hacılı:**
"O zaman artıq Azərbaycan Silahlı Qüvvələri keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinin mühüm bir hissəsini azad etmişdi"



**Hikmət Hacıyev:**
"907 tamamilə ədalətsiz və əsassız ittihamlar əsasında formalaşıb"

**Elçibəy hakimiyyətində təmsil olunmuş Müsavat Partiyasının başqanı Arif Hacılı isə ittihamları qəbul etmir:** "907-ci düzəliş o zaman qəbul edilmişdi ki, artıq Azərbaycan Silahlı Qüvvələri keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinin mühüm bir hissəsini azad etmişdi. Azərbaycan qoşunları Sırxavəndə qədər gedib çatmışdılar, Uludağda mövqe tutmuşdular. 907-ci düzəliş Elçibəy hakimiyyəti dövründə erməni silahlı birləşmələrinin Azərbaycan ərazisindən qeyd-şərtsiz çıxarılması tələblərini özündə əks etdirən BMT qətnamələri ilə müqayisədə çox az təsirli bir qərar idi". **A.Hacılı ardınca bunları bildirdi:** "Ona görə də bu düzəlişin Elçibəy hakimiyyəti dövründə qəbul edilməsini o zamankı hökumətinin qüsuru kimi vurğulayanlara xatırlatmaq istəyirəm ki, bu, Qarabağ ərazisinin erməni silahlı birləşmələrindən təmizlənməsinin mühüm aksiyalarının həyata keçirilməsi fonunda qəbul edilmiş bir qərar idi. Eyni zamanda əgər 4 iyun qiyamı baş verərək Elçibəy hökuməti hakimiyyətdən kənarlaşdırılmasaydı, həmin dövrdə qəbul olunmuş BMT qətnamələri iyun-iyul aylarında artıq yerinə yetiriləcəkdi. Bizə irad tutan hakimiyyət nümayəndələri BMT qətnamələrinin yerinə yetirilməməsinin səbəbləri barədə düşünsələr, daha düzgün olar".

Bəs rəsmi Bakı 907-ci düzəlişlə bağlı hansı mövqedədir?

**XİN-in mətbuat katibi Hikmət Hacıyev "Yeni Müsavat"a açıqlamasında bunları bildirdi:** "907-ci düzəliş hər hansı bir siyasi və hüquqi əsası olmayan iddialar əsasında, o zaman ABŞ Konqresində xüsusilə də ermənipərəst lobbistlərin fəaliyyəti nəticəsində və tamamilə anti-Azərbaycan ruhda ərsəyə gəlib. Azərbaycan işğal və təcavüzə məruz qaldığı halda, 907-ci düzəliş məhz ölkəmizə qarşı yönəlmişdi. Heç təsadüfi deyil ki, ABŞ-ın ictimai-siyasi dairələri və eləcə də bir sıra konqresmenlər tərəfindən dəfələrlə qeyd edilib ki, məlum 907-ci düzəliş ilk növbədə ABŞ-ın milli maraqlarına xələl gətirir. Məlum 11 sentyabr hadisələrindən sonra isə ABŞ-ın icraedici hakimiyyəti tərəfindən milli təhlükəsizlik maraqları adı altında 907-ci düzəlişin fəaliyyəti dondurulub". **Ancaq bu situasiya təbii ki, rəsmi Bakını qane etmir:** "Ümumiyyətlə, 907 tamamilə ədalətsiz və əsassız ittihamlar əsasında formalaşdığı üçün belə bir düzəlişin olması heç bir halda ədalətli hesab oluna bilməz. Amma Azərbaycanın hazırda 907-ci düzəlişin əsasən ehtiva etdiyi yardımlar kimi məsələlərə ehtiyacı yoxdur. Azərbaycan özü yardım qəbul edən dövlətdən donor dövlətə, qlobal, davamlı inkişafa töhfə verən dövlətə çevrilib. Sadəcə olaraq, siyasi kontekstdən yanaşsaq, bu, tamamilə əsassız ittihamlar əsasında formalaşdığı üçün düzəlişin qalmasına da heç bir əsas və lüzum görmürük". **Bəs Azərbaycan hökuməti düzəlişin tamamilə ləğvi məsələsini ABŞ rəsmi dairələri qarşısında qaldırırmı? H.Hacıyev:** "Bu məsələ dəfələrlə qaldırılıb. Ancaq artıq bu, dondurulmuş məsələ olduğu üçün bizim tərəfimizdən o qədər də əhəmiyyət verilmir". **XİN rəsmisi hesab edir ki, əslində sanksiyaya məruz qalan tərəf işğalçı Ermənistan olmalıdır:** "Beynəlxalq hüquqda və BMT nizamnaməsində sanksiyalar rejimi və onların tətbiq olunması halları çox açıq şəkildə müəyyən edilib. Burada işğal və təcavüz faktı ən ümdə amillərdən biridir ki, bir dövlət tərəfindən digər dövlətə qarşı işğal və təcavüz törədildiyi halda ona qarşı sanksiyalar tətbiq edilməlidir. 907 təbii ki, sanksiya anlamına gəlməməlidir, bu, sanksiya deyil, ola da bilməz. Amma bu kimi hallar Ermənistan kimi dövlətlərə şamil edilməlidir".

❑ Cavid TURAN

**Azərbaycan hakimiyyətinin Bakıda Beynəlxalq Mətbuat Mərkəzində ABŞ-da insan haqlarının vəziyyəti ilə bağlı dinləmələr təşkil etmək niyyətində olduğu haqda "Yeni Müsavat" qəzetinin 15 yanvar tarixli sayında yaydığı xəbər təsdiqlənib. Yanvarın 15-də Beynəlxalq Mətbuat Mərkəzində Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurası tərəfindən "ABŞ-da insan hüquqlarının vəziyyəti. Ölkənin xarici siyasətinin paradoksları" mövzusunda dinləmələr keçirilib.**

# Bakıda Amerikadakı vəziyyətlə bağlı dinləmələr keçirildi

## ABŞ hökuməti insan hüquqlarının pozulmasında, jurnalistlərə təzyiqdə, korrupsiyada və ikili standartlarda günahlandırıldı

Tədbirdə çıxış edən **QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri, deputat Azay Quliyev** bildirib ki, ABŞ-dakı qurumların Azərbaycana qarşı addımlarından narahatdırlar: "QHT-lərin müraciətləri əsasında belə bir dinləmələr keçirməyə qərar verdik. Öz ölkəsində insan haqlarını pozan, Quantanamo kimi həbsxanalar saxlayan ABŞ nə üçün Azərbaycanı hədəf seçib? Azərbaycan strateji müttəfiq kimi bütün öhdəlikləri yerinə yetirib. Belə olan halda tənqidlərin olmasını qəbul edə bilmərik. Ermənistan Avrasiya İttifaqına qəbulla bağlı geosiyasi qərar verdi. Amma Qərbdən bununla bağlı heç bir reaksiya olmadı".

**A.Quliyev deyib ki, keçmiş ABŞ diplomatları Azərbaycana qarşı çağırışlar edirlər:** "Halbuki onların arxasında hansı gücün dayandığı hər kəsə bəllidir. Azərbaycan bu gün bütün hallarda müstəqil siyasət yürütmək yolunu tutub və bu da davam edir".

**"ABŞ-da etnik, irqi və dini zəmində ayrı-seçkilik: ksenefobiya və islamofobiya təzahürlərinin güclənməsi" mövzusunda məruzəçi, deputat Zahid Oruc isə deyib ki, Amerikadan maaş alanlardan fərqli olaraq, bu tədbirdə ictimaiyyət nümayəndələri iştirak edir:** "Amerika-Azərbaycan münasibətləri bir çox məsələlərdə xəyal qırıqlığına uğradı. Cefferson konstitusiyanı yazarkən orada hər kəs bu qanun qarşısında bərabər tutulurdu. Lakin həmin vaxt onun 200 qulu var idi. Hazırkı dövrdə isə Martin Lüter Kinqin ölümündən sonra bir çox qanunlar qəbul edildi, ancaq dini, irqi problemlər qaldı. Eləcə də qaradərili ailələrin uşaq götürməsi ilə bağlı icazə 1996-cı ildə baş tutdu. Dərsliklərin böyük hissəsində qaradərililəri aşağılayan fikirlər qalmaqdadır. Bu seçim özü-özlüyündə onların ümumi durumuna təsir edir. Təəssüf ki, belə problemlər qalmaqdadır. Daxildə silah alışı davam etməkdədir. ABŞ-da 7 milyon müsəlman var. 11 sentyabr hadisələrindən sonra onlar qorxu içindədir. Qorxu bu gün hələ də davam edir".

**"Cəmiyyət üzərində total nəzarət sistemi: şəxsi həyata müdaxilə, ifadə və mətbuat azadlığının məhdudlaşdırılması" mövzusunda məruzəçi, CASCFEN sədri Azər Həsrət bildirib ki, ABŞ-la Azərbaycan strateji tərəfdaş olsa da, bir sıra təşkilatların Azərbaycana qarşı qərəzli yanaşmalarının şahidi oluruq:** "Ruzvelt tərəfindən İkinci Dünya müharibəsində senzura tətbiq edildi və bu senzuraya məktubların açılıb yoxlanılması daxil idi. Göründüyü kimi, bu, bilavasitə insanların hüquqlarının qorunmasına məhəl qoymayıb. Bu da onu göstərir ki, ABŞ-da heç də hər zaman hər şey yaxşı olmayıb. Barak Obamanın administrasiyası bütün dövlət qurumlarına WikiLeaks saytından istifadəni yasaqladı. ABŞ-da olan jurnalistlərin problemləri ilə bağlı heç bir jurnalist təşkilatı bəyanat vermir. Halbuki Azərbaycanda bir jurnalistin ifadəsi alınması üçün polisə çağırılanda Dövlət Departamenti bəyanat verir. Bu gün jurnalistlərin telefonları, kompüterləri tam nəzarət altındadır. ABŞ-ı tənqid edən jurnalistlər rahat şəkildə keçə bilmir. Ferqussonda əhali etirazlara başladı və keçirilən 8 günlük aksiya zamanı 52 dəfə jurnalistlərə təhdid olub".

**"Leqal korrupsiya və lobbiçilik-ABŞ siyasi sisteminin əsas elementlərindən biri kimi" mövzusunda məruzəçi, Dövlət İdarəçilik Akademiyasının professoru Elman Nəsirov isə ABŞ-ı korrrupsiyanı leqallaşdırmaqda ittiham edib. O deyib ki, ABŞ-dakı korrupsiya leqaldır:** "ABŞ-dakı universitetlərdən birinin professoru jurnalistlər qarşısında çıxışında korrupsiyanın leqal olduğunu bəyan edib. Mark Tven qeyd edirdi ki, Konqres sonuncu əclaf sinifdir. 1996-cı ilə qədər Azərbaycanı müdafiə edən konqresmen sonradan mövqeyini ermənilərin xeyrinə dəyişir. Sonradan məlum olur ki, o, seçki kampaniyası zamanı ermənilərdən pul alıb. Hətta səfir getmək üçün yerlər pulla satılır. Ən bahalı səfir postu isə Fransa və Monakodur, rəqəm 6 milyon dollar. ABŞ-da korrupsiya əslində leqal korrupsiyadır. 907-ci maddənin düzəlişi zamanı heç Azərbaycanın harada yerləşməsindən bəzilərinin xəbərləri olmayıb. Beləcə, leqal şəkildə mövqelər dəyişir. Uzağa getməyək, ABŞ-ın prezidenti Barak Obama prezident seçildikdən sonra onun senatorluq yeri boş qaldı. Onun yerində senator olmaq üçün külli miqdarda pul lazımdır. Bundan başqa, səfir vəzifəsinə getmək üçün 550-750 min dollar lazım imiş. Yəni burada vəzifələr böyük vəsait hesabına alınır. Bu, onu göstərir ki, ABŞ-ın siyasi sistemində olmaq üçün korrupsiyadan istifadə etmək lazımdır".

**"ABŞ-ın müstəqil siyasət yürüdən ölkələrə təzyiq vasitələri: İnsan hüquqları ilə manipulyasiya, rəngli inqilablar, hərbi müdaxilə və onların fəsadları" mövzusunda məruzəçi isə Prezident yanında Strateji Araşdırmalar Mərkəzinin direktoru Fərhad Məmmədov olub. O deyib ki, ABŞ-ın özündə Milli Demokratiya İnstitutuna birmənalı münasibət yoxdur. Onun sözlərinə görə, 2011-ci ildə qeydə alınan 10, 5 milyon qaçqın ABŞ-ın hərbi müdaxiləsi nəticəsində olub:** "SAM ötən il Azərbaycanda xarici ölkələrlə bağlı sorğu keçirib. Respondentlərin böyük hissəsi ehtiyat etdiyi üçün neytral mövqe bildirib. Azərbaycan ABŞ-ın müttəfiqlərinin müttəfiqidir, Türkiyə misalı. Dövlət başçısının 2003-cü ildə heç bir ölkənin Azərbaycana müdaxilə edə bilməyəcəyi ilə bağlı fikri bu gün də aktualdır".

**"Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ABŞ-ın mövqeyi: ikili standartlar siyasəti" mövzusunda məruzəçi deputat Musa Qasımlı isə deyib ki, soyuq müharibədən sonra Amerikaya etibar yoxdur. Bu da onunla bağlıdır ki, ABŞ ölkələrə ikili standartlarla yanaşır. Bu, Azərbaycana qarşı Amerikanın mövqeyində də özünü göstərir:** "ABŞ-ın Azərbaycana qarşı etdiklərində, o cümlədən Ermənistan-Azərbaycan məsələsindəki mövqeyində aydın görünür.



ABŞ Yuqoslaviya və Liviyaya qarşı BMT Təhlükəsizlik Şurasının qətnaməsini gözləmədən oranı bombardman edir. Bunu soruşmaq lazımdır ki, qətnamənin əleyhinə səs verən bir ölkənin oranı dağıtmasına nə cür ad verək? Terroru himayə edən Ermənistana rəğbətin səbəbi nədir? ABŞ separatçılara dəstək verməkdən çəkinmir. Hər il isə separatçı Dağlıq Qarabağ rejiminə maliyyə ayrılır. Bu nədir bəs?! ABŞ "erməni soyqırımını" tanıyır, amma Xocalı faciəsini qəbul etmir. Bu, ikili standartdır, riyakarlıqdır. ABŞ nə qədər bunu davam etdirəcəksə, o zaman dünya xalqlarının gözündən düşmüş vəziyyətdə olacaq".

**Deputat Qüdrət Həsənquliyev isə çıxışında qeyd edib ki, AzadlıqRadiosu Azərbaycan əleyhinə sifarişləri yerinə yetirib:** "ABŞ-la sözlə yaxınlaşmaq mümkün deyil. ABŞ 907-ci düzəlişi tətbiq elədi, işğalçıya deyil, işğala məruz qalanlara bu düzəliş tətbiq edildi. Bu gün də Azərbaycan ordusunun silahlanmasından əndişələnir və insan haqları adı altında təzyiqlər həyata keçirir. Hesab edirəm ki, kiçik məsələlərə görə Azərbaycan böyük güclərlə münasibətləri korlamamalıdır. Biz ölkəmizdəki bu əmin-amanlığı qoruyub saxlamalıyıq".

Digər deputatlar və hakimiyyətə yaxınlığı ilə tanınan şəxslər də çıxışlarında ABŞ-ın ünvanına sərt fikirlər səsləndiriblər.

ABŞ-ın Azərbaycandakı səfirliyinin bu dinləmələrə və Amerikaya qarşı ittihamlara münasibətini öyrənmək üçün səfirliyin rəsmi Mehdi Hüseynquliyevlə əlaqə saxladıq. M.Hüseynquliyev Bakıda ABŞ-la bağlı dinləmələrin keçirilməsindən səfirliyin məlumatlı olduğunu, dinləmələr keçirilməsinə və səslənən fikirlərə münasibət bildiriləcəyini dedi.

❑ **Etibar SEYİDAĞA**

# Bir lampalıq neft



**Xalid KAZIMLI**

**Dünya bazarında neftin qiymətinin ucuzlaşması nefti olmayan ölkələrin əhalisini sevindirir. Bu təbiidir. Ona görə ki, onlar hər gün istifadə etdikləri yanacağın gündən-günə bahalaşmasından qurtulurlar, dövlət büdcəsi bir tərəfə dursun, ailə büdcələri ziyana düşmür.**

Uzağa getməyək, Yaponiya, Çin, Çili, Madaqaskarla işimiz yoxdur. Öz regionumuzdakı 6 dövlətə baxaq. Bunlar Azərbaycan, Rusiya, İran, Gürcüstan, Türkiyə və Ermənistandır.

İlk üç dövlət neft hasil edən ölkədir və təbii olaraq neftin ucuzlaşmasından hər gün milyonlarla dollar ziyan görürlər.

Yerdə qalan üç dövlət isə nefti, yanacağı idxal edən ölkələrdir və neftin ucuzlaşması onlara sərf edir, bir neçə ay öncə ilə müqayisədə yanacağı yarı qiymətdən də ucuza alırlar.

Ona görə də hazırda nefti ucuz alan ölkələrin əhalisi beynəlxalq birjalardakı durumdan məmnundurlar. Bu ölkələrdə əhaliyə satılan yanacağın qiyməti enib və onlar istəyirlər ki, uzun müddət bu cür davam etsin.

Eyni zamanda Rusiya və İran əhalisi durumdan olduqca pərişandırlar. Dünya bazarında neftin ucuzlaşması onları az qala qırx arşın quyunun dibinə salıb.

Bu ölkələrdə insanların maddi durumu pisləşib, biznes layihələri dondurulub, ölkəyə axan neft milyonlarının (hətta milyardları) azalması dövlət büdcəsində kəsir, sıxıntı yaradıb və bu ölkələrin tərəqqisi tormozlanıb.

Bu üzdən İran və Rusiya əhalisi neftin ucuzlaşmasından narazıdırlar və qiymətləri süni şəkildə azaldan "imperialist qüvvələr"i yamanlayırlar.

Gördüyünüz kimi, bu altı dövlətin içində Azərbaycan müstəsna bir yerdədir. Əksər məsələlərdə olduğu kimi, neftin qiymətinin düşməsinə münasibətdə də biz haçalı mövqedəyik - yarı elə, yarı belə.

Əhalinin bir hissəsi əsas milli sərvətimizin dünyaya su qiymətinə satılmasından pəjmürdə olduğu halda, bir hissəsi də dövlət büdcəmizin 65 faizini təşkil edən gəlirləri verən neftin ucuzlaşmasından məmnundur.

Hətta bu məmnunluq peşəkar və sosial mediadakı qeydlərdə də öz əksini tapır. Dildə-ağızda isə ən təmkinli şərh bu cürdür: "Cəhənnəmə ucuzlaşsın. O neftin nə xeyrini gördük ki, ziyanı da bizi narahat eləsin. Neftdən gələn milyardları basıb yeyənlər narahat olsun".

Bəli, əhali kütləvi şəkildə əmindir ki, "neftdən gələn milyonlardan" ona bir qəpik də çatmayıb və neftin ucuzlaşmasına görə "milyardları basıb-yeyənlər" narahat olmalıdır.

Bu fikirlərdə müəyyən həqiqət olduğu qədər də yanlış qənaətlər var.

Birincisi, ölkədə gedən tikinti-quruculuq işlərinin əsas səbəbi məhz neftdən gələn böyük pullardır. Yoxsa son 10 ildə Bakıda bu qədər yol ötürücüsü, körpülər, tunellər, metro stansiyaları, keçidlər, möhtəşəm tikililər inşa oluna bilməzdi.

Heç kəs "tikilməsəydi" də deməsin. Bakının bu tikililərə böyük ehtiyacı vardı. Bunsuz olmazdı. Artıq şəhərdə xaos yaranmışdı və bizi, əslində, neftin dünya bazarında birdən-birə, gözlənilmədən, həm çox iti templə, həm də rekord səviyyədə bahalaşması xilas etdi.

Neft və ondan gələn milyardlar olmasaydı, ölkəni idarə edən məmur təbəqəsinin bəlli tamahkarlığı və səriştəsizliyi sayəsində ölkəmiz çöllərə daraşıb yeməyə böcək toplayan Zimbabve əhalisinin gününə düşərdi.

İndinin özündə neftin ucuzlaşması hələ ölkə əhalisinin rifahına öz mənfi təsirini göstərməyib, amma göstərməyə başlayanda çox pis olacaq.

Sanmayın ki, gününə 10 min, 100 min, 1 milyon qazanan şəxslər gəlirlərinin ikiqat azalmasından çox sıxıntı çəkəcəklər. Çəkməyəcəklər. Onların kifayət qədər ehtiyatları da var, itirdiklərinin yerini doldurmaq üçün əllərində inzibati rıçaqlar da var.

Nə zərbə dəysə, orta təbəqəyə, bir də gündə 10-20 manat qazanan kasıb təbəqəyə dəyəcək. Məhz onların ailə büdcəsi sıxıntıya məruz qalacaq, dolanışıqları çətinləşəcək, övladlarına lazımi səviyyədə təhsil verə bilməyəcəklər və s.

Bu baxımdan neftin hazırkı qiymətinə görə gürcülərə, ermənilərə qoşulub sevinənləri anlamaq çətindir. Neftin tonları, barelləri bizə çatmasa da, hər halda, hər kəsə bir lampalıq çatır. Onun qədrini bilək.

# İntihar körpüsündə özünü öldürmək istəyən adamın ürək dağlayan hekayəsi



# "Günahsız yerə 10 il həbsdə yatdım..."

## **Yusif Əmirov:** "Ayaqlarımdan asıb ayağımın altına vururdular, deyirdim öldürün, amma etmədiyim cinayəti boynuma alan deyiləm"

**Bakının məşhur intihar körpüsünə çıxanları bu addıma sövq edən müxtəlif səbəblər var. Həmin körpüdən keçənlərdən biri, 63 yaşlı Yusif Abbas oğlu Əmirovu dinlədikcə onun daha hündür məkandan niyə sözünü çatdırmadığını özlüyümdə aydınlaşdırmağa çalışırdım. Yusif Əmirov danışır, ağlayır, qollarındakı, sinəsindəki, ayaqlarındakı işgəncə izlərini göstərib ədalətli qərar istəyirdi...**

### "Mən o körpüyə çıxmazdan əvvəl çox qapılar döymüşdüm"

**"Hər gecə o dəhşətli günləri xatırlayıb mənə işgəncə verənləri, Allahın mənə verdiyi ömürdən silinən 10 ilimi xatırlayıram" - deyən Y.Əmirov gec-tez prezidentin onun iztirablarına son qoyacağını düşünür:** "Mən o körpüyə çıxmazdan əvvəl çox qapılar döymüşdüm. Heç kim məni dinləmədi. Etmədiyim cinayətə görə 10 illik həbs yatmışam. Naxçıvan məhkəməsindən barəmdəki hökmü bu gün də mənə vermirlər ki, şikayət edim, mənə əzablar, iztirablar yaşadanların cəzalandırılmasına nail olum. Ora çıxmazdan əvvəl uşaqlarımın gələcəyini tərəzinin bir gözünə, çəkdiyim ağrıları, əzabları, özümün, həyat yoldaşımın başına gətirilən müsibətləri o biri gözünə qoymuşam. O adamlar ki, mənim həyatımı sındırıblar, uşaqlarımı 10 il atasız qoyublar, mən o adamları son nəfəsimə qədər bağışlayan, bu işdən keçən deyiləm. Mən ailəmin namusunu müdafiə etmişəm və Şərurun polis rəisi olmuş Salman Vəliyev tərəfindən şərlənərək qanunsuz həbs olunmuşam. Naxçıvan prokurorluğunun müstəntiqi Ədalət Səfərov şərləndiyimi bilə-bilə qondarma iş aparıb. Naxçıvan prokuroru Fikrət Qəribov mənim işgəncələrə məruz qalmağıma göz yumub, qanunsuz həbsimə şərait yaradıb. Hakim Elman Yəhyayev günahsız olduğumu bilə-bilə mənə 14 illik cəza oxuyub. Bu adamlar cəzalarını bu dünyada almalıdırlar".

### "Məcburuq ki, ailəliklə gedib Qız qalasında intihar edək"

**Y.Əmirov hazırda Bakıda kirayədə yaşayır. Deyir ki, həmin gün, 31 iyul 2014-cü ildə şikayətinə növbəti şablon cavabı alıb və qərar verib başına gələnləri prezidentə "Koroğlu" metrosu yaxınlığındakı körpünün üzərinə çıxaraq çatdırsın:** "Prezidentə yazıram, göndərirlər prokurorluğa. Eyni cavabı köçürüb göndərirlər. Körpüyə çıxıb sözümü çatdırmaq istəyirdim. Düşünürdüm ki, eşitməsələr özümü elə orada yandırım. Ancaq Fövqəladə Hallar Nazirliyinin işçiləri məni razılığa gətirdi. Dedilər ki, "körpüdən düş, sənin şikayətlərinə dəqiq və düzgün baxılacaq". Mən də inandım. Deputat Qənirə Paşayevanı da ona görə çağırdım ki, ona inamım vardı. Sözümü ölkə rəhbərliyinə çatdıracağına ümidliydim. Ancaq indi şikayətim yenə də baxılmaz qalıb. Üstəlik, məni guya psixi xəstə kimi xəstəxanaya da salmaq istəyirdilər. Əgər şikayətlərimə baxılmasa, biz məcburuq ki, ailəliklə gedib özümüzü Qız qalasında yandıraq".

### "Polis rəisi arvadıma söz atıb..."

**Y.Əmirov deyir ki, 4 övladı var:** "1992-ci ildə atamla anam ortancıl oğlum Əfqana Bərdənin Vaqif küçəsi 77 ünvanında 4 otaqlı həyət evi bağışladı. 4 il sonra Bərdədə olan evimizi 7 min dollara satıb Bakıya köçmək qərarına gəldik. O pulla Füzulidən, İmişlidən yun alıb Şərura aparıb türklərə satırdım. Fikrim belə idi ki, 7 min manatı artırım və Bakıda yaxşı ev alım. Ailəmlə müvəqqəti qayınanamgildə qalırdıq. Mənim balaca bibim Kəhrəba Əmirova Şərur polisində 40 il süpürgəçi işləyib. Polislərin otaqlarının açarları bibimdə olurdu. Bir gün Şərur Polis Şöbəsinin rəisi Salman Vəliyev bibimgilə açar almağa gələndə mənim yoldaşıma söz atır, yoldaşım cavabını verir. Mən Naxçıvanda olmayanda bir neçə dəfə bibimgilə zəng vurub yoldaşımı telefona çağırtdırıb, bunlar da Salman Vəliyevə söyüb telefona "adboy" veriblər. Bir dəfə də mən evdə olanda Salman bibimgilə zəng vuranda telefonu mən götürdüm. Onu söydüm. Salman dedi, gör səni nə günə salacam. 1997-ci ilin avqustunda Şərurdan 4 polis işçisi gəlib İmişlidə məni camaatın içində aldadıb dedilər ki, "sən Şərurda bir adamdan Türkiyə xalçası alıb gətirib yuna dəyişmisən. Onu satan adam oğurlayıb sənə satıb. Gedək Naxçıvana, ona denən mən sənə pul verdim aldım, mən bilmirdim o xalçalar oğurluqdur. Bunu de, qayıt gəl işinə". Naxçıvana çatan kimi məni apardılar saldılar türməyə. 10-15 polis və türmənin "nadzor"ları əllərində dubinka ilə məni vəhşicəsinə döydülər. Ağzım-burnum qan içində, sifətim pis gündə idi. Deyirdilər ki, 1 il bundan qabaq Heydəri sən öldürmüsən. Heydəri tanımadığımı deyirdim, qulaq asmayıb məni vururdular".

### "Heydər, onun ölümü haqda bildiyim budur ki..."

**Y.Əmirov deyir ki, Heydər Bayram oğlu Rüstəmov həqiqətən də öldürülüb. Amma bunu edən şəxs istintaqdan kənarda qalıb:** "Heydər, onun ölümü haqda bildiyim budur ki, o, cavan oğlan olub. Yeyib-içib və Şərurda bir kafedə dava salıb, kafenin şüşələrini sındırıb. Kafenin işçiləri onu döyüb yola salıblar. O həmin kafedən 1 kilometr aralıda yerləşən kənddəki evlərinə gedib çatana qədər kafenin sahibinə söz çatıb. Həmin adam da gedib onu maşınla vurub bir kənara tullayıb. Onu tutub pulunu alıb buraxmışdılar. Şərurda maşını olan və kasıb, vəzifədə qohumu olmayanları aparıb incitmişdilər. Onları Heydəri öldürməkdə ittiham edəcəkləri ilə qorxudub pullarını alıb buraxmışdılar. Bu işin başında həmin o Salman Vəliyev dayanıb. O, sonda Heydərin ölümünü mənim boynuma qoydurdu".

### "Yoldaşımı da gətirib türməyə saldılar..."

**Y.Əmirov deyir ki, ona tələ qurulduğunu Naxçıvana gətiriləndən sonra anlayıb:** "Məni qan içində görən Salman Vəliyev hamının yanında dedi "indi gördün sənə nə cür tələ qurdum?!" Onu söydüm. Dedi ki, arvadını da gətirib içəri salacağam. Məni hər gün döyürdülər, deyirdilər ki, Heydəri öldürdüyünü boynuna al. Allaha, Qurana and içirdim ki, mənim həmin işdən xəbərim yoxdur. Bir neçə gündən sonra yoldaşımı da gətirib türməyə saldılar. Yoldaşıma dedilər ki, "Yusifin üzünə dirən, de ki, Heydəri o vurub öldürüb". Mənə deyirdilər ki, arvadın bunu deməsə dustaqları buraxacayıq onun üstünə, onda neyləyəcəksən? Məni gecə-gündüz yatmağa qoymurdular. O qədər döyürdülər ki, huşumu itirirdim. Ayaqlarımdan asıb ayağımın altına vururdular. Deyirdim, öldürün, amma etmədiyim cinayəti boynuma alan deyiləm. Əllərimə qandal vurub məni turnikdən asırdılar. Məni həmişə kameradan çıxarıb aparıb rəisin otağının arxasında işgəncə verirdilər. Məni döyüb işgəncə verdikləri yerin qabağında zəncirdə yekə bir "ovçarka" var idi. Adı Maykl idi. Bunlar məni döyəndə it az qalırdı zənciri qırsın, mənə köməyə gəlsin. Həmin günlərdə yoldaşım da orada bağırtılarımı eşidirdi. Əlimə fürsət düşən kimi qollarımı, sinəmi doğradım. Düşündüm ki, məni bir dinləyən olar, yoldaşımı buraxarlar. Yoldaşımı 12 gün təcridxanada saxlayıb sonra buraxdılar..."





### "Sənin "zakaz"ını Salman Vəliyev verdirib"

**Y.Əmirov deyir ki, Naxçıvan Prokurorluğunun müstəntiqi Ədalət Səfərov ona qarşı işin qondarma olduğunu bilə-bilə qanunsuzluq edib:** "Ədalət Səfərova deyirdim ki, sənin balan, ailən yoxdu? Niyə məni döyüb, işgəncələr verirsiz? Niyə bu ölümü mənim üstümə yıxırsız? Dedi ki, mən nə edim? Sənin "zakaz"ını Salman Vəliyev verdirib. Deyirdi ki, səni tutmasam işdən çıxmalıyam. Günahsız olduğumu bilə-bilə Ədalət Səfərov ailəmdən 3 min dollar tələb etmişdi. Yoldaşımı aldadıb 2 min dolları almışdı. Saxta iş hazırlayıb Şərur Məhkəməsinə göndərdi. Naxçıvanda hamı bilirdi ki, Salman məni günahsız yerə tutdurub".

### "Ölən Heydərin bacısı günahsız olduğumu..."

**Y.Əmirov deyir ki, 1998-ci ildə qəsdən adam öldürmə ittihamı ilə işi Şərur Məhkəməsinə göndəriblər:** "Məhkəmənin sədri İsfəndiyar müəllim də Şərur camaatı kimi mənim şərlənərək həbs edildiyimi bilirdi. O mənə demişdi ki, Yusif, narahat olma, mən hər şeyi yaxşı bilirəm, günahsız olduğun üçün sənə iş verməyəcəyəm. Sədr deyirdi ki, bu ölüm 1 il bundan qabaq avtoqəza kimi gedirdi. Nə oldu, indi də bir qəribin üstünə atıblar. Məni apardılar məhkəmə zalına. Zalda çox sayda insan oturmuşdu. Hakim məni sorğu-sual etməyə başladı. Yalançı şahidlər hərəsi bir söz danışdı. Zaldakı insanlar dedilər ki, Salman və polislər çöldə bunları öyrədib içəri salıblar. Ölən Heydərin bacısı günahsız olduğumu məhkəmə zalında yəqinləşdirdi və anasına dedi ki, dur çıxaq gedək. Onun "Salman yalandan onu-bunu öyrədib bu yazığın üzünə durdurur" sözlərini də hamı eşitdi".

### "Vəkilimə hədə-qorxu gəldilər..."

**Y.Əmirov deyir ki, vəkilinə hədə-qorxu gələrək prosesdən uzaqlaşdırmasına nail olublar:** "Məhkəmə gedən günlərdə Salman gecəyarısı vəkilim Cəmilə xanımın evinə gedərək onu qorxudub. Deyib Yusifin məhkəməsinə getsən, özünü ölmüş bil. Səhəri gün vəkil işdən qaçdı. Bir neçə gündən sonra məhkəmənin sədri İsfəndiyar müəllim mənə dedi, mən səni bu dəqiqə buraxardım, ancaq Salman deyəcək Yusifdən nə qədər pul aldısa buraxdı. Ona görə işi göndərirəm təkrar istintaqa. Məni Naxçıvana aparıb bir neçə aydan sonra Şərura qaytardılar. Artıq işə hakim İsmayıl müəllim baxırdı. Mənə dedi, səni sabah buraxacam. Sabah Salman ölənin anasını öyrətdi ki, ixtiyarın var, məhkəməyə de ki, mən sizə inanmıram, işi göndərin Naxçıvana. Yenə məni apardılar Naxçıvana. Orada tələb etdim ki, məni Naxçıvan prokuroru Fikrət Qəribovun qəbuluna aparsınlar. Qəbulunda Fikrət müəllimə dedim ki, mənim günahım yoxdur, bu ölümü yalandan mənim üstümə atırlar. O isə mənə cavab verdi ki, "Kişi deyilsən? Get 1-2 il yat içəridə, qarşıdan amnistiya gəlir, səni amnistiyaya salıb buraxdıracam. Ona dedim ki, gəl gedib içəridə birgə oturaq. Elə orada "nadzor"lara dedi ki, "siz bunun dərsini yaxşı verməmisiniz, aparın dərsini yaxşı verin". Türmənin işçiləri yenə də məni aparıb döydülər. Mənə o qədər işgəncələr vermişdilər ki, Naxçıvan türməsində infarkt keçirdim, ağ ciyərimi vurub deşdilər. Vərəm xəstəliyi keçirdim, 8 ay xəstəxanada müalicə aldım və yenə də müalicə alıram".

### "Salman Vəliyev hakim axtarırdı ki..."

**Y.Əmirov deyir ki, hakimlərin işə qol qoymaması S.Vəliyevin planlarını alt-üst edib. Amma nəhayətdə istədiyinə nail olub:** "Salman Vəliyev respublikada nə qədər hakim axtardı ki, bu saxta, qurama, böhtanla hazırlanmış cinayət iş ilə mənə iş verdirsin. Düzgün insanlar bu işə girmədi. Axırda Ordubad məhkəməsinin sədri Elman Yəhyayevi tapıb pulunu verdi. İşi elə aparmaq lazım idi ki, saxta sübutlarla mənə iş verilsin. 1998-ci ilin iyunun 1-də Ordubadda Elman Yəhyayevin sədrliyi ilə məhkəmə başladı. Ölü yiyəsinin anasını, bacısını öyrədiblər ki, Yusifin yoldaşı ilə dalaşın, mən onu qoyum içəri. Yoldaşım içəri girəndə ölənin anası, bacısı yoldaşıma əl-qol atdılar. O dəqiqə hakim polislərə əmr verdi ki, aparın salın "KPZ"yə. Bunu ona görə etdilər ki, yoldaşım üzümə yalandan duran adamları görməsin. 18-20 yaşında olan iki bacanağımı, qayınanamı, qonşuları, balaca baldızımı üzümə qoydular. Elə orada saxta məhkəmədən imtina etdiyimi bəyan elədim".

### "Yoldaşım isə 3 ay Ordubadda "KPZ"də qaldı"

**Y.Əmirov deyir ki, Vera adlı vəkili də onu şərləyənlərin tərəfinə keçib və sonda hakim Elman Yəhyayev günahı olmadığı halda ona 14 il cəza verib:** "Hökm verilən gün məni təyyarə ilə Bakıya, Şüvəlan İstintaq Təcridxanasına köçürdülər. Yoldaşım isə 3 ay Ordubadda "KPZ"də qaldı. Sonradan bildim ki, hakim Elman Yəhyayev onun azad olunması üçün 5 min dollar alıb. 6 ay sonda sənədlərini qaytarıb ki, Bakıya şikayətə gələ bilməsin. Mən Şüvəlana getdiyim gündən aclığa başladım. Təcridxanaya prokuror Zakir Dursunov gəlib izahatımı aldı, başıma gələnlərə qulaq asdı. Dedi ki, başıma gələnləri özü yazacaq. O da məni aldatdı. Özü bir qələmlə şikayətimi yazdı, mənə başqa qələmlə qol çəkdirdi. Sonra bildim ki, o da məni aldadıb. Məni 4 aydan sonra Şüvəlandan 14-cü "zon"a apardılar. 10 il günahsız olaraq cəza çəkdim".

### "Elman Yəhyayev məni görüb rəzil oldu..."

**Y.Əmirov onu 14 illik həbsə göndərən hakimlə azad ediləndən sonra rastlaşıb:** "Bir gün hava limanına sərnişin apardım. Qayıdanda gördüm ki, Elman Yahyayev taksi gözləyir. Onu və yanında olanı götürdüm. Ondan soruşdum ki, mənim balalarımı nəyə görə 10 il yetim qoydun. Dedi, sənə günahsız yerə iş verdim, Allah da mənə cəza verib. İşim, varım-dövlətim əlimdən gedib. İndi Şamaxinkada kirayədə yaşayıram".

Y.Əmirov deyir ki, onu şərlədərək həbs etdirən Salman Vəliyevlə də qarşılaşıb və onu tanıyan kimi sabiq rəis qaçıb.

### "Anamın ürəyi partladı, öldü, atam özünü öldürdü"

**Y.Əmirov deyir ki, qanunsuz həbsi, özünün və həyat yoldaşının başına gətirilən müsibətlərə ana-atası dözməyib:** "2001-ci ildə anamın ürəyi partladı, öldü. 2003-cü ildə atam 2-ci mərtəbədən özünü atıb öldürdü. Həbsdən 2007-ci ildə buraxıldım. Bu gün mən həyatı sındırılmış, ağır xəstəliklər tapmış Azərbaycan vətəndaşıyam. Ümidim prezidentədir. Özüm infarkt keçirmişəm, şəkər xəstəsiyəm, Polislər döyən zaman ağ ciyərim zədələndiyi üçün türmədə ağır xəstəlik keçirmişəm. Hazırda da imkanım daxilində müalicə alıram. Müalicəm dayanan kimi ağzımdan qan gəlir, vəziyyətim ağırlaşır".

### "O adamlar qanun qarşısında cavab versinlər"

**Y.Əmirov prezidentdən kömək istəyir:** "Mənim həyatımı puç edən, mənə və ailəmə, uşaqlarıma 17 ildə acı yaşadanlar Azərbaycan dövlətinin qanunu qarşısında cavab versinlər. Ayaqlar altında tapdalanan hüquqlarımız bərpa olunsun və o adamlar qanun qarşısında cavab versinlər".

❑ **E.MƏMMƏDƏLİYEV**

# Fransanı qana boyayan karikaturanın tarixi

## İmperatoru piyli donuz kimi təsvir edənlər... niyə imzalarını gizli saxlayıblar?




**Karikatura qalmaqalı dünya üçün son 10 günün ən aktual mövzularından biridir. Buna görə Parisdə baş verən qanlı terror, ardınca dünya miqyasında buna etiraz sənətin bu növünə diqqəti artırdı. "Yeni Müsavat" da mövzunun aktuallığını nəzərə alıb, karikaturanın tarixi, dünya karikatura sənətinin inqilabi dönəmi ilə bağlı bir dosye hazırladı.**

### Qədim Romada xalq imperatorla razılaşmayan kimi divara karikatura çəkib

Öncə ondan başlayaq ki, karikaturaların kökü Misir fironlarını tənqid edən rəsmlərə gedib çıxır. Hələ qədim Romada imperatorun bu və ya digər qərarı ilə razılaşmayan xalq öz münasibətini satirik rəsmlərlə, şəhər divarlarına çəkilmiş karikaturalarla bildirirdi. Yəni karikatura tarixin sınağından çıxmış sənət növüdür. O, təsviri sənətin tərkib hissəsi, həm də jurnalistikadır.

Karikatura renesans dövrünün uğurlarından sayılır. "Karikatura" sözünün özü isə italyan dilindən törəyib, mənası şişirtmə deməkdir. Dünya incəsənətində ilk karikaturalar Aqostino Karraçe və ya Lorenso Berninin müəllifliyi ilə üzə çıxıb. Onların karikaturaları kiçik bədənlərdə böyük başların təsviri ilə özünü göstərir. Amma bu incəsənət sürətlə Hollandiya və Almaniyada yayılmağa başlayıb. Karikaturaların ilk mövzusu isə islahat tərəfdarları və əleyhdarları arasındakı mübarizəni özündə əks etdirib. Tarixdə karikaturalar daha çox siyasi janrda özünü göstərib, hakimiyyət gülüş hədəfinə çevrilib. Məsələn, Fransa inqilabı zamanı karikaturalardan birində 16-cı Lüdovik piyli donuz kimi təsvir edilmişdi. Karikaturada bu donuzun bişirilməyə hazır vəziyyətə gəlməsi, Lüdovikin həyat yoldaşı Mariya Antuanetta isə pantera və canavar kimi əks olunmuşdu.

### Karikaturaçılar imzalarını gizli saxlayıblar

Maraqlıdır ki, karikatura məhz Fransa inqilabı zamanı çiçəklənib. Amma həmin vaxt populyarlaşan karikatura ustaları bir qayda olaraq imzalarının anonim saxlanmasına çalışıblar.

Heç şübhəsiz ki, karikaturanın tarixini senzuranın tarixindən ayrı götürmək olmaz. 16-cı əsrdən başlayaraq, bir çox Avropa ölkələrində böhtan xarakterli bəzi yazılar, incəsənət əsərləri ilə bağlı qadağalar tətbiq olunub. Fransada baş senzor kitabxana direktoru və Ədliyyə Nazirliyindəki möhürə cavabdeh şəxs sayılıb. Amma Fransada senzuranın ləğvi tarixi 1789-cu ilə təsadüf edir. Bununla yanaşı, tam azadlıq o qədər də uzun çəkməyib. 1791-ci ilin iyulunda hökumət əleyhinə yazıların, hər hansı karikaturaların yayımına qadağa qoyub.

19-cu əsrdə isə karikatura İngiltərədə geniş yayılıb. Həmin dönəmdə kral hakimiyyəti incəsənətin bütün sahələri ilə həssaslıqla maraqlanıblar. Orada karikaturanın çiçəklənməsi anti-Napoleon təbliğatı dönəminə təsadüf edir ki, Böyük Britaniya hakimiyyəti də bunu dəstəkləyir. Orada Ceyms Hilrey və Tomas Roulendson adlı iki karikaturaçı gözlənilməz bir səviyyə nümayiş etdirir. Onların kompozisiyaları fantastikadan pornoqrafiyaya qədər bir çox sahələri əhatə edir.

### Napoleon əmr edib - onlara qarşı amansız olun!

1812-ci ildə Napoleonun Rusiya ilə savaşı dönəmində karikaturadan fəal surətdə siyasi silah kimi istifadə olunurdu. Bu silah həm cəmiyyətdə, həm də orduda qorxu yaradırdı. Napoleon karikaturaçı rəssamlara qarşı amansız olmağı əmr etmişdi. Onun üçün karikaturaçı rəssamla insan qatili arasında heç bir fərq yox idi. Rusiya Napoleonla savaş dönəmində bu amildən çox yaxşı istifadə etmişdi. Fransız ordusuna, onların sərkərdəsinə qarşı aktiv karikatura kampaniyası aparılırdı. Napoleonun ciddi fiziki zəiflikləri vardı. Rus karikaturaçıları bundan istifadə edib onunla yaxşıca məzələnmiş və bununla da orduda əsgərlərin ovqatını, döyüş əhval-ruhiyyəsini qaldırmışdılar. Rəssamlar nifrət etdikləri bu adamın fiziki qüsurlarını amansızcasına qabardır, onu karikaturalar vasitəsilə alçaldırdılar. Bu prosesi lap yüksək səviyyəyə çatdırmaq üçün rus ordusunun komandanı Mixail Kutuzov öz qərargahında tipoqrafiya yaratmışdı. Burada karikaturalar çoxaldılaraq bütün əsgər və zabit heyətinə paylanılırdı.

### Azərbaycanda karikatura tarixi 20-ci əsrdən başlanıb

Azərbaycan karikatura məktəbinin ən tanınmış siması rəssam Əzim Əzimzadədir. O, alman rəssamı Oskar Şmerlinqlə birlikdə XIX əsrin əvvəllərindən Tiflisdə nəşr olunan "Molla Nəsrəddin" jurnalında çalışmışdı. Savadsızlığın hökm sürdüyü həmin dönəmdə yazı-pozu anlamayan avam camaat "Molla Nəsrəddin"də çıxan karikaturalara baxaraq düşdükləri miskin vəziyyəti anlamağa başlayırdı. Dini mövhumat, siyasi savadsızlıq, cəhalət, yoxsulların varlılar tərəfindən amansız istismarı mövzusunda çəkilmiş karikaturalar o zaman çox populyar təbliğat vasitəsi olaraq avam camaatın ürəyinə yol tapırdı. Və bu karikaturalar sonradan bir çox insanın savadlanmasında, onların gözünün açılmasında öz rolunu oynamış oldu.





"Molla Həsrəddin" jurnalının az vaxt ərzində məşhurlaşmasında "Mollanəsrəddinçi" rəssamların xüsusi rolu olmuşdu. Azərbaycanda karikatura sənətinin tarixi XX yüz ilin əvvəllərinə təsadüf edir. Jurnal 1906-cı ildə nəşrə başlayandan sonra Azərbaycanda karikatura sənəti yaranmağa və inkişaf etməyə başladı. "Molla Həsrəddin" jurnalı məhz Təbrizdə çıxan dövrdə karikatura sənəti İranda intişar tapdı. Həyatın eybəcərliklərinin komik şəkildə təsviri, insanın daxili eybəcərliklərdən islah edilməsi istəyi karikatura sənətinin başlıca tələblərindəndir.

İlk "Molla Həsrəddin"çi rəssamlardan biri olan alman rəssamı Oskar Şmerlinqin jurnalın populyarlaşmasında mühüm xidmətləri var.

Cəlil Məmmədquluzadə "Molla Həsrəddin" jurnalının nəşrinə başlayarkən Azərbaycanda peşəkar satirik rəssam olmadığı üçün jurnala rəsm çəkmək işinə ilk növbədə Tiflisdə yaşayıb yaradan alman rəssamı Şmerlinqi dəvət edib. Şmerlinq Cəlil Məmmədquluzadənin təklifini təmənnasız surətdə qəbul edib. O.Şmerlinq 1906-1917-ci illərdə "Molla Həsrəddin" jurnalının əsas rəssamlıq funksiyasını bacarıqla yerinə yetirib. "Molla Həsrəddin" jurnalının aparıcı ideyalarını əks etdirdiyindən onun rəsm əsərləri əksər hallarda jurnalın birinci səhifəsində, yəni üz qabığında özünə layiqli yer tapıb. Milliyyətcə alman olmasına baxmayaraq Oskar Şmerlinq Azərbaycan mühiti və mənşəyini, azərbaycanlıların həyatını və psixologiyasını dərindən öyrənib.

### Tarix boyu senzuranın caynağına ilişmiş karikaturaçılar barədə bilmədiklərimiz

Şmerlinqin nadir fırçasının məhsulu olan "Sizi deyib gəlmişəm", Qafqazda mədrəseyi-ruhaniyyə", "Hiyə məni döyürsünüz?", "Molla Həsrəddin", "İran sərhədindən", "Xabi-qəflət", "Müsəlman məclisində rus zabiti", "Məhəmmədəli şahın Təbrizdən çıxması" və s. kimi yüzlərlə satirik rəsmləri sözün geniş mənasında karikatura sənətinin şah əsərləri səviyyəsinə yüksəlib.

Qeyd edək ki, "Molla Həsrəddin" jurnalının ilk sayının üz qabığındakı məşhur karikaturanın müəllifi Oskar Şmerlinqdir. O, həm də "Molla Həsrəddin"in bədii obrazını yaratmaqla bu obrazın təkcə Azərbaycanda deyil, bütün Şərq aləmində qəbul edilməsinə nail olub.

❑ **Sevinc TELMANQIZI**

---

# İŞİD-in iki hədəfi - neft buruqları və redaksiyalar...

## Qabil Hüseynli: "Azərbaycanda onlara simpatiyası olanlar var və lazım gəlsə, tapşırıq yerinə yetirərlər, Səudiyyə Ərəbistanının ölkəmizdə əlaqələri zəiflədilməlidir"



**Dünya terror şəbəkəsi olan "İslam dövləti" artıq iki müstəvidə təhdidə başlayıb. İŞİD qüvvələri neft buruqlarını partlatmaq və medianı məhv etməklə dünyanı qorxutmağa başlayıb. Fransada jurnalistlərin qətli, Azərbaycanda isə neft buruqlarının məhv ediləcəyi haqda səslənən hədələr belə düşünməyə əsas verir.**

Belə fikirlər səslənir ki, İŞİD Azərbaycana ayaq basıb. Hətta Türkiyə mətbuatı da MTN-in keçirdiyi əməliyyatları nümunə gətirib ölkədə təhlükəsizlik tədbirləri görülməyə başladığını yazıb. Bəs Azərbaycanda terror üçün hansı nöqtələr həssasdır və İŞİD-in hədələri reallaşa bilərmi?

Suallarımızı cavablandıran **politoloq Qabil Hüseynli** hesab edir ki, İŞİD-in Azərbaycanla bağlı planlarının olması haqda xəbərlər çox şişirdilib. Siyasi şərhçinin sözlərinə görə, terrorçu qüvvələrin neft buruqlarına, redaksiyalara hücumu ehtimal edilə bilər:

"Ancaq bunun mümkünlük dərəcəsi çox aşağıdır. Çünki Milli Təhlükəsizlik Nazirliyi tərəfindən İŞİD-ə qoşulanlar həbs edilir və nəzarətə alınır. O baxımdan İŞİD-in Azərbaycanda mühüm obyektlərə zərbə endirməsi imkanı yoxdur və deyilənlərə blefdir. Sadəcə, terrorçu təşkilat savadsız adamları cəlb etmək üçün bu metodlardan istifadə edir".

**Q.Hüseynli deyir ki, dünya anti-İŞİD koalisiyası mübarizəni gücləndirib, hərbi qüvvələrin sayını artırıb:**

"Bu mənada İŞİD-in əsas qüvvələrinin məğlub edilməsi uzun çəkməyəcək. Onlar hər gün daha çox itki verir və qüvvələr arasında artıq rabitə pozulub. Eyni zamanda aviazərbələr endirilir, quru qoşunlar da bu mübarizəyə qatılacaq.

Azərbaycana qarşı təbii ki, müəyyən qüvvələrin fəaliyyəti var. Bunların arasında İŞİD-ə simpatiyası olanlar da var. Onlar lazım gəlsə, İŞİD-in verdiyi tapşırığı yerinə yetirərlər. Ancaq onların iqtisadi imkanları çökdürülür".

**Analitik əsas diqqəti vəhhabilərə yönəltməyi vacib sayır:** "Onlar Azərbaycanda ciddi iqtisadi şəbəkə qura biliblər. Bu şəbəkə hesabına müxtəlif ticarət nöqtələrini ələ keçiriblər. Ona görə də əsas diqqət vəhhabilərə qarşı yönəldilməlidir.

Onların həm leqal, həm qeyri-leqal fəaliyyəti sıradan çıxarılmalıdır. Bundan sonra kiçik cərəyanların neytrallaşdırılması işləri aparılmalıdır. Burada əsas rolu Səudiyyə Ərəbistanı oynayır. Vəhhabi ideyasının yayılması üçün böyük maliyyə vəsaitləri ayırır. Onlar da maddi vəsaitlərdən gen-bol istifadə edirlər. Səudiyyə Ərəbistanının Azərbaycanda əlaqələri zəiflədilməlidir. Ola bilsin ki, dövlətin içində dindar kəsimdən Səudiyyə Ərəbistanının təsiri altına düşən var. Ancaq dövlət güclüdür və imkanlardan istifadə edilməlidir. Hələ ki onlar güclü potensiala malik deyil, bəziləri yenicə bu yola qədəm qoyublar. Şiə ölkəsində həm dindar kəsim, həm hüquq-mühafizə orqanları, həm ictimaiyyət çəkici bir yerə döyməlidir. Əsas yük hüquq-mühafizə orqanlarının üzərinə düşür və peşəkar iş qurulmalıdır".

❑ **E.SALAMOĞLU**



# Adam harada rahatlanar?..

Hüseynbala SƏLİMOV

**Bəli, cəmiyyət sevinə bilər, Tarif Şurasının qərarı geri oxundu, benzin bahalaşmadı... Amma bu sevinc çoxmu çəkəcək? İnanmırıq. Qiymətlər onsuz da "üzür". Əgər "üzür"sə, bunun bir sahili də olmalıdır.**

Amma indi cəmiyyətin əlində sevinmək üçün xeyli əsas var- söz sözdür və hökumət qiymətləri total qaldırmamaqda israrlıdır. Nə deyə bilərik? Tanrıdan yalnız onlara kömək arzulayırıq...

O ki qaldı cəmiyyətimizə, onu sevindirmək yetim uşağı sevindirmək qədər asandır. Yetim uşağı necə sevindirirlər? Əvvəlcə papağını alırlar, ağlamağa başlayandan sonra papağı qaytarıb başına qoyurlar, uşaq da sevinir...

Bizim cəmiyyətimiz də belədir. Maraqlıdır, Tarif Şurasının qiymətlərin qalxmayacağı haqda ən yüksək səviyyədə verilən sözdən xəbəri yox idimi? Axı telekanallar az qala hər gün bağırırdılar ki, Azərbaycan sabitlik adasıdır, düzü-dünya dağılsa da burada hər şey qaydasında olacaq...

Nə isə. Ola bilsin, onlar televiziyaya baxmırlar. Yəqin vaxtları yoxdur. Yazıqlar millət üçün o qədər çalışır, o qədər işləyirlər ki, ölkədə deyilənlərdən və tapşırılanlardan xəbərləri belə olmur...

Qərəz, cəmiyyətin sevinmək üçün əsası çoxdur. Qərarın geri oxunması ola bilsin, özbaşına qiymət artıranlara da bir dərs olacaq, onlar da öz qərarlarının istiqamətini dəyişəcək, onları geri oxuyacaqlar...

Ona görə də cəmiyyət sevinməsin, nə etsin? Bizim bəxtimizə dünyanın ən qəhrəman, ən rəhmli və ən humanist hökuməti düşüb. Buna sevinərlər, ya sevinməzlər? Buna oynayarlar, ya oynamazlar? Əlbəttə ki, həm sevinərlər, həm də oynayarlar...

Elə bizim cəmiyyətimiz də belə edir - bir oynayır, bir şənlənir ki, gəl, görəsən... Adamın yadına lap "O olmasın, bu olsun"dan bir detal düşür. Əgər yadınızdadırsa, orada bir sual verirlər: adam harada rahatlanar?...

Hamı da bir ağızdan deyir ki, əlbəttə ki, hamamda! İndi bizim cəmiyyət də elə bir ağızdan soruşur ki, adam düzü-dünyanın dərd-sərindən, inflyasiyasından və yaxud da deflyasiyasından, qıtlığından və kasadlığından qaçıb harada rahatlıq tapar? Hamı bir ağızdan deyir ki, əlbəttə, Azərbaycanda!

İndi başınıza dönüm, özünüz deyin, belə cəmiyyətdən, belə hökumətdən və belə ölkədən harada var?

Burada Günəşin çıxmasına sevinməyəsən, nə edəsən? Burada səhərin açılmasına şadlanmayasan, nə edəsən? Burada axşamın düşməsinə, yatmaq vaxtının yetişməsinə ürəkdən həmd eləməyəcən, bəs, nə edəsən? Və nəhayət: bizə günəşli günlər, aydın səhərlər və rahat gecələr bəxş etdiyinə görə bu hökumətə "sağ ol!" deməyəsən, bəs, nə deyəsən?!

Sonra da deyirlər ki, bizim cəmiyyətimiz elədir, belədir... Vallah, bizimkilərdən heç yerdə yoxdur - su istəmir, çörək tələb etmir, seçkiyə getmir, kimə səs verməsi ilə maraqlanmır, iş istəmir... Bundan gözəl cəmiyyət ola bilərmi?

Aranı qarışdıran 80-ci illərdən qalmış bir-iki müxalifətçidir. İnşallah, onlar da yola salınandan, "pensiya"ya göndəriləndən sonra bu cəmiyyət olacaq bal-şəkər! İstəyirsən, lap qənd yerinə onu dişlə...

Bir Mirzə Cəlil vardı. O da oturub-durub elə bu millətin fikrini çəkirdi. Ona vaxtında dedilər ki, sən get, öz dərdinə çarə tap, bizim millətdən, cəmiyyətdən yaxşısı yoxdur!.. Deyirdi ki, guya biz təhsilə-elmə həvəs göstərmirik. Budur, indi hamımızın savadı olmasa da, diplomu var! İndi sözün nədir?..

Qərəz, bizdən yaxşısı yoxdur... Deyilənə görə, bir psixiatr olub, Ziqmund Freyd. Həmin o təbib deyibmiş ki, guya psixoloji patologiyalar təkcə fərdlər üçün xarakterik deyil, yəni ki, guya onların kollektiv formaları da olur və bəzi cəmiyyətlər belə mərəzlərə tutulurlar...

Əşi, o Freydə demək lazımdır ki, sən get, öz yəhudilərinin dərdini çək! Bizimlə işin olmasın, qoy, öz həkimlərimizlə şad-xürrəm yaşayaq, dövran sürək!..

Həm də bizim ki, hökumətimiz var ha, bax, o, bizim həm müəllimimizdir, həm həkimimiz, həm də müdirimiz... Biz yalnız onlara inanırıq və iman gətiririk ki, işlərimiz daha da yaxşı getsin...

Qərəz, bu cəmiyyətdən olmaz. Ona görə ki, hələ heç kim deməyib ki, palaza bürün, elnən sürün! Bəli, yerimə ha, məhz sürün...

Hələ heç kim buyurmayıb ki, sürüdən ayrı düşən qoyunu qurd yeyər. Ona görə də həmişə sürüdə olmaq lazımdır, ələlxüsus da o səbəbdən ki, bu il məhz qoyun üstündə təşrif buyurub...

# Ev dustaqlığına buraxılan vitse-admirala sərt ittihamlar

## Bəxtiyar Məmmədov: "Şahin Sultanovun ağ mundirindəki qara ləkələri veriləcək cəza yuya bilər"

**Hüquq müdafiəçisi Bəxtiyar Məmmədov ötən ilin sonunda ev dustaqlığına buraxılan Hərbi Dəniz Qüvvələrinin(HDQ) vitse-admiralı Şahin Sultanovla bağlı araşdırmaları davam etdirir. Vaxtilə Ş.Sultanovun şikayəti əsasında həbs olunan hüquq müdafiəçisi deyir ki, vitse-admiral məhkəmə qarşısında cavab verməlidir:**

"Son 7 ayda apardığım araşdırmaların nəticəsi olaraq tam məsuliyyətimlə bildirirəm ki, HDQ-nin sabiq komandanı, hazırda ev dustağı olan Ş.Sultanov oğrudur. Dövlət əmlakını külli miqdarda dəfələrlə mənimsəyib, öz şəxsi marağı zəminində özünə cah-cəlallı yaşayış tərzi quran bağışlanmaz bir şəxsdir. Onu ev dustaqlığına buraxdılar və müsahibə verib dedi ki, "ağ kostyum ləkə götürməz, rütbəm çiynimdə, formam da əynimdədir".

SSRİ dönəmində ekoloji cəhətdən ən çirkli şəhər Sumqayıt şəhəri idi. Lakin son illər ölkədə həyata keçirilən ekoloji siyasət nəticəsində çiçəklənən şəhərə çevrilib. Şahin Sultanovun ağ mundirindəki qara ləkələri veriləcək cəza yuya bilər. Ağ rəngli kostyumda qara ləkəli əməllərə qol qoyanlar uzun illər zindanlarda məhkumluq həyatı yaşayıb. Sultanov məhkəmənin qüvvəyə minmiş qərarı olmadan özünü elə göstərir ki, guya barəsində bəraət hökmü çıxıb. Sultanova törətdiyi və təqsirli bilinərək ittiham olunduğu maddələri sadalayıram:

- CM-in 178.3.2-ci maddəsi - dələduzluq, yəni etibardan sui - istifadə etmə və ya aldatma yolu ilə özgənin əmlakını ələ keçirmə və ya əmlak hüquqlarını əldə etmə-

- 178.3.2. külli miqdarda ziyan vurmaqla törədildikdə;

əmlakı müsadirə olunmaqla və ya olunmamaqla yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

- CM-in 179-cu maddəsi - Mənimsəmə və ya israf etmə;

- 179.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

- 179.2.2. təkrar törədildikdə;

- 179.2.4. xeyli miqdarda ziyan vurmaqla törədildikdə;

- 179.3.2. külli miqdarda törədildikdə;

- əmlakı müsadirə olunmaqla və ya olunmamaqla yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır;

- CM-in 311.3-cü maddəsi- rüşvət alma (passiv rüşvətxorluq)

311.3. Bu Məcəllənin 311.1 və ya 311.2-ci maddələri ilə nəzərdə tutulmuş əməllər:

- 311.1. Rüşvət alma, yəni vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair neməti, imtiyazı və ya güzəşti istəməsi və ya alması, yaxud bu barədə təklif və ya vədi qəbul etməsi;

311.2. Vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətlərə (hərəkətsizliyə) görə rüşvət alma- əmlakı müsadirə olunmaqla səkkiz ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır;

- CM-in 312-ci maddəsi- Vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri) - min manatdan iki min manatadək miqdarda cərimə və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır

- CM-in 313-cü maddəsi - vəzifə saxtakarlığı;

- beş yüz manatdan min manatadək miqdarda cərimə və ya bir ildən iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır;

- CM-in 341-ci maddəsi - Hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən istifadə etməmə

- iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Bu maddələrlə başlanmış işlərin araşdırma müddəti bitir və yəqin ki, yaxınlarda baxılması üçün Bakı Hərbi Məhkəməsinə göndəriləcək. Bu ərəfədə Sultanov atalar məsələsində deyildiyi kimi, "oğru elə çığırdı ki, doğrunun bağrı çatladı" prinsipinə uyğun hərəkət edir. O, telekameralar qarşısında ictimaiyyəti çaşdırmaq xülyasına düşüb. Hələ 3 il öncə ictimaiyyəti məlumatlandırmışdım ki, Ş.Sultanov korrupsionerdir, qrup şəklində sayı hesabı bilinməyən cinayət əməllərini törətməklə məşğuldur və Rusiyaya gizlin tellərlə bağlı bir şəxsdir. Lakin sabiq müdafiə naziri Səfər Əbiyevin dirijorluğu, Ş.Sultanovun hazırda həbsdə olan "kod 555" ləqəbli dostu Elxan Hacıyevin, doğma əmisi oğlu Elçin Sultanovun, HDQ -nin sabiq hüquqşünası - əvvəllər CM-in 126.1-ci maddəsinin təsiri altına düşən cinayət əməli törətmiş Rauf Zeynalovun, HDQ-nin sabiq rabitə rəisi Natiq Əsgərovdan ibarət yalançı, qondarma şahid bazası təşkil edərək həbs şərti adı altında məni şərlədilər. S.Əbiyev vəzifədən gedən dövrə qədər, yəni 2 il 5 ay məni faktiki girovluqda saxlatdırdılar.

Ş.Sultanovun törətdiyi cinayət əməllərinə təşkilatçılıq etmiş, göz yummuş, gizlətmiş, onunla əlbir olmuş Səfər Əbiyev, Məmməd Beydullayev və digər yüksək çinli məmurlar barəsində apardığım araşdırmaları Respublika Hərbi Prokurorluğuna yollayacağam. Səfər Əbiyevin hansı səbəbdən Çexiyada saysız-hesabsız mülklər alması və ora üz tuma səbəblərini ictimaiyyətə açıqlayacağam.

Son günlər Ş.Sultanov illər ərzində topladığı və dövlətdən oğurladığı çirkli pullar müqabilində mətbuatda ictimaiyyəti çaşdırmaq kampaniyasına start vermişdir. Artıq bir neçə sayta, qəzetə belə tipli məlumatlar ötürülərək Ş.Sultanovun guya günahsız olması və qərəzli şəkildə keçmiş dostu və oğru şəriki Elxan Hacıyev tərəfindən güdaza verilməsi barədə yanlış fikri formalaşdırır. Lakin bu çirkin kampaniya Ş.Sultanov barəsində aparılmış və sübuta yetirilmiş yuxarıda qeyd etdiyim çoxsaylı cinayət maddələri ilə təqsirli bilinərək sonda məhkəmə tərəfindən onun barəsində çıxarılacaq ittiham hökmünə heç bir təsir göstərə bilməz".





❑ E.HÜSEYNOV

# Antikorropsiya idarəsinin rəisi qalmaqallı cinayət işlərindən danışdı

## Kamran Əliyev: ""A.M.A.Y." rəhbəri dəymiş ziyanın 43 milyonunu ödəyib, Elşad Abdullayevlə bağlı istintaq davam etdirilir"

**Ötən il 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə bu müddət ərzində 4945 müraciət daxil olub. APA-nın məlumatına görə, bunu 2014-cü ilin yekunları ilə bağlı keçirilən mətbuat konfransında Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev deyib.**





Kamran Əliyev

O qeyd edib ki, 2014-cü il ərzində Baş İdarənin İstintaq şöbəsi tərəfindən 333 şəxs barəsində 206 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilib. Həmin cinayət işlərindən 16 şəxs barəsində 9 iş rüşvət alma (passiv rüşvətxorluq), 5 şəxs barəsində 4 iş rüşvət vermə (aktiv rüşvətxorluq), 43 şəxs barəsində 22 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, 6 şəxs barəsində 6 iş vəzifə səlahiyyətlərini aşma, 7 şəxs barəsində 4 iş vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə, 6 şəxs barəsində 3 iş vəzifə saxtakarlığı, 5 şəxs barəsində 4 iş səhlənkarlıq, 134 şəxs barəsində 79 iş qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və israf etmə, 95 şəxs barəsində 59 iş qulluq mövqeyindən istifadə etməklə dələduzluq, 14 şəxs barəsində 14 iş saxta sənədlərdən istifadə etmə, 2 şəxs barəsində 2 iş isə digər faktlarla əlaqədar olub.

Məhkəmələrə göndərilmiş cinayət işləri üzrə vurulmuş 76 165 41 manat ziyandan istintaq müddətində 54 885 691 manat və ya 72%-i ödənilib, qalan ziyanın təqsirləndirilən şəxslərin əmlakları üzərinə həbs qoyulmaqla ödənilməsi üçün qanunla nəzərdə tutulmuş tədbirlər görülüb.

K. Əliyev qalmaqallı cinayət işləri ilə bağlı da danışıb. O deyib ki, "A.M.A.Y." ticarət mərkəzinin rəhbəri Abdulla Abdullayevin cinayət işi üzrə artıq dəymiş ziyanın 43 milyonu ödənilib. Həmin məbləğin 48 milyonun mənimsəmə halının 43 milyonun ödənilməsi təmin edilib. Məbləğin digər hissəsi ilə bağlı əmlakın müsadirə edilməsi tapşırılıb.

Qeyd edək ki, istintaq materialları Bakı Ağır Cinayətləri Məhkəməsinə göndərilib.

K. Əliyev deyib ki, fəaliyyəti dayandırılmış Azərbaycan Beynəlxalq Universitetinin sabiq rektoru Elşad Abdullayevin qanunsuz əməlləri ilə bağlı başlanmış cinayət işinin istintaqı davam etdirilir. O qeyd edib ki, vaxtilə onunla birgə çalışan və bu qanunsuzluqlara yol verən şəxslər məsuliyyətə cəlb ediliblər.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT

N 10 (6038) 16 yanvar 2015



# "Rusiya Qarabağ münaqişəsinə müdaxilə etməyəcək..."

## Dünyanın nüfuzlu araşdırma mərkəzi münaqişə ətrafında status-kvonu kimin dəyişəcəyini açıqladı; Moskva-Ankara yaxınlaşmasından İrəvanın təlaşlanmasının daha bir səbəbi nədir? **Erməni politoloq:** "Qarabağ məsələsi çözülmədən türk-erməni münasibətləri düzəlməyəcək..."

**Uydurma erməni iddiasının 100-cü ildönümünə 3 aydan bir az artıq vaxt qaldı. Müşahidə edilən odur ki, Türkiyə kontur-tədbirlərin sayını artırmaqdadır. Bunu prezident Rəcəb Tayyib Ərdoğanın məsələ ilə bağlı son bəyanaları da təsdiqləyir. Bu da o anlama gəlir ki, qardaş ölkə türk-erməni münasibətlərinin normallaşması məsələsində ənənəvi mövqeyini qoruyub saxlamaq əzmindədir və işğalçı Ermənistana birtərəfli qaydada hər hansı güzəşt eləməyə hazırlaşmır.**

Söhbət öncəliklə Qarabağ probleminin həllində ciddi irəliləyiş olmadan sərhədləri bağlı saxlamaq siyasətinə sadiqlikdən gedir. Belə görünür, İrəvanda da bunu fərq etməyə başlayıblar.

"Erməni-türk münasibətləri ta o günədək normal məcraya düşməyəcək ki, Qarabağ problemi həllini tapmayacaq". Musavat.com-un erməni KİV-ə istinadən verdiyi xəbərə görə, belə bir açıqlama ilə "Noravank" Elmi-Tədqiqat Mərkəzinin rəhbəri, politoloq Qaqik Arutunyan çıxış edib. Onun qənaətincə, rəsmi Ankaranın Qarabağ məsələsində mövqeyi birmənalı və olduqca sərtdir.

**Türkiyə ilə yaxınlaşma fonunda Rusiyanın erməni-türk məsələsində vasitəçiliyinin mümkün olub-olmamasına gəlincə, erməni təhlilçi belə deyib:** "Düşünmürəm ki, Moskva bu məsələdə aktiv rol oynayacaq. Hərçənd Ankara-Moskva əlaqələri çox aktiv inkişaf edir. Ancaq biz dərk etməliyik ki, güclü Türkiyə və bundan da vacibi, zəifləmiş Rusiya bizə lazım deyil".

Əlbəttə ki, Rusiyanın zəifləməsi, üstəlik, onun Türkiyənin güclənməsi fonunda zəifləməsi təcavüzkar tərəfin strateji maraqlarına uyğun ola bilməz. Hətta ötən həftə Gümrüdə rus əsgərinin törətdiyi qanlı cinayətin *(6 nəfərlik erməni ailəsini güllləbaran eləməsinin)* doğurduğu sərt etirazlar, Rusiya bayrağının ayaqaltı edilməsi də reallığı dəyişmək gücündə deyil. Nədən ki, Ermənistan Azərbaycan torpaqlarını müstəsna olaraq Rusiyanın hesabına işğalda saxlamaqda davam edir.

Bunu Azərbaycan prezidenti İlham Əliyev ilin yekunlarına həsr olunmuş müşavirədə açıq şəkildə bəyan edib və faktiki surətdə Rusiyanı barmaqla göstərib, eyni zamanda Qərbin ikili standartlarının işğalın uzanmasına yardımçı olduğuna diqqət yönəldib, nəhayət, vasitəçilərin imitasiya fəaliyyətini tənqid edib.

**Sitat:** "Həqiqət bundan ibarətdir ki, bizim torpaqlarımızın işğal altında qalması sadəcə olaraq Ermənistanın işi deyil. Ermənistan aciz durumda olan, gücsüz, dilənçi bir ölkədir. Əlbəttə ki, onun müxtəlif paytaxtlarda böyük havadarları olmasaydı, Dağlıq Qarabağ münaqişəsi çoxdan ədalətli şəkildə öz həllini tapa bilərdi. Hətta hazırda Ermənistan rəhbərliyi də bunu etiraf edir. Xarici dəstək olmadan onlar işğal edilmiş torpaqları bir gün də işğal altında saxlaya bilməzlər".

***

Belə vəziyyətdə şübhəsiz ki, Türkiyə ilə Azərbaycanın strateji müttəfiqliyi xüsusi önəm daşıyır. Çox vacibdir ki, iki qardaş ölkə regional və beynəlxalq problemlər, qlobal ümumi hədələrlə bağlı ortaq



mövqe sərgiləməkdə davam etsinlər, bir-birinin arxasında qeyd-şərtsiz dursunlar. Nə yaxşı ki, belədir və bunu düşmən tərəf də duyur, təhlil edir və narahatlıq keçirir.

Məhz bu reallığın dərkinin nəticəsidir ki, adıçəkilən erməni politoloq uydurma soyqırımın yaxınlaşan 100 illiyi ilə bağlı da rəsmi Ankaranın mövqeyində hər hansı yumşalma gözləmədiyini söyləyir. "Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan İrəvanda "soyqırımın" 100 illiyi tədbirlərinə qatılmayacaq", - deyə o vurğulayıb. Hərçənd o, Ərdoğanın Ermənistana baş çəkməsi üçün rəsmi dəvət edilməsini incə diplomatik addım adlandırıb.

"Türkiyə tərəfinin konkret hansı addımlara əl atacağını təxmin eləməyə çətinlik çəkirəm, ancaq etiraf eləmək lazımdır ki, onlar erməni siyasətini həddən-ziyadə diqqətlə izləyir, 100 illiyin mümkün nəticələrini yumşaltmağa çalışırlar" - bildirib erməni analitik.

**Bu məsələ vasitəsilə rəsmi Ankaraya beynəlxalq birliyin təzyiqlərinin artması mümkünlüyünə toxunan Arutunyan bədbinliklə belə deyib:** "Gördüyümüz kimi, elə bu beynəlxalq birlik 100 ildir bu faktın dərki ilə yaşayır, amma... Bəzi ölkələr isə onu tanımır. Söhbət ABŞ-dan gedir. Odur ki, düşünürəm ki, bəzi sözlər dilə gətiriləcək, Fransa prezidenti isə Ermənistana gələcək, başqa heç kim".

Qarabağ məsələsi, Türkiyə-Azərbaycan strateji və qardaşlıq münasibətlərinin bütün tərəfləri şübhə yox ki, prezident İlham Əliyevin yanvarın 14-də başlayan Türkiyə səfəri çərçivəsində də əsas diqqət mərkəzində olub. O sırada yeni regional və qlobal hədələr kontekstində ikitərəfli hərbi əməkdaşlığın mövcud səviyyəsi və perspektivlərinin bir daha gündəmə gətiriləcəyi istisna olunmur. Bunu indi həm də regionda müharibə risklərinin artması diktə edir.

***

Müharibə ehtimalından söz düşmüşkən, bu arada ABŞ-dakı nüfuzlu "Stratfor" araşdırma mərkəzi Qarabağ münaqişə zonasında 2015-ci ildə olacaq mümkün dəyişiklikləri təhlil edib. Qurumun ekspertlərinin proqnozlarına görə, bu il Azərbaycan Dağlıq Qarabağda status-kvonu dəyişdirəcək, ön cəbhədə daha çox fəallıq nümayiş etdirəcək. Lakin sərhəddə gərginliyin genişmiqyaslı hərbi əməliyyatlara keçəcəyi ehtimalı çox azdır.

**Qurum hesab edir ki, Rusiya öz daxili problemləri ilə məşğul olacaq və çətin ki, münaqişəyə müdaxilə etsin:** "Bununla belə, Rusiya və Qərb arasında fikir ayrılıqları postsovet ölkələrinə təsir etməkdə davam edəcək. Ermənistan, Belarus, Qazaxıstan və Qırğızıstan Rusiya iqtisadi böhranının təsirini üzərində hiss edəcək və sosial iğtişaşlar tamamilə ehtimal olunandır".

"Rusiya iqtisadiyyatında tənəzzül bu il də davam edəcək, amma 1998-ci ildəki səviyyəyə çatmayacaq. Rusiya "iqtisadi ağrılara" digərlərindən daha yaxşı tab gətirir, amma enerjidaşıyıcılarından gələn gəlirlərin kəskin şəkildə azalması, üstəgəl sanksiyalar prezident Putin üçün belə çoxdur" - mərkəzin ekspertləri belə hesab edir.

Rusiya Ukraynaya, habelə Moldova və Gürcüstana qarşı genişmiqyaslı hərbi əməliyyatlardan qaçmaqda davam edəcək. Amma təzyiqlərə də son qoymayacaq.

Rusiya-Türkiyə münasibətlərinin inkişafda olduğunu da ciddiyə alsaq, sadalananlardan belə nəticə hasil olur ki, Kremlin Qarabağ müharibəsinə müdaxilə imkanları əvvəlki illərlə müqayisədə daha zəif görünür. Bu, Azərbaycana hərbi müstəvidə əhəmiyyətli avantaj qazandırsa da, ondan səmərəli istifadə digər mühüm regional və qlobal şərtlərdən ciddi şəkildə asılı qalmaqdadır.

# Erməni yazıçısından Azərbaycana Qarabağ reveransları

## "Sumqayıtdakı qətliama görə azərbaycanlılar yox, Moskva məsuliyyət daşıyır..."

**Tanınmış erməni yazıçısı və ictimai xadimi Vaqe Avetyan hesab edir ki, azərbaycanlılar onun Qarabağ münaqişəsi haqda başqalarından eşitmədiyi, şəxsən özünün bildikləri haqda məlumatlı olmaq haqqına sahibdir. Musavat.com-un xəbərinə görə, bu barədə o, özünün facebook səhifəsində yazıb:**

"Azərbaycanlılar mənim dostum və partiyadaşım, Respublika Partiyasının qurucusu, sovetlər dönəminin dissidenti və siyasi məhbusu Aşot Navasardyanın şəxsən mənə və yanımdakı bir çoxlarına 1985-ci ildə nələr danışdıqları haqda bilmək haqqına malikdirlər. Həmin il "zon"da ona bir çekist deyib ki, tezliklə hamını evə buraxacaqlar, Kremldə Qarabağ məsələsi artıq ermənilərin xeyrinə həll olunub, sizə yalnız evə gedib Qarabağ hərəkatına başlamaq qalır ki, hakimiyyət sizin "tələblərinizə cavab olaraq" Qarabağı sizə qaytarsın.

Azərbaycanlıların hüququ var bilsinlər ki, çekistlər belə informasiyaları türmələrdə bütün erməni siyasi məhbuslarına çatdırmışdılar və evə döndükdən sonra onların toplanışı olmuş, orada yekdilliklə qərara alınmışdı ki, əgər KQB Qarabağ hərəkatı istəyirsə, o zaman erməni dissidentləri hər



şeyi eləməlidirlər ki, bu, baş verməsin.

Azərbaycanlıların haqqı çatır bilsinlər ki, bizim öz müqəddəratı təyinetmə uğrunda hərəkat liderimiz İrəvanda mitinqdə çıxış edərək Sumqayıtdakı qətliama görə azərbaycanlıların yox, Kremlin məsuliyyət daşıdığını söyləyib, onu da deyib ki, kim ki, Qarabağı bir sovet türməsindən digər sovet türməsinə köçürmək istəyir, o, Kreml çekistlərinə xidmət edir.

Azərbaycanlıların hüququ var bilsinlər ki, bizim müstəqillik uğrunda liderimizi bundan sonra ölkədən deportasiya ediblər, boşluğu isə Qarabağ Komitəsi ilə doldurublar, müstəqillik və demokratiya uğrunda mübarizləri isə terrorla qətlə yetiriblər, ölkədən sürgün ediblər və 20 il ərzində hər vəchlə məhv eləməyə çalışıblar.

Azərbaycanlıların hüququ var bilsinlər ki, mən o günü görürəm - o gün ki, biz öz milli bayraqlarımızı Kremlin xarabalıqları üzərində böyür-böyürə qaldırıb imperiyanı Qarabağa görə cəzalandıracaq, bir çox başqa şeyləri edəcəyik".

YENİ MÜSAVAT
N 10 (6038) 16 yanvar 2015




# Niyə səbir etmək və nəyə səbir etmək?

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim!**
**İnsan başdan-ayağa, dünyaya gələndən ehtiyacın içərisindədir. Maraqlı cəhətdir ki, insan böyüdükcə bu ehtiyaclar da artır. Dünyadan gedəndə də ehtiyac içində gedirik. Ayıq baxışla nəzər saldıqda görürük ki, Allah Təala ana bətnində olduğumuz vaxtdan başlayaraq bu ehtiyacımızın ödənməsi üçün fürsətlər, nemətlər, tofiqatlar verib. Dünyaya gələndən sonra da həm fiziki, həm mənəvi ruzilər verir, ehtiyacımızı ödəyir. Ömrümüzün sonuna qədər saysız-hesabsız nemətlərin içərisində oluruq.**

**Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com**
**İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı**



## Mənəvi ehtiyaclarımıza vaxt ayırmasaq, həyatda uğur qazanmayacağıq

Ehtiyaclı həyatın içində özümüzü ora-bura atırıq, fiziki ehtiyaclarımızı ödəməyə çalışırıq. İnsanın fiziki ehtiyaclarını ödəmək üçün nələrin lazım olduğu barədə siyahılandırma aparsaq, görərik ki, onlar heç də fövqəladə məsələlər deyil. Bizim gün ərzində ardınca olduğumuz, arxasınca qaçdığımız, bir çox şeylərimizi fəda edərək əldə etmək istədiyimiz məsələlər - minimal fiziki ehtiyaclarımızdan qat-qat çoxdur. Yəni minimal ehtiyacımızı ödəmək üçün başlatdığımız bu qaçaqaç, bizi hədəfdən yayındıraraq, bütün vaxtımızı və enerjimizi maddi nəsnələri toplamağa yönəldə bilər.

Mənəvi ehtiyaclarımızın ödənməsi üçün çox az hərəkət edirik. İnsanlar sanki gün ərzində yalnız maddi məsələlərinin ardınca getməyə vərdiş edib. Amma mənəvi ehtiyacların ödənməsi üçün insan çalışmağa öyrəşməyib. Elə bilir ki, bu, öz-özünə təmin olunur. O vaxta qədər ki, biz mənəvi ehtiyaclarımızın ödənməsini, maddi ehtiyaclarımızın ödənməsi qədər önəmli hesab etməyəcəyik, ona diqqət ayırmayacağıq - həyatımınzda uğurlar əldə edə bilməyəcəyik.

## Mənəvi ehtiyacların ödənməsi nədən keçir?

Gün ərzində maddi ehtiyaclarımızın ödənməsi üçün ayırdığımız zamanın yarısını mənəvi ehtiyaclarımızın da ödənməsi üçün ayırsaq, fərqində olarıq ki, mənəvi ehtiyaclarımızın ödənməsi Allahdan keçir. Allahla bu bağlantını nə qədər gücləndirsək, o qədər biz anlayarıq ki, mənəvi ehtiyaclarımızın həllini tapmışıq. İnsan elə bir hala gəlib çata bilər ki, mənəvi ehtiyacı da Allah tərəfindən ödənər. Allahla bağlantı tapsa, buna nail olar. Əgər insanın Allahla bağlantısı olmasa, heç bir şeyi olmaz. Əlində olanların hamısı bünövrəsizdir, köpük kimidir, heç bir davamiyyəti, söykənəcəyi yoxdur. İnsanın Allahla bağlantısı olsa, o zaman hər şey olmaq halına gəlib çıxır. Allahla bağlantısı olanın hər bir şeyi olur.

## İnsanlar da bir-birilərinin ehtiyacını ödəyə bilər

Allah Təala bizə bu inayəti verib ki, bir-birimizin ehtiyaclarını ödəyə bilək. İmam Sadiqdən (ə) olan bu hədisi ötən bəhslərimizdə də vurğuladıq. İmam (ə) buyurur: **"Hər kəs öz mömin müsəlman qardaşının ehtiyacını aradan götürməyə səy göstərərsə, qardaşının ehtiyacının fərqində olduğu vaxtadək, Allah Təala onun özünün ehtiyacının götürülməsini lütf edər".**

Allah Təbarəkə və Təala bizə belə lütflər edib. İnsan bir başqa insanın, bir başqa müsəlman əzizinin ehtiyacını ödəyə bilər. Bu ehtiyacın maddi olması da vacib deyil. Bəzən bir insanın başqa bir insanın yalnız təbəssümünə ehtiyacı olur. Bir sayğıya, bir qayğıya ehtiyacı olur bəzən birinin. İnsanların əsas ehtiyacları - mənəvi ehtiyaclardır. İndiki durumda övladın valideyndən daha çox umduğu - mənəvi məsələlərdir. Övladın valideyndən alınan mənəvi dəstəyə hər zaman ehtiyacı var. İnsanların bir-birinin mənəvi qayğısına çox ehtiyacları var.

Hədisdən göründüyü kimi, bir nəfər bir nəfərin ehtiyacını ödəyən zaman, Allah da onun üçün daha böyük rəhmətlər, daha köklü lütflər əta edər. Nəinki birinin ehtiyacını ödəmək istədikdə, hətta birinin ehtiyacının düşüncəsində olduğu müddətdə də, Allah Təala həmin insana lütflər edir. Allah Təala həmin insanın ehtiyaclarını ödəyir. Biz bəzən fərqində olmuruq ki, çoxsaylı problemlərimiz, çətinliklərimiz birdən həll olur. Olur ki, insan bir çətinliyin düşüncəsini yaşayır, amma bir də görür ki, bu çətinlik həll olub. Bunlar özü-özünə baş vermir. Bəlkə qardaşımıza hədiyyə etdiyimiz bir təbəssümlə həll olur. Bəlkə birinə göstərdiyimiz qayğı ilə həll olur. İllərlə insanın həll etmək üçün çırpındığı bir müşkülü birdən rahatlıqla həll ola bilir.

## Allahla bağlantının yolu səbirdən keçir

Allahla bağlantı tapmaq üçün ən uğurlu yollardan biri - səbirdir. Səbirlə bağlı da öncəki bəhslərdə bir sıra məqamlara vurğu edilib. Əmirəlmöminin (ə) buyurur: **"Səbir iki növdür: sənin xoşuna gəlməyən şeylərə səbir etmək və sevdiyin şeylərin müqabilində səbir edib, özünü saxlamaq".** Keçən bəhslərimizdə qeyd etdik ki, səbir üç müstəvidə təzahür tapır. İkisi daxilimizlə, biri isə kənarla bağlıdır. Daxilimizlə bağlı səbirin təzahürünün birincisi budur ki, daxili amillər bizi Allah bəyənməyən işlərə cəzb edir. İnsanın bu amilə müqavimət etməsi, günahlardan çəkinməsi - səbirin bir növüdür. Daxili müstəvidə olan ikinci növ səbir budur ki, insan Allahın itaətinə aid olan bir iş görmək istəyir, daxildən amillər onu həmin işi görməyə qoymur, fəaliyyətsizliyə çağırır. Bu fəaliyyətsizliyi dəf edib, insanın Allaha itaət etməsi, daxildən gələn fəaliyyətsizliyə çağıran qüvvələrə qarşı onun müqavimət göstərməsi - səbirin ikinci növüdür. Buna itaətdə səbir də deyilir. Kənarda baş verən hadisələr insanı təbii halından çıxarır, bəndəlik halından çıxarır və insanı yolundan azdırır. İnsanın bu amillərin təsiri altında səbir edib bəndəlik halından çıxmaması - səbirin üçüncü növüdür. Səbirin bu növü - müsibətə səbir etmək adlanır.

Həzrət Əmirəlmöminin (ə) mübarək buyuruşunda qeyd edilən hər iki məqam səbirin növlərinin içərisində var. İnsan xoşuna gələnə səbir etməlidir. İnsanı özünə çəkən hər bir günahı şeytan (lən) çox xoşagələn, şirin bir şey kimi təqdim edir. Nəfsani istəklər, haram məsələlər, Allahın bəyənmədiyi işlər insana "gəl-gəl" deyir. İnsan həmin şeyləri istəyir, amma istəməsi müqabilində səbir edir. Ondan çəkinmək, səbir etmək bəzən çox çətin, çox acıdır. Və yaxud, insanı öz normal halından çıxaran müsibətlər, bəlalar heç də xoşagələn deyil. Lakin, insan səbir edib, xoşa gəlməyən həmin hadisələr qarşısında müqavimət göstərir və Allah bəndəçiliyindən çıxmır. Və bu halın şirinliyi onun yaşadığı çətinliyin bütün acılığını qat-qat örtür.

## Səbir - insanın razı olmasıdır

Əziz İslam Peyğəmbəri (s) buyurur: **"Səbir - razılıqdır".** Səbirin bundan gözəl hansı tərifi ola bilər? Səbir - insanın, Allahın razı olduğuna razı olmasıdır. Əgər Allah Təalanın razılığı insanın bir işlərdən çəkinməyindədirsə, o işlərdən çəkinməli və bunun çətinliklərində də dözüb səbir etməlidir. Əgər Allahın razılığı bir işlərin görülməsindədirsə, insan o işi görməli və yaranan çətinliklərə də səbir etməlidir. Buradan da görünür ki, səbir - əməlin özüdür. Yəni, səbir heç bir şey etməmə deyil. Səbir, əksinə - imanın əməldə təzahür etməsidir. İstənilən Allaha bəndə olma əməlinin, istənilən təqvalılığın kökündə səbir var. Bütün Allaha bəndəçilik amillərini, bütün təqvalılığı, bütün əxlaqi əməlləri səbirin üç növünün içərisində yerləşdirmək olar. Səbir olmayan yerdə əməl yoxdur.

İnsanın müsibətlərə, ağrı və acılara Allah bəndəsi olmaq üçün dözməsi - həm də onun özünün razılığıdır. İnsan bu halından razıdır. Bilir ki, Allaha bəndəlik məhz elə budur. Bilir ki, nəfsani istəklərin, şəhvətin, haramların dəvətlərinin axırı nə olur. Bunların çağırışına cavab vermir, səbir edir və bu halından razıdır. Bilir ki, Allaha itaət etmək nədir. Allaha itaət edərkən çətinliklərə dözür və bu halından razıdır.

## Səbir - qəzəb qüvvəsini udmaqdır

Həzrət **Əmirəlmöminin (ə) buyurur: "Səbir insanın bir çətinlik və müsibətlə qarşılaşanda dözümlülük göstərib, öz qəzəbini udmasıdır".** Səbir bir çox çətinliklərdə insanın əlindən tutur. Qəzəbli halında insan bir çox fəsadlar törədə bilər. Lakin səbir insanın əlindən tutur, onu səhvlərdən qoruyur. Müsibət və çətinlik qarşısında insanın qəzəblənməsi bəlkə də normal haldır. Amma bu məqamda Allah bəndəsi olmaq istəyən şəxs gərək səbir etsin və dözsün. Bunu həm də müsibətlər qarşısında səbir etməyə aid etmək olar. İnsan belə halda səbatlı halından çıxmır, qəzəb qüvvəsi tüğyan etmir və səbir edir. Səbir - qəzəb qüvvəsini tüğyan etməyə qoymur.

Həzrət **Əli (ə) digər bir yerdə buyurur: "Xoşagəlməz işlərin müqabilində özünü səbirə vadar etmək - qəlbi gücləndirir".** Burada bir neçə məqam var. Birincisi budur ki, insanın xoşagəlməz işlərin müqabilində səbir etməsi elə də asan bir iş deyil. Əgər bu, asan olsaydı, Həzrət Əli (ə) özünü səbirə vadar etməyi insanlara tövsiyə etməzdi. Deməli, insan, xoşagəlməz işlər müqabilində səbir etməsi üçün özünü buna vadar etməlidir.

## Qəlbi gücləndirməyin yolu

Digər tərəfdən, hər bir insan qəlbi çətinliklərinin aradan qaldırılmasının yollarını axtarır. İnsanların hamısı qəlb rahatlığının ardıncadır. Həzrət (ə) bu hədisi ilə həm də qəlb rahatlığı tapmağın yolunu göstərir. Xoşagəlməz işlər müqabilində səbir etmək qəlbi gücləndirər. Qəlbi gücləndirmə, inkişaf etdirmə, ruhiyyəni, əzmi, iradəni artırma yollarından biri - xoşagəlməz işlərin müqabilində özünü səbirə vadar etməkdir. İnsanların ən böyük müsibəti budur ki, səbirlə bağlı məqamlara diqqət ayırmır. Daxildən şəhvət insanı özünə cəlb edir, digər tərəfdən rahatlıq axtarma amilləri təsirini qoyur, üçüncü tərəfdən isə kənarda baş verənlər ruhiyyəmizə öz təsirini qoyur. Bunlara diqqət ayırmayan insan özünü məhvə məhkum edib. Özümüzə dəyər versək, özümüzü hər mənada dəyərləndirsək, bu təhlükələrlə qarşı-qarşıya gələndə gerçək səbir göstərərik və Allahın razılığını qazanmış olarıq.

İnsanın səbirə riayət etməsi üçün bunun barədə düşünməsinə də ehtiyacı var. Düşünməyən insan heç bu kimi məsələlərə önəm də verməyəcək. İnsan özünə vaxt ayırmasa, ömründən bu kimi məsələlərini həll etmək üçün pay ayırmasa, onları həyatında tətbiq edə bilməyəcək. İnsanın həyatında məşğuliyyətlər onu tam şəkildə əhatə edir. Müəyyən mərhələdən sonra artıq insanın öz məşğuliyyətlərini idarə etməsi, yaxud məşğuliyyətlərinin onu idarə edəcəyi məsələsi qarşısında dayanır. İlk mərhələdə bu seçimi etmək üçün insan düşünməlidir. Əgər düşünməsə, bunun fərqində də olmayacaq. Düşünmək - Allahın tofiqatıdır. O qədər insan var ki, həyatını necə gəldi yaşayır və halından da məmnundur, durumu onu narahat etmir və bu barədə düşünmür.

## İnsanın fitrətindən müəyyən siqnallar gəlir

İnsanın fitrəti, daxili durumu belədir ki, vaxtaşırı daxilindən müəyyən siqnallar gəlir. Bu siqnallar narahatlıq yaradan narazılıq siqnallarıdır. İnsan həyatından, durumundan, vəziyyətindən narazı olur. İnsan həmin siqnalları sevmir. O siqnallarla bir neçə cür rəftar edə bilər. Biri budur ki, onlara önəm versin, vaxt ayırsın, diqqət ayırsın. Biri də budur ki, insan həmin siqnalları aradan aparar. Çox vaxt insanlar ikinciyə daha çox meyilli olurlar. İnsanların çoxu onları nəyin narahat etdiyini, nədən narazı olduqlarını düşünmək istəmir. Müasir dünyamızda həmin siqnalları aradan aparmaq üçün fürsətlər də fövqəl dərəcədə çoxdur. İnternet, sosial şəbəkələr və s. - bunun üçün ən uğurlu vasitədir. Bunlar insanı özü ilə olmaqdan ayırmağa böyük fürsətlər yaradır.

İnsan onun üçün narahatlıq yarada biləcək bütün təhlükələrdən uzaq olmaq istəyir. İnsanların bəzi haram məşğuliyyətləri də buradan gəlir. İnsanlar narkomaniyaya, əyyaşlığa niyə meyl edir? Çünki, bunlar onu həmin vəziyyətdən çıxarır, daxili həyəcan siqnalını, vücudi narahatlıq impulslarını boğmağa xidmət edir. Daxilindən gələn narahatlıqlar artıq ona əziyyət vermir. Haram musiqi - ğina da insanı tamamilə özünəməxsusluqdan çıxarır. İnsan bütün bunlara qarşı əzm göstərməli, özünə qulas asmağı bacarmalıdır. Özünə qulaq asaraq, nəhayətən insanlıq missiyasını, kamillik yolunda irəliləmək vəzifəsini yerinə yetirə bilər.

**Allahım, bizlərin maddi və mənəvi ehtiyaclarını ödə!**

**Allahım, bizlərə Səninlə bağlantı tapmağı əta et!**

**Allahım, bizlərə gerçək səbirlilik nəsib et! Amin!**

YENİ MÜSAVAT
N 10 (6038) 16 yanvar 2015

# Benzinin qiyməti düşdü, bəs bahalaşan ərzaq məhsulları?

## Samir Əliyev: "Düşünürəm ki, bir sıra addımlar atılmasa, qiymət artımı davam edəcək"

**Azərbaycanda ərzaq məhsullarının qiyməti artmaqda davam edir. Bir sıra ərzaq məhsullarının və xırdavat malların qiymətində bahalaşma müşahidə edilir. Benzinin qiymətinin bahalaşmasını əsas gətirən işbazlar bir sıra ərzaq məhsullarının qiymətini artırdı. Ancaq yanvarın 14-də ölkə başçısı Tarif Şurasının benzinin qiymətinin bahalaşdırılması ilə bağlı qərarını ləğv etdi. Maraqlıdır, benzinin bahalaşma xəbəri ilə "kəlləçarxa" çıxan bir sıra ərzaq məhsullarının və xırdavat mallarının da qiyməti enəcəkmi?**







Bu məqsədlə bir neçə markətə baş çəkdik. Məlum oldu ki, şəkər tozunun, siqaretin, çayın, ət konservlərinin, toyuğun qiymətində 15-50 qəpik arasında bahalaşma var. Hətta siqaretin qiymətinin bahalaşması ilə əlaqədar olaraq siqareti atmaq barədə qərar qəbul edən bir neçə alıcı ilə də rastlaşdıq. Alıcılar qiymət artımından narahat və narazı olduqlarını bildirdilər. Satıcıdan nəyə görə ərzaqların qiymətində bahalaşma olduğunu soruşduqda onlar bunu müdirlərinin göstərişi ilə etdiklərini dedilər: "Bəzi ərzaqların qiymətini yanvarın 13-dən dəyişdirmişik. Bizə də firmadan baha gətirilir. Əvvəl Rusiya ilə bağlı baha satılırdı, indi isə benzinlə əlaqədar olduğunu deyirlər".

**İqtisadçı ekspert Samir Əliyev isə bahalaşmanı benzinlə əlaqələndirməyin yanlış olduğunu və bunun süni qiymət artımı olduğunu bildirdi:** "Qiymət artımını benzinlə bağlamaq olmaz. Bu artım ötən ildən müşahidə edilir. Bunun da əsas səbəbi Rusiyada baş verən proseslərdir. Benzinin qiymətinin qalxması isə bunu bir qədər də stimullaşdırır. İndi benzinin qiyməti 2 qəpik aşağı salındı. Amma mən inanmıram ki, bahalaşan ərzaq qiymətləri ən azı əvvəlki səviyyəsinə qayıtsın".

**S.Əliyev bundan sonra da qiymət artımının olacağı fikrindədir. Ekspertin sözlərinə görə, bahalaşmaya bir səbəb də monopolist şirkətlərin bazarımıza başqa şirkətlərdən mal gətirilməsinə imkan verməmələridir:** "Baş verən proseslər yenə də qiymət artımı olacağını göstərir. Məsələn, kənd təsərrüfatı məhsulları sahəsində qiymət artımı həm mövsümlə, həm də Rusiya ilə bağlı olaraq artımı müşahidə edirik. Əslində Rusiya amilinin Azərbaycana müsbət təsiri olmalıdır ki, ən azı Azərbaycanda ət, süd məhsulları, tikinti materialları, Rusiyadan gətirilən avtomobillərin qiyməti əhəmiyyətli dərəcədə düşməli idi. Çünki manat sabit qalıb. Amma biz bu ucuzlaşmanı müşahidə etmədik. Bu da onunla bağlı oldu ki, gömrük qiymətləri tənzimləyir. Yəni monopolist şirkətlər başqa şirkətlərin mal gətirməsinə imkan vermir. Ona görə də Rusiyadakı ucuzlaşmanın Azərbaycan bazarlarına bir təsiri yoxdur. Dünyada bu gün neft ucuzlaşdı deyə kənd təsərrüfatı məhsullarının qiyməti düşdü. Amma biz bunu Azərbaycan bazarlarında görə bilmədik. Azərbaycan bazarında daha çox qiymət artımı özünü göstərir. Hökumətin istər qızıla, istərsə də tətbiq edilən vergilərin özləri bazara təsir edən amillərdir. Qiymət artımının qarşısını almaq üçün əlverişli şərait olmasına baxmayaraq heç bir addım atılmır. Düşünürəm ki, bir sıra addımlar atılmasa, qiymət artımı davam edəcək".

Qeyd edək ki, "Azərbaycan Coca-Cola Bottlers MMC" istehsal etdiyi bəzi məhsulların da qiymətini qaldıracaq. Qiymət artımı ilə bağlı qərar yanvarın 24-dən qüvvəyə minəcək. Bu siyahıya "Cappy", "Fuse tea", "Burn" və "Bonaqua" məhsulları daxildir. Belə ki, adları çəkilən içkilərin qiymətlərində 5-20 qəpik artım olacaq.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə isə dekabr ayında Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətləri əvvəlki ayla müqayisədə 1,5 faiz, o cümlədən birillik və çoxillik bitkilərin uyğun olaraq 1,5 və 4,9 faiz, diri heyvanlar və heyvandarlıq məhsullarının istehsalçı qiymətləri isə 0,8 faiz bahalaşıb. Belə ki, Buğdanın 6,4 faiz, arpanın 3,1 faiz, lobya dəninin 8,1 faiz, şəkər çuğundurunun 20,1 faiz, kələmin 3,1 faiz, kartofun istehsalçı qiyməti isə 0,6 faiz bahalaşıb. Çoxillik bitkilərdən xurmanın istehsalçı qiyməti 14,7 faiz, feyxoanın 2,5 faiz, əzgilin 11,5 faiz, limonun 6,7 faiz, naringinin 12,7 faiz, heyvanın 32,9 faiz, almanın 2,4 faiz, armudun 7,5 faiz, şabalıdın 7,1 faiz, fındığın 4,6 faiz, qozun istehsalçı qiyməti 2,9 faiz bahalaşıb, portağalın istehsalçı qiyməti isə 5,0 faiz ucuzlaşıb. Diri heyvanlar və heyvandarlıq məhsullarından mal və quş ətinin (diri çəkidə) istehsalçı qiyməti müvafiq olaraq 2,6 və 0,7 faiz ucuzlaşıb, südün 0,8 faiz, diri qoyun və keçilərin 0,3 faiz, qoyun və keçilərin qırxılmış yuyulmamış yununun 1,0 faiz, qoyun ətinin (diri çəkidə) 0,1 faiz, yumurtanın istehsalçı qiyməti isə 14,4 faiz bahalaşıb.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**



# "Nar Home" - Simsiz TV

## "Nar Mobile" Naxçıvanda yeni məhsulunu tətbiq etməyə başladı

**Yanvarın 14-də Azərbaycanın ən sürətlə inkişaf edən mobil operatoru - "Nar Mobile" tərəfdaşı olan BBTV ilə birgə Naxçıvan Muxtar Respublikasının paytaxtında "Nar Home" adlanan yeni məhsulunun rəsmi təqdimat mərasimini keçirmişdir. Təqdimetmə mərasimində Naxçıvan MR rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov və muxtar respublikanın digər yüksək rütbəli rəsmi şəxsləri iştirak edirdilər.**

**Öz çıxışında nazir bildirmişdir ki, Azərbaycan Nazirlər Kabinetinin qərarına uyğun olaraq, Naxçıvan MR-nın yaşayış məntəqələrinin rəqəmsal teleyayım standartına keçməsi ilə bağlı işlər uğurla başa çatdırılmış və 2014-cü ilin dekabr ayından analoq TV-nin yayımı dayandırılmışdır. Beləliklə, 2014-cü ilin sonundan başlayaraq, Naxçıvan əhalisi rəqəmsal efir yayımına çıxış əldə etmişdir.**

**BBTV-nin baş direktoru Oleq Popov "Nar Home" məhsulun əsas cəhətlərini və onun "Nar" abunəçiləri üçün üstünlüklərini təqdim etdi. O, öz çıxışında bildirmişdir: "BBTV Azərbaycanda kommersiya TV xidmətləri göstərən ilk şirkət oldu və mən analoq yayımla müqayisədə dəfələrlə yaxşı olan, yayımın keyfiyyəti və sabitliyini təmin edən rəqəmsal efir yayımı kimi növbəti yeniliyi təqdim etməkdən məmnunam". Cənab Popov həmçinin "Nar Home" xidmətlərin gələcəyi ilə bağlı fikirləri bölüşdü. O, əlavə etdi ki, rəqəmsal xidmətlərə keçid dünyanın bir çox ölkəsində artıq baş verib və növbə artıq Naxçıvanındır. Burada, bu gündən etibarən 67 TV kanalı, o cümlədən HD formatında kanallar yayımlanacaq. "Biz 2015-ci ildə Naxçıvan Muxtar Respublikasının əksər yaşayış məntəqələrini rəqəmsal xidmətlərlə əhatə etməyi planlaşdırırıq", - deyə cənab Popov sözlərinə əlavə etdi.**

**Qonaqları salamlayan "Azerfon" MMC-nin ("Nar Mobile" brendi) baş direktoru Kent Maknili Azərbaycanın iqtisadi inkişafının yüksək templərini və hökumətin İKT sektoruna göstərdiyi xüsusi diqqəti qeyd etdi. O, bildirdi ki, İKT sahəsində hökumətin qarşısında duran vəzifələr Azərbaycan əhalisinə bir çox mütərəqqi və yüksəkkeyfiyyətli telekommunikasiya xidmətlərini münasib qiymətlərlə təmin edən "Azerfon" MMC-nin strategiyası və məhsullarında tam əks olunmuşdur.**

**"Nar Home" istehlakçının istifadə etdiyi müxtəlif cihazlarda (televizor, planşet və ya smartfonlar) media və əyləncə xidmətlərindən vahid istifadə imkanlarını yaradan unikal konsepsiyadır. Azərbaycanda analoqu olmayan bu konsepsiya genişzolaqlı İnternetə çıxışı təmin edən texnologiyaya əsaslanır.**

**DVB-T2 texnologiyası əsasında rəqəmsal efir yayımının Naxçıvan MR-də başlanması "Nar Home" konsepsiyasının reallaşdırılmasında ilk mərhələdir. Bu texnologiya rəqəmsal efir yayımında xidmətlərin göstərilməsi sahəsində ən son texnoloji nailiyyətdir və Cənubi Qafqaz regionunda ilk dəfədir ki, tətbiq edilir və istifadə olunur.**


# Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**


# "Məni və övladımı ölümdən xilas edin"

## 21 yaşlı əlil və kimsəsiz qadın imkanlı şəxslərdən kömək istəyir

**Xırdalan şəhərində Simuzər Həsənova ad-soyadlı əlil qadın yaşayır. Öz körpəsi ilə tək-tənha yaşayan bu qadının çox acınacaqlı həyat hekayəsi var. Özünün dediyinə görə, 9 yaşı olanda anası onu və bacısını uşaq evinə verib. O vaxtdan da anasını bir daha görməyib: "Atam anamın ikinci həyat yoldaşı idi. Onlar heç vaxt yola getmirdilər, daim dalaşırdılar. Qəfildən qoca atam dünyasını dəyişdi. Tez bir zamanda anam bizi yaşadığımız Şəmkir rayonundan Bakıya gətirdi, məni və 11 yaşlı bacımı Saraydakı 7 saylı fiziki və əqli qüsurlu uşaqlar üçün internat evinə atdı. Hələ o zamanlar sümük boşluğu xəstəliyindən əziyyət çəkirdim.**

Bacım 18 yaşında çatanda bir oğlanla ailə həyatı qurdu və məni də özü ilə birgə apardı. Lakin bu xoşbəxtlik uzun çəkmədi, bir il sonra bacım avtomobil qəzasına düşdü. Mən artıq o evdə qala bilməzdim. Yaşayış üçün internat evinə qayıtdım, lakin mənə bildirdilər ki, 18 yaşım tamam olduğundan orda qalmaq imkanım yoxdur. Məcburən ata yurdum Şəmkirə getdim. Qohumlarım məni qapıdan içəri belə buraxmadılar, dedilər ki, atan öləndə evi əmisi oğluna vəsiyyət edib. Əlimdəm nə gələrdi ki, kor-peşman geri qayıtdım. Yolda getdiyim avtobus çevrildi və sonrası yadımda deyil, ayılanda xəstəxanada idim, başımdan ciddi zədə almışdım. Bir müddət xəstəxanada qalıb müalicə aldım. Ordan mənə bildirdilər ki, aldığım zədənin fəsadları ciddidir, bu səbəbdən əməliyyat olunmalıyam. Ancaq mənim heç qara qəpiyim də yox idi. Heç bir yerdə mənə iş vermirlər, üzümə baxan kimi xəstə olduğum anlaşılır.

Bir qədər sonra uşağımın atası ilə tanış oldum. O, Vitali adında rus idi, bir yerdə kirayədə yaşayırdıq. Lakin elə hamilə ikən məni atıb getdi. Uşağa atalıq verib, lakin nikahımız olmadığından aliment ala bilmirəm. Ümumiyyətlə isə onun əsl adı, yaşadığı yer barədə məlumatım yoxdur".

**S.Həsənovanın sözlərinə görə, körpəsi anadangəlmə ürək qüsuru ilə doğulub:** "Oğlum Pərviz anadan olanda mənə bildirdilər ki, uşağın ürəyində dəlik var, bir yaşınacan əməliyyat olunmalıdır, əks halda, dəlik böyüyəcək və uşağın yaşaması təhlükə altında qalacaq. 100 manat sosial yardım alıram, 50 manat isə əlilliyə görə alıram. Kirayədə yaşayıram, uşağın yeməyini və dərmanlarını güclə çatdırıb alıram. Özümün xəstəliyim də çox irəliləyib. Tez-tez ürək tutmalarım olur, bəzən uzun müddət özümə gələ bilmirəm. Belə məqamlarda körpə tək qalır, məni qorxudan da budur.

Sığınacaq və bu kimi yerlərdən kömək istəməkdən çəkinirəm. Qorxuram xəstəliyimə görə uşağı əlimdən alsınlar. Əgər müalicə ala bilsəm, heç olmasa 5-10 il yaşayıb balamı böyüdərdim. Ondan sonra hər şeyi Tanrının ümidinə buraxacam. İmkanlı şəxslərdən yalnız bir xahişim var, mənim və balamın müalicəsi üçün yardım etsinlər".

**Qeyd edək ki, imkanlı şəxslər gənc anaya və körpəyə yardım əli uzatmaq istəsələr S.Həsənovanın adına olan bank hesabına pul köçürə bilərlər.**

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT

Son səhifə

N 10 (6038) 16 yanvar 2015



# Kök qadınlar daha çox xərçəngə tutulur

Artıq çəki ciddi şəkildə xərçəng xəstəliyi riskini yaradır.

Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının araşdırmalar üzrə mərkəzlərindən biri olan Beynəlxalq Xərçəng Araşdırmalar Mərkəzinin hesabatında bildirilir. Hesabata görə, aparılan araşdırmalar zamanı məlum olub ki, dünya üzrə bu xəstəliyin 3.6 faiz piylənmə səbəbindən əmələ gəlir. Araşdırmaya görə, artıq çəkili qadınlarda xərçəng xəstəliyi kişilərlə müqayisədə 2.5 dəfə artıq müşahidə edilir.

Alim Melina Arnold artıq çəkinin müxtəlif mexanizmlərinin xərçəngə səbəb olduğunu deyir. "Məsələn, döş xərçəngi. Biz bilirik ki, buna səbəb əsasən piy toxumalarının ifraz etdiyi hormonlardır. Həmin hormonlar xərçəng əmələ gətirir". - mütəxəssis əlavə edib.

Arnoldun dediyinə görə, araşdırmalar zamanı 90 000-ə yaxın kişidə bağırsaq və böyrək xərçəngi aşkar edilib. Qida borusunda və udlaqda xərçəng isə ən geniş yayılan xəstəlikdir və əsasən ağır çəkili kişilərdə müşahidə olunur: "Buna səbəb əsasən mədə turşuluğunun artıq olmasıdır və belə hallar piylənmə olan insanlarda qeydə alınır".

Alimlər artıq çəkinin problemə çevrildiyini və bu problemin gələcək 10 illə 20 il arasında xərçəngin sayını artıracağını proqnozlaşdırır.

# Hamilələrin evində wi-fi olmamalıdır

"Forbes" jurnalı internet və cib telefonları ilə bağlı yeni bir araşdırma yayımlayıb. Araşdırmaya görə, xərçəngə səbəb olan 250 maddə arasında televizor, radio, mikrodalğalı soba, cib telefonu və kablosuz internet(Wi-Fi) yer alır. Alimlər məsləhət görür ki, uşaqları mümkün qədər bu dalğalardan qorumaq lazımdır. Elektromaqnit dalğalara uzun müddət məruz qalan insanlarda xərçəng riski artır, başqa xəstəliklər yaranır. İnsanların məruz qaldığı elektromaqnit dalğaların xərçəngə keçmə dövrü isə 30 il və daha çox hesablanır. "Wi-Fi bizi yavaş-yavaş öldürürmü" başlıqlı məqalə yazan alim Mark Gibbsin fikrincə, 50-100 il sonra dönüb geriyə baxanda cib telefonu və kablosuz internetin insanlıq tarixinin ən böyük sağlıq krizinə səbəb olmasına təəccüblənə biləcəyik. Riskin ən yüksək olduğu dönəm isə körpənin hələ ana bətnində olduğu dönəmdir. Hamilələrin evində Wi-Fi olmamalı, cib telefonu isə onlardan uzaqda olmalıdır.




# 10 aylıq uşaq 5 yaşlıya oxşayır

**Xuanita Valentina Ernandes güclə danışsa da, artıq ölkəsinin ən məşhur insanlarından birinə çevrilib. O, 10 aylıq qızdır və populyarlığının səbəbi hansısa fitri istedadı yox, çəkisidir. 10 aylıq Xuanitanın çəkisi 20 kiloqramdır və o, 5 yaşlı uşaq ağırlığındadır.**

Milli.az BTV-yə istinadən bildirir ki, anadan olanda çəkisi vur-tut 3,2 kq olan Xuanita sürətlə kökəlməyə başlayıb və 10 aydan sonra nəhəng uşağa çevrilib. Həkimlərin dediklərinə görə, 10 aylıq körpənin maksimal çəkisi adətən 8,5 kiloqramdan artıq olmur.

"Qızımın hava şarı kimi şişməsinin səbəblərini bilmirəm. Həkimlərin dediklərinə görə, qızımda patoloji kökəlmə və piylənmə var. Balama görə çox qorxuram. Qızım doğulandan 15 gün sonra kökəlməyə başladı. Müalicə üçün pulumuz yoxdur. İşsizik, kasıbıq", - balaca Xuanitanın anası, Kolumbiyanın Libano şəhərinin sakini Sandra Franko söyləyib.

Kolumbiyadakı "Gorditos de Corazon" xeyriyyə təşkilatı Xuanitanın müalicəsi ilə bağlı xərcləri ödəyəcəyini bildirib. Hazırda paytaxt Boqotada mütəxəssislərin müayinə etdikləri Xuanitada orqanizmdə daimi aclıq hissi yaradaraq vücud çəkisini təhlükəli sürətlə artıran Prader-Villi sindromu var.

Bundan başqa, həkimlər Bekvit-Videman sindromunu da istisna etmirlər.





# Bazarda oğurlandı, 24 il sonra atasına qovuşdu

**Çinli bir adam 24 il əvvəl ayrıldığı atasına qovuşub. Ata-balanın ayrılığına səbəb isə onların getdiyi qida bazarında uşağın qaçırılması olub. Sun Bin adlı gənc atası ilə bazara gedəndə cəmi 4 yaşında idi. Hazırda 28 yaşında olan Sun Bin oğurlanandan sonra evlərindən 600 kilometr uzaqlıqda olan Xuzhou şəhərində uşağı olmayan bir ailəyə 450 manata satılmışdı. Sun Bin deyib ki, "onlar öz ata-anamı məndən oğurladıqları üçün daim aramızda bir məsafə vardı. Amma hər zaman bilirdim ki, həqiqi ailəmi tapmalıyam. Müəyyən bir yaşa gələnə qədər ögey valideynlərimlə həqiqi ailəmlə bağlı danışmadım".**

Sun Bin 2010-da öz valideynlərini axtarmağa başlayıb. İlk addım kimi isə DNA nümunələrini bir banka verib. Beləcə, axtarış başlanıb və ata-bala qovuşublar. 45 yaşındakı atası Ku və anası Lo isə uşaqlarını itdiyi gündən etibarən 4 il boyunca axtarıblar. Amma ana oğlunun həsrətinə dözməyib xəstələnəndən və öləndən sonra axtarışlar məcburən dayandırılıb. 24 il sonra hökumətin və polislərin müdaxiləsindən sonra bir-birinə qovuşan ata-bala göz yaşlarını saxlaya bilməyib.




**QOÇ** - Əvvəlki günlərlə müqayisədə sağlıq durumunuz qənaətbəxşdir. Bundan irəli gələrək fəaliyyətinizi aktivlik müstəvisinə yönəltmək imkanı qazanacaqsınız. İşgüzar görüşləri təxirə salmayın.

**BUĞA** - Yaxşı olar ki, özünüzü bütünlüklə sevgiyə həsr edəsiniz. Çünki məhəbbətin himayədarı olan planetinizin (Venera) ideal nöqtədə qərar tutması aktivliyiniz xeyli artıracaq.

**ƏKİZLƏR** - Ulduzların düzümü kənar təsirlərə məruz qalacağınızdan xəbər verir. Ələlxüsus da saat 12-15 arası ehtiyatı əldən buraxmamalısınız. Sevgi münasibətlərini arxa plana salmayın.

**XƏRÇƏNG** - İlin-günün bu vaxtında orqanizminiz də passivləşməyə vaxt tapıb. Halbuki indiki ərəfədə qarşınızda çoxsaylı vəzifələr var. Deməli, səhhətinizi qorumaqla hər şeyə nail ola bilərsiniz.

**ŞİR** - Kənardan hansısa dəstək alacağınız inandırıcı deyil. Bu səbəbdən də yalnız öz gücünüzə arxalanın. Göy qübbəsi görüş və müzakirələrə gecikməməyi tövsiyə edir. Riskdən qorxmayın.

**QIZ** - Bəxtinizdə maraqlı bir gün durur. Qarşınıza çıxan bütün şanslardan yararlanın. Şəxsi büdcənizin azlığından şikayətlənməyin. Axı hələ hər şey itirilməyib. Azacıq səbr edin.

**TƏRƏZİ** - Hiss olunur ki, ətrafınızda cərəyan edən hadisələr sürətli olsa da, cansıxıcı təsir bağışlayır. Amma bu, ötəridir. Əgər qərarlarınızda qətiyyət göstərsəniz, narahatlıq olmayacaq.

**ƏQRƏB** - Astroloji göstəricilər xoş bir təqvim yaşayacağınızı bildirir. Xüsusən də saat 14-dən sonra bir neçə sürprizlə rastlaşma ehtimalınız var. Şəxsi büdcənizi artırmaq üçün canfəşanlıq göstərin.

**OXATAN** - Diqqətli olun, sizi aldada bilərlər. Ələlxüsus da peşə-sənət fəaliyyətində, işgüzar sövdələşmələrdə ayıq-sayıqlığınızı artırmalısınız. Düşünülməmiş riskə ehtiyac yoxdur.

**OĞLAQ** - Bürcünüzün "hakimiyyət dövrü" daraldıqca işgüzarlığınız da artmaqdadır. Bu səbəbdən şəxsi büdcənizi qorumalı, fəaliyyət istiqamətlərini dəqiqləşdirməlisiniz. Mübahisələrdən qaçın.

**SUTÖKƏN** - Maraqlı adamlarla görüşəcəyinizi bəyan edən ulduzlar hazırkı perspektivləriniz üçün bunun böyük səmərə verəcəyini deyir. Başqa maraqlı olaylarla da qarşılaşacağınız istisna olunmur.

**BALIQLAR** - Uğurlarınıza təkan verildiyindən qlobal problemləriniz arxada qalmaqdadır. Lakin rəqiblərlə münasibətdə ehtiyatı əldən buraxmamalısınız. Adı təhlükədə hallanan vəzifəlilərdən uzaq olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Kök olduğu üçün bardan qovuldu



Şişmanlıqdan əziyyət çəkən 31 yaşlı Mayk Vaudbinin qəribə arıqlama hekayəsi var. Barda rast gəldiyi bir qadın onu "köklüyünüz məni və dostlarımı narahat edir" deyərək oradan qovub. Mayk o vaxtlar 210 kilo ağırlığında olub. Bu hadisədən sonra Mayk 7 il boyunca həkim ziyarətləri xaricində evdən heç bayıra çıxmayıb. Get-gedə daha çox həyatdan küsdüyü bu 7 ilin sonunda isə bir gün spirtli içki ilə dərmanları qarışdıraraq intihara cəhd edib. Ölümdən dönən Mayk həyatında köklü dəyişiklik etməyə qərar verib və dieta ilə birlikdə sistemli idmana da başlayıb. 18 ay içində düz 114.5 kilo verən Mayk artıq 'Mr Muscles' adıyla tanınan bir idman müəllimidir.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.